Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 16 (6158) 1 may 2026-cı il | Qiyməti 40 qəpik

# Prezidentə “Sülh və Barışıq üçün Gernika mükafatı" verildi



Bax:səh-2

## Nazir Göyçayda növbəti vətəndaş qəbulu keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 26-da Göyçay rayonunda növbəti vətəndaş qəbulu keçirib.**

Adalet.az xəbər verir ki, nazir əvvəlcə Göyçay rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Göyçay, İsmayıllı, Şamaxı, Ağdaş, Ucar, Qəbələ, Qobustan və Ağsu rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 226 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 230 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

## Zəngəzur dəhlizi ilə bağlı rəsmi açıqlama



**Naxçıvanın iqtisadi potensialının artması və ölkə iqtisadiyyatındakı rolunun güclənməsi gözlənilir. Hesab edirik ki, Zəngəzur dəhlizinin açılması bu istiqamətdə birmənalı şəkildə müsbət təsir göstərəcək.**

Adalet.az xəbər verir ki, bunu ”Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır” mövzusunda tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

”Eyni zamanda, qabaqlayıcı addım kimi dövlət tərəfindən vergi güzəştlərinin tətbiqi və xüsusi vergi rejiminin formalaşdırılması da bu prosesə əlavə stimul yaradır. Hazırda Ələt azad iqtisadi zonası, sənaye parkları, işğaldan azad olunmuş ərazilərdə vergi güzəştləri qüvvədədir. Bundan əlavə, bu ildən Naxçıvan Muxtar Respublikasında 10 illik vergi güzəştləri tətbiq edilir”, - deyə nazir bildirib.

Mikayıl Cabbarov qeyd edib ki, sahibkarların ixrac imkanlarının genişlənməsi üçün nəqliyyat xərclərinin müəyyən hissəsinin dövlət tərəfindən qarşılanması məqsədilə dəstək tədbiri nəzərdə tutulur. Dövlət başçısı tərəfindən qəbul edilmiş ”Azərbaycan Respublikasında 2026-2029-cu illər üzrə rəqəmsal iqtisadiyyatın inkişafına dair Strategiya”da müəssisələrin rəqəmsal transformasiyası üçün görüləcək işlər əhatə olunub. Sahibkarlarımızın bu sənədlə tanış olmalarını tövsiyə edirik.

## Əməkhaqqı ilə bağlı yenilik ola bilər



**Azərbaycanda saatlıq əməkhaqqı modelinin tətbiqi istiqamətində işlər aparılır.**

Adalet.az xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev ”Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır” mövzusunda keçirilən tədbirdə deyib. O həmçinin qeyd edib ki, bərabər əməkhaqqı və uşaq hüquqlarının qorunması istiqamətində yeni islahatlar üzərində işlər həyata keçirilir.

Nazir xatırladıb ki, müxtəlif illərdə əmək qanunvericiliyinə xeyli dəyişikliklər edilib.

## Azərbaycan-İran sərhəddində yeni keçid məntəqəsi istifadəyə veriləcək

**Azərbaycan-İran sərhəddində yeni sərhəd keçid məntəqəsi istifadəyə veriləcək.**



Adalet.az xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-polkovniki Şahin Bağırov deyib. Komitə sədri bildirib ki, son illərdə Azərbaycanda bir sıra gömrük keçid məntəqələrində infrastruktur imkanları daha da müasirləşir: ”Bu yaxınlarda İranla sərhəddə ”Ağbənd” keçid məntəqəsi inşa olunacaq. İntensiv tikinti işləri aparılır. İşlər yaxın vaxtlarda yekunlaşacaq. Piyadaların da rahat keçidi üçün imkanlar yaradılacaq”.

## Mayda 14 gün iş olmayacaq

**2026-cı ilin istehsalat təqviminə əsasən, may ayında Azərbaycanda qeyri-iş günlərinin sayı açıqlanıb.**

Adalet.az xəbər verir ki, 9 Mayın (Faşizm üzərində Qələbə Günü) şənbə gününə düşməsi səbəbindən, Əmək Məcəlləsinə uyğun olaraq 11 may (bazar ertəsi) də qeyri-iş günü elan ediləcək. Bununla da, 9, 10 və 11 may tarixləri ardıcıl istirahət günləri olacaq.

Eyni zamanda, mart ayında olduğu kimi, mayda da iki bayram - Qurban bayramı (27-28 may tarixləri) və Müstəqillik Günü (28 May) eyni dövrə təsadüf edir. Bu səbəbdən 29 may da qeyri-iş günü sayılacaq. Beləliklə, 27, 28, 29 may tarixləri ilə yanaşı, 30 və 31 may (həftəsonu) da istirahət günləri olacaq.

Nəticədə, may ayında şənbə-bazar günləri də daxil olmaqla ümumilikdə 14 gün qeyri-iş günü olacaq. Növbəti iş günü isə 1 iyun tarixindən başlayacaq.

## DÜZƏLTMƏYİ MÜMKÜN OLMAYAN SƏHVLƏR



**İki peşə sahibinin səhvlərini düzəltmək mümkün deyil: Həkimlər və hakimlər.**

## GÜNÜN LƏTİFƏSİ



Vəli Xramçaylı evdə çimir.

Çimib qurtarandan sonra oğlu təzə alt paltarlarını gətirir:

- Vəli deyir:
- **Qaytar, köhnələri gətir.**
- **Niyə, ata, indi çimmisən axı...**
- **Təzələri geyinsəm, maman elə biləcək ayrı yerə gedirəm.**

*Əbülfət MƏDƏTOĞLU*

## SEVGİ DOLU ÖMÜR

Bax:səh-8

## Prezidentə “Sülh və Barışıq üçün Gernika mükafatı” verildi



**Prezident İlham Əliyev ”Sülh və Barışıq üçün Gernika mükafatı”nın təqdimolunma mərasiminin iştirakçılarına müraciət edib.**

Adalet.az xəbər verir ki, müraciətdə deyilir:

”Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyim səylərə görə ”Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülməyim ilə əlaqədar Gernika-Lumo və Pforshaym şəhər Şuralarına, Gernika Sülh Muzeyinə, Mədəniyyət evinə və ”Gernika Qoqoratuz” Sülh Araşdırmaları Mərkəzinə dərin minnətdarlığımı ifadə edirəm.

Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir. Bu mükafatın 26 aprel - Gernika qurbanlarının anım günündə təqdim olunması xüsusi rəmzi məna daşıyır. 89 il əvvəl Gernikada dinc əhaliyə qarşı törədilmiş amansız cinayət ötən əsrin ən dəhşətli və qanlı səhifələrindən biridir. Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm.

Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajı bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır.

30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış, müharibənin ağır fəsadları ilə üzləşmiş Azərbaycan xalqı da sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq.

2025-ci ilin avqustunda Vaşinqton şəhərində baş tutmuş tarixi Zirvə Görüşündə Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətni paraflanmış, eyni zamanda Birgə Bəyannamə imzalanmışdır. Bununla da üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatmış, xalqlarımız üçün sülhün, barışığın, qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulmuşdur.

Hazırda Azərbaycan bu yeni reallığa və sülh mühitində yaşamağa uyğunlaşır. Ümumi müsbət atmosfer, sabitliyə və təhlükəsizliyə daha çox inam bizi irəliləməyə və inkişaf gündəliyimizə daha çox vaxt və resurs ayırmağa imkan verir. Biz eyni zamanda sülhü möhkəmləndirmək və onu əməli fəaliyyətə çevirmək üçün addımlar atırıq və artıq hər iki cəmiyyətimiz sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur. Bu gün artıq Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac edilir.

İki ölkə arasında etimad quruculuğu tədbirləri davamlı sülhün bərqərar olmasında mühüm rol oynayır. Dövlət səviyyəsində atılan addımlarla yanaşı, vətəndaş cəmiyyətinin nümayəndələri arasında mütəmadi görüşlər bu prosesə müsbət töhfəsini verir.

Azərbaycanın və Ermənistanın nümunəsi göstərir ki, uzunmüddətli münaqişəyə, iztirablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, güclü siyasi iradə və beynəlxalq dəstək mövcud olduqda sülh əldə etmək mümkündür.

Hörmətli dostlar,

”Sülh və Barışıq üçün Gernika mükafatı” yalnız artıq əldə olunmuş nailiyyətlərin tanınması deyil, həm də beynəlxalq birliyin ortaq rifahı, sülh naminə atılacaq gələcək addımlar baxımından mühüm ruhlandırıcı stimul və məsuliyyətdir”.

Bu mükafata görə bir daha təşəkkürümü ifadə edir, sülh, dialoq və qarşılıqlı anlaşmanın təşviqi istiqamətində fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram”.

# Terror fəaliyyəti ilə bağlı yeni cəzalar - 14 ilədək həbs

**Terror təşkilatı yaratma, yaxud həmin təşkilata və ya onun struktur bölməsinə rəhbərlik etmə 10 ildən 14 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.**

Adalet.az xəbər verir ki, bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan Cinayət Məcəlləsinə təklif olunan yeni - 214-4-cü maddədə əksini tapıb.

Layihəyə əsasən, terror təşkilatına üzv olma və ya onun fəaliyyətində iştirak isə 7 ildən 12 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

Maddənin qeyd hissəsində nəzərdə tutulur ki, terror təşkilatına üzv olan və ya onun fəaliyyətində iştirak edən şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla cinayət əməllərinin qarşısının alınmasına, terror təşkilatını yaratmış, ona rəhbərlik etmiş, fəaliyyətində iştirak etmiş və ya onun maliyyələşdirmiş şəxslərin aşkar edilməsinə yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.

Bundan başqa, Cinayət Məcəlləsinin terrorçuluğu maliyyələşdirmə (214-1) və terrorçuluğa açıq çağırışlar (214-2) maddələrində, həmçinin ”Terrorçuluğa



qarşı mübarizə haqqında” Qanunun 1-ci maddəsində texniki dəyişikliklər nəzərdə tutulub.

Qanun layihəsinə əsasən, Cinayət Məcəlləsinin 282-ci maddəsi yeni redaksiyada verilir. Belə ki, 282.1-ci maddəyə elmi-texniki potensialı zəiflətmək məqsədi, habelə kritik informasiya infrastrukturu, enerji, nəqliyyat və telekommunikasiya şəbəkələrinin normal fəaliyyətinin pozulması kimi yeni obyektlər əlavə edilir. Həmçinin, təxribatın törədilmə üsullarına əməli süni intellekt texnologiyalarından və xüsusi proqram təminatlarından istifadə halları da daxil edilir. Layihəyə əsasən, 282.2-ci maddədə bir sıra yeni ağırlaşdırıcı hallar nəzərdə tutulur. Bu ağırlaşdırıcı hallara təxribatın cinayətkar birlik tərəfindən törədilməsi, fövqəladə və ya hərbi vəziyyət, sosial xarakterli fövqəladə mühit rejimi, habelə kütləvi iğtişaşlar zamanı törədilməsi, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi, ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olması aiddir. 282-ci maddənin Qeyd hissəyə əsasən, təxribatın hazırlanmasında iştirak etmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu cür əməlin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.

Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq III oxunuşda qəbul edilib.

# *Mikayıl Cabbarov:* "Çexiyanın enerji təhlükəsizliyinə mühüm töhfə veririk"

**Azərbaycan Çexiyanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir.**

Adalet.az İqtisadiyyat Nazirliyinə istinadən xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan-Çexiya Biznes Forumunda bildirib.

O, Azərbaycanla Çexiya arasında iqtisadi əlaqələrin qarşılıqlı etimad və ortaq prioritetlər əsasında inkişaf etdiyini vurğulayıb. Qeyd olunub ki, tərəfdaşlığın gücləndirilməsində Çexiya ilə İqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiya effektiv institusional mexanizm rolunu oynayır.

Nazir vurğulayıb ki, Çexiya Azərbaycanın əsas ticarət və ixrac tərəfdaşlarındandır. Bununla yanaşı, ticarətin şaxələndirilməsi iqtisadi tərəfdaşlığın əsas prioritetlərindəndir. Çexiya ilə sənaye, ticarət, investisiya, enerji, o cümlədən ”yaşıl enerji”, nəqliyyat-logistika və digər istiqamətlər üzrə birgə fəaliyyətin geniş perspektivləri qeyd edilib. Azərbaycanın iqtisadi potensialı, əlverişli işgüzar mühiti, ticarət, istehsal və logistikanı dəstəkləyən investisiya platformaları, həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sərmayədarlar üçün yaradılan imkanlar diqqətə çatdırılıb.

Bildirilib ki, Azərbaycanın İqtisadiyyat, Çexiyanın Sənaye və Ticarət nazir-



liklərinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO və Çexiyanın Sənaye Konfederasiyasının birgə təşkilatçılığı ilə keçirilən forumda hər iki ölkədən dövlət rəsmiləri ilə yanaşı, ticarət, enerji, sənaye, tikinti, maliyyə, nəqliyyat-logistika, İKT və xidmət sahələrində fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər.

Çexiyanın Baş nazirinin birinci müavini, sənaye və ticarət naziri Karel Havliçek isə Azərbaycanla Çexiya arasında iqtisadi tərəfdaşlığın möhkəmləndirilməsi üçün geniş imkanların mövcud olduğunu vurğulayıb, keçirilən biznes forum və bu qəbildən olan tədbirlərin işbirliyinin inkişafında önəmini qeyd edib, birgə fəaliyyətin inkişafı istiqamətləri haqqında fikirlərini bölüşüb.

AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev Azərbaycanın investisiya potensialı və iqtisadi imkanları barədə təqdimatla çıxış edib. Çexiya Sənaye Konfederasiyasının prezidenti Yan Rafay isə biznes dairələri arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb, əməkdaşlıq mexanizmləri və yeni tərəfdaşlıq imkanları barədə danışıb. Forum çərçivəsində imzalanmış sənədlərin mübadiləsi mərasimi keçirilib. AZPROMO ilə ”Fr?dlantsk? Stroj?rny - TR s.r.o.” şirkəti, Çexiya-Moraviya Qadın Sahibkarlar Assosiasiyası ilə Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası arasında əməkdaşlıq memorandumları, AZPROMO ilə Çexiyanın Sənaye Konfederasiyası, Sumqayıt Texnologiyalar Parkı ilə ”?koda Transportation” şirkəti, ”BCC Group CJSC Azerbaijan” ilə ”WITKOWITZ, A.S., RADIS D.O.O” arasında isə anlaşma memorandumları mübadilə olunub.

Sənədlər sahibkarlığın inkişafına dəstək, biznes fəaliyyətinin genişləndirilməsi, sənaye, infrastruktur və nəqliyyat kimi sahələrdə işbirliyini təşviqini əhatə edir. Mübadilə olunan sənədlər Azərbaycan-Çexiya iqtisadi tərəfdaşlığının möhkəmləndirilməsinə və şaxələndirilməsinə töhfə verəcək.

Tədbir zamanı həmçinin B2B və B2G görüşlər təşkil olunub.

# *XİN-dən sərt reaksiya:* “Nyu-York merinin saxta bəyanatları dərhal silinməlidir”

**Azərbaycan Xarici İşlər Nazirliyi Nyu-York meri Zohran Məmdaninin qondarma ”erməni soyqırımı” ilə bağlı bəyanatını pisləyib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan XİN sözçüsü Ayxan Hacızadə ”X” hesabında bildirib. Ayxan Hacızadə qeyd edib ki, ictimai fiqurlar məsuliyyətli davranmalı, dezinformasiya yaymaqdan çəkinməli və siyasi motivli, tarixi baxımdan yanlış bəyanatlarla parçalanmanı dərinləşdirmək əvəzinə barışığa töhfə verməlidirlər.

”Sizin təhrikedici bəyanatınızı rədd edirik. Bu cür fikirlər regionun tarixi və reallıqları barədə anlayışın yetərsiz olduğunu göstərir və faktları siyasi məqsədlər üçün təhrif edir. 2020-ci ildə Azərbaycan beynəlxalq səviyyədə tanınmış suveren əraziləri daxilində, beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun hərəkət edib. 2023-cü ildə həyata keçirilən antiterror



tədbirləri 30 il davam edən qanunsuz işğaldan sonra Azərbaycanın konstitusiya quruluşunun bərpası ilə nəticələndi. ”Qovulma” iddiaları isə erməni sakinlərə reinteqrasiya, tam bərabər hüquqlar və təhlükəsizlik təminatlarının təklif edildiyini nəzərə almır. Xüsusilə narahatedicidir ki, seçilmiş bir vəzifəli şəxs işğal dövründə yüz minlərlə azərbaycanlıya qarşı törədilmiş etnik təmizləmə və qırğınları, eləcə də mədəni və dini irsin məhv edilməsini görməzdən gələrək birtərəfli narrativləri təbliğ edir. Bu cür məsuliyyətsiz bəyanatlar qəbuledilməzdir və dərhal silinməlidir”, - XİN rəsmisi vurğulayıb.

# Kəmaləddin Heydərov Özbəkistanda səfərdə olub

**Aprelin 29-da Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun başçılıq etdiyi Nazirliyin nümayəndə heyəti Özbəkistan Respublikasında keçirilən "Zəlzələ Qurbanlarının Beynəlxalq Anım Günü"nə həsr olunmuş beynəlxalq tədbirdə iştirak etmək məqsədilə həmin ölkədə səfərdə olub.**

FHN-in Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, əvvəlcə, nümayəndə heyəti Daşkənd şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib.

Qeyd edək ki, 29 aprel tarixi Özbəkistanın təşəbbüsü ilə BMT Baş Assambleyası tərəfindən ötən il qəbul olunmuş qətnaməyə əsasən "Zəlzələ Qurbanlarının Beynəlxalq Anım Günü" kimi qeyd edilir.

Azərbaycan FHN-in nümayəndə heyətinin iştirak etdiyi və Daşkənddə keçirilən "Zəlzələ Qurbanlarının Beynəlxalq Anım Günü"nə həsr olunmuş tədbirin əsas məqsədi təcrübə mübadiləsi üçün mühüm beynəlxalq platformaya çevrilərək, ikitərəfli və çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsi, qlobal səviyyədə zəlzələlərə hazırlığın və dayanıqlığın artırılması üzrə effektiv strategiyaların müzakirəsi olub.

Tədbirdə müxtəlif ölkələrdən və beynəlxalq təşkilatlardan olan nümayəndə heyətləri, eləcə də tanınmış alim və mütəxəssislər iştirak ediblər.

Tədbirdə zəlzələ ilə əlaqəli fəlakət riskini azaltmaq məqsədilə dövlətlərin malik olduqları imkanların səfərbər edilməsi, seysmik təhlükəsizlik sahəsində beynəlxalq səviyyədə tanınan alimlər, tədqiqatçılar və mütəxəssislər arasında davamlı dialoq mexanizminin yaradılmasının əhəmiyyəti qeyd olunub, bu istiqamətdə qarşılıqlı təcrübə mübadiləsinin, o cümlədən müasir texniki nailiyyətlər və rəqəmsallaşmanın tətbiqi ilə birgə elmi tədqiqatların aparılması və nəticələrinin qlobal miqyasda reallaşdırılması kimi məsələlər müzakirə olunub.



Beynəlxalq tədbir çərçivəsində iştirakçılar 1966-cı ildə Daşkənddə baş vermiş dağıdıcı zəlzələnin qurbanlarının xatirəsinə ucaldılmış "Cəsarət" abidəsini ziyarət ediblər.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Özbəkistan Respublikasının fövqəladə hallar naziri general-mayor Azizbek İkramovla görüşüb.

Səfər müddətində nümayəndə heyətinə göstərilən diqqətə və qonaqpərvərliyə görə təşəkkür edən nazir K.Heydərov beynəlxalq tədbirin yüksək səviyyədə təşkil olunduğunu bildirib, əhəmiyyətini vurğulayıb. Qədim tarixi köklərə malik Azərbaycan-Özbəkistan münasibətlərinin iki ölkə liderlərinin müdrik uzaqgörənliyə və qarşılıqlı etimada söykənən səyləri sayəsində son illər strateji tərəfdaşlıq səviyyəsində sürətlə inkişaf etdiyini xatırladan nazir, bu çərçivədə fövqəladə halların idarə edilməsinə məsul qurumlar arasında əlaqələrin daha da genişləndirilməsi üçün geniş imkanların mövcud olduğunu qeyd edib.

Nazir "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Özbəkistan Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında 2026-2027-ci illər üzrə birgə fəaliyyət Planı"nın hazırda fəal icra mərhələsində olduğunu, nəzərdə tutulan tədbirlərin uğurla yerinə yetirildiyini bildirib. Özbəkistan Respublikasının fövqəladə hallar naziri Azizbek İkramov, öz növbəsində, Daşkənddə keçirilən "Zəlzələ Qurbanlarının Beynəlxalq Anım Günü"nə həsr olunmuş tədbirdə Azərbaycan nümayəndə heyətinin iştirakına görə minnətdarlığını bildirib. Nazir A.İkramov Azərbaycan və Özbəkistan arasında çoxəsrlik tarixə malik münasibətlərin hər iki ölkə liderlərinin strateji və müdrik baxışları sayəsində ildənilə daha da genişləndiyini vurğulayıb. Nazir fövqəladə hallarla mübarizə sahəsində iki ölkənin uyğun qurumları arasında əlaqələrin daha da genişləndirilməsinin qarşılıqlı faydasını qeyd edib, bu istiqamətdə həyata keçirilən tədbirlərdən danışıb.Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

*Rüstəm Hacıyev*

# Avropa İttifaqı Rusiya ilə müharibəyə hazırlaşır



**İtaliyanın "L'AntiDiplomatico" nəşri yazır ki, Avropa İttifaqı Rusiya ilə müharibəyə hazırlıq məqsədiylə özünün hərbi, o cümlədən nüvə potensialını artırır.**

**Qəzet, Rusiya ilə mümkün müharibə əlamətlərini açıqlayıb. Birinci əlamət -"dron istehsalının artırılması". Bu, Ukrayna hərbi qüvvələrinə kömək məqsədiylə "arxa cəbhədə istehsalı" inkişaf etdirmək, təbii ki, müharibə şəraiti üçün adekvat hesab oluna bilər.**

**İkinci əlamət,- Almaniyanın timsalında mülki istesal müəssisələrinin milliləşdirilməsi. Görünən odur ki, çətin, təbii ki, yaxın müddətə bu bahalı transfotmasiyanı həyata keçirməyin mümkün olmadığı düşünən Berlin, Rusiya ilə qaçılmaz qarşıdurmaya hazır olmaq üçün, artıq uzun müddətdir ki, kütləvi şəkildə silah istehsalını artırır.**

**Üçüncü əlamət- Baltik, Qsra dəniz və Aralıq dənizlərində Rusiys gəmilərinə qarşı aqresiv hərəkətlər.**

**Rudiyaya qarşı müharibə daha çox dənizlərə keçirilir. Əvvələr Qara dənizdə Rusiya tankerlərinə hücumlar təşkil edilirdisə, artıq Bsltik və Aralıq dənizlərində də, Rusiya tankerləri hücumlara məruz qalırlar.**

**Dördüncü əlamət- jurnalistlər qeyd edirlər ki, Avropa məqsədli şəkildə nüvə potensialını artırır, həmçinin nüvə silshlarını Rusiya sərhədlərinə yaxın ərazilərə, o cümlədən Polşa və Finlandiyaya yerləşdirir.**

**İtalyan nəşri daha əvvəldə bilditirfi ki, avropalılar Ukrayns müharibəsinin uzanmasında maraqlıfırlar, çünki özləri Moskva ilə konfrantasiyaya hazırlıqlarını başa çatdırılması üçün vaxt qazana bilsinlər.**

**Vesru. ru saytının materiallarından istifadə olunub**

# "Ukrayna Azərbaycanı həm təhlükəsiz və həm də etibarlı bir ölkə kimi qəbul edir"

**"Zelenskinin Azərbaycana səfəri müxtəlif aspektlərdən qiymətləndirilə bilər. Səfərin iqtisadi aspektlərindən daha çox geosiyasi, siyasi və enerji təhlükəsizlik tərəfləri daha çox diqqəti çəkir. Məlumdur ki, bir tərəfdən Rusiya Ukrayna, digər tərəfdən isə ABŞ-İsrail cütlüyü ilə İran arasındakı müharibə qlobal miqyasda geosiyasi balansın və təhlükəsizlik arxitekturasının pozulmasına gətirib çıxarıb".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Qulamhüseyn Əlibəyli deyib. O, bildirib ki, bu müharibələrdə Azərbaycanın siyasəti konkret bir dövlətin tərəfini tutmadan özünün geosiyasi, iqtisadi və milli təhlükəsizlik maraqlarının həyata keçirilməsinə yönəlib: "Azərbaycan müharibə edən dövlətlərin hamısı ilə ehtiyatlı balans siyasəti mövqeyini tutub və bu mövqenin məqsədəuyğunluğu şübhə doğurmur. Belə ki, Azərbaycan Ukraynanın ərazi



bütövlüyünü tanıyır və açıq şəkildə dəstəkləyir, dəfələrlə Ukraynaya humanitar yardım göstərib və Ukraynanın enerji təhlükəsizliyinə kömək edib. Azərbaycan eyni zamanda Rusiyaya qarşı beynəlxalq sanksiyalara qoşulmayıb, həm Ukrayna və həm də Rusiya ilə ikitərəfli münasibətləri, iqtisadi və mədəni əlaqələri inkişaf etdirməyə çalışır". Onun sözlərinə görə, eləcə də ABŞ-İsrail cütlüyünün İrana qarşı müharibəsində eyni mövqeyi tutdu və bir neçə dəfə İrana humanitar yardım göstərdi, ayrı-ayrı dövlətlərinin öz vətəndaşlarını müharibə bölgəsindən çıxarmasını təşkil etdi: "Balanslı və təmkinli xarici siyasət dövlətimiz üçün səmərəsini verməkdədir. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında, Şərq-Qərb və Şimal-Cənub arasında qarşılıqlı faydalı əlaqələrin qurulması və inkişafında əhəmiyyətli rol oynayır, tədricən diplomatik çəkisini artırır və tərəfsiz diplomatik mərkəzə çevrilir. Bir çox dövlətlər Azərbaycanın regional rolunu etiraf edir və ölkəmizlə ikitərəfli əməkdaşlığı genişləndirmək istəyir. Zelenskinin Rusiya ilə Ukrayna arasında danışıqların Azərbaycanda keçirilməsi təklifi bunu bir daha təsdiq edir. Danışıqların mümkün məkanı kimi Azərbaycanın təklif olunması təsadüfi hesab edilməməlidir. Bu, o deməkdir ki, Ukrayna Azərbaycanı həm təhlükəsiz və həm də etibarlı bir ölkə kimi qəbul edir". Q.Əlibəyli deyib ki, Zelenskinin səfərinin Azərbaycanla Ukrayna arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti də qeyd olunmalıdır:

"Bu baxımdan danışıqlar zamanı əsas diqqətin enerji və ticarət məsələlərinə aid olması. Azərbaycan qazının Avropaya nəqlində Ukraynanın tranzit və ya loqistik rolunun müzakirəsinə verilməsi ehtimalı daha çoxdur. Eyni zamanda işğaldan azad edilmiş ərazilərimizdə gedən bərpa və yenidənqurma işlərində təcrübənin nəzərə alınaraq gələcəkdə Ukraynanın müharibədən zərər görmüş bölgələrində bərpa və yenidənqurma layihələrində Azərbaycanın potensial iştirakı da müzakirə obyekti ola bilər.Zelenskinin səfəri həm də Ukraynanın Cənubi Qafqazda möhkəmlənmək, yeni geosiyasi mövqelər qazanmaq və regional təhlükəsizlik sistemi yaratmaq, Rusiyanın mümkün təsir imkanlarını azaltmaq cəhdi kimi də qiymətləndirilir. Bu qiymətləndirmədə müəyyən həqiqətlərin olması istisna olunmur. Bütövlükdə bu səfərinin yekunları Azərbaycan hakimiyyətinin, Prezident İlham Əliyevin uzaqgörən xarici siyasətinin növbəti diplomatik uğuru hesab oluna bilər".

**Vasif ƏLİHÜSEYN**

## "Əgər məktəbdə iş tərbiyə, nəsihət, psixoloq söhbətindən ötübsə..."



**"Orta məktəblərdə baş verən xoşagəlməz hadisələr məktəb polisinin yaradılmasını zəruri edir. Məktəblərlə, şagirdlərlə daha ətraflı məşğul olmaq üçün polisə əlavə səlahiyyətlər verilməlidir. Vəziyyət onu göstərir ki, bıçaqlaşma və digər mənfi hadisələrin daha geniş vüsət almaması üçün məktəb tərbiyəçisi, psixoloq yaxud valideynlərin ümidinə qalmaq olmaz. Xoşagəlməz hadisələr zamanı məktəblə valideyn təqsiri bir-birinin üstünə atır. Bu mənzərə uzun illərdir beləcə davam edir. Nəticədə də təhsil sahəsində, məktəblər haqqında xoşagəlməz obraz yaranır".**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

O, vəziyyəti polisin düzəldəcəyinə inandığını bildirib:

"Lazım gələrsə valideyni də çağırıb xəbərdarlıq edər, hüquqi məsuliyyətini izah edər, övladına nəzarət edəcəyi haqda dilindən iltizam alar. Toplumun xarakteri belədir ki, bir nəsihəti müəllim yaxud mülki şəxs edəndə qulaqardına vurur, ancaq polis praflaktik söhbət aparanda, bir az zəhmli xəbərdarlıq edəndə canına istilik keçir, özünü düzəldir. Məktəblərdə baş verən xoşagəlməz olaylar bəzi şagirdlərin cinayətə meylinin artma tempindən xəbər verir. Əgər iş tərbiyə, nəsihət - vəsiyyət, psixoloq söhbətindən ötübsə demək bu məsələlərlə mütləq güc qurumu məşğul olmalıdır. Vəziyyət daha da acınacaqlı duruma gəlmədən bu barədə düşünülməlidir".

**Vasif**

## "İranla danışıqlar çox məxfi gedir"

ABŞ dövlət katibi Marko Rubio İranın xarici işlər naziri Abbas Əraqçi ilə heç vaxt əlaqə saxlamayıb.

Adalet.az xəbər verir ki, Rubio bunu Fox News-a verdiyi müsahibədə bildirib:

"Mən heç vaxt İranın xarici işlər naziri ilə danışmamışam. Dediyim kimi, o, nadir hallarda Amerikalılarla ünsiyyət qurub. Bunlar əsasən dolayı söhbətlərdi. Son bir neçə həftə ərzində İslamabadda keçirilən görüşlərlə əlaqədar bəzi birbaşa əlaqələr olub. Unutmayın ki, İran sistemi uzun müddətdir ki, amerikalılarla birbaşa danışıqlara qadağa qoyub".

Rubio onu da qeyd edib ki, İran-ABŞ təmasları məxfi saxlanılır: "Onlarla birbaşa əlaqə çox nadir, çox məxfidir və yalnız sistemlərində bir və ya iki nəfər vasitəsilə baş verir".

# Politoloq: "Çexiya Avropada Azərbaycanın etibarlı tərəfdaşıdır"

**"Çexiya Azərbaycan əlaqələri strateji tərəfdaş səviyyəsində uzun müddətdir davam edir. İki ölkə konfedensial strateji tərəfdaşlığı uzunmüddət davam edirib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

"Xüsusilə, Ermənistan - Azərbaycan münaqişəsinə görə Avropa ölkələri Azərbaycana silah satışı embarqosu tətbiq edərkən Çexiya Azərbaycanla sıx hərbi -texniki əməkdaşlıq edib. Azərbaycana "DANA" özüyeriyən artilleriya qurğuları və digər silahlar satıb. Avropada Azərbaycanın etibarlı tərəfdaşı olub.

Bu gün iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq yüksək səviyyədə təmin edilməsi istiqamətində mühüm sənədlər imzalanıb. Çexiyanın Baş nazirinin Azərbaycana səfəri məhz dostluq və strateji əhəmiyyətli səfər idi", - deyə o, bildirib.

**Sübhan**



*Səxavət Məmməd*

# Radikal dindarlıq və modern müharibələr...

**Müharibələrin fəlsəfəsi artıq kökündən dəyişib. Keçmişin müharibələrində qələbə düsturu kütləvi gücə, tükənməz resursa və fiziki üstünlüyə dayanırdısa, bu gün mənzərə tamamilə fərqlidir. İndi hədəf düşməni fiziki olaraq tamamilə yox etmək deyil, onun "beynini" - komanda mərkəzlərini, rabitəsini və logistikasını iflic etməkdir. Bir "ağıllı" raket onlarla qeyri-dəqiq top mərmisini əvəz edir.**

**Əvvəllər müharibənin konkret ünvanı vardı: səngər, cəbhə xətti, neytral zona. İndi isə müharibə hər yerdədir: kiber-məkan, maliyyə bazarları, informasiya axını və geoməkan (GEOINT). Artıq "arxa cəbhə" anlayışı yoxdur; bir proqramçının yazdığı kod minlərlə kilometr uzaqdakı bir elektrik stansiyasını sıradan çıxara bilər. Bu, müharibəni xətti olmayan və hər an davam edən bir prosesə çevirir.**

**Azərbaycanın 44 günlük müharibəsi 2020-ci il üçün müasir savaşın ən uğurlu nümunəsi idi. Çünki bu müharibə həm klassik (səngər, tank, artilleriya), həm yüksək texnoloji asimmetriya (PUA-lar), həm də güclü informasiya və diplomatiya cəbhəsindən eyni anda istifadə edilən bir hibrid model idi. Rusiya-Ukrayna müharibəsinin ilk dövrləri isə rusların kütləvi tank və artilleriya hücumları ilə köhnə fəlsəfənin bariz nümunəsi kimi yadda qaldı. Ancaq dronların gücünü qəbul etməyən klassik düşüncəli rus generalları, ağır itkilərdən sonra asimmetrik və hibrid metodlara keçmək məcburiyyətində qaldılar.**

**Asimmetrik yanaşmada güclər bərabər olmur; burada kiçik tərəf böyük gücün üstünlüklərini ona qarşı silaha çevirir. Bunun ən aydın nümunəsini İranın minlərlə ucuz dronla İsrailin milyonlarla dollarlıq HHM sistemlərini "yormasında" görürük. Bahalı bir raketi (məsələn, Arrow və ya Patriot) ucuz dronu vurmağa məcbur etmək iqtisadi asimmetriya yaradır. Bu döyüşlərdə ən vacib amil "görünməzlik"dir. Ancaq geoməkan kəşfiyyatı (GEOINT) inkişaf etdikcə, gizlənmək çətinləşir və tərəflər daha mürəkkəb taktikalar seçməli olur.**

**Hibrid müharibə isə hərbi, kiber və informasiya metodlarının vahid mərkəzdən idarə olunan "kokteyli"dir. Burada "sülh" və "müharibə" arasındakı sərhəd itir; fəlsəfə rəqibi daxildən sarsıtmaq və qələbəni döyüş meydanından kənarda qazanmaqdır. ABŞ-ın İrana qarşı apardığı müharibə məhz bu cür asimmetrik və hibrid xarakter daşıyır. Ancaq İranın da buna hazır olması, faktiki olaraq ABŞ-ni çətin vəziyyətə salıb.**

**Müharibələrlə paralel kəşfiyyat anlayışı da transformasiyaya uğrayıb. Hətta deyərdim müharibələrin fəlsəfəsinin dəyişməsinin səbəbi məhz kəşfiyyat anlayışının dəyişməsinə bağlıdır. Əvvəllər kəşfiyyat məlumatının analizi günlər çəkirdisə, indi sensorlar və süni intellekt sayəsində "aşkar etmə" ilə "məhv etmə" arasındakı vaxt saniyələrə enib. Hərbi terminologiyada buna "Kill Chain" (Məhv etmə zənciri) deyilir. Artıq sürət hər şeydir; kim tez qərar verirsə, o qalib gəlir.**

**Bu dəyişikliyin ana hərəkətverici qüvvəsi isə Geoməkan Kəşfiyyatıdır (GEOINT). O, müharibənin ən qədim fəlsəfəsini - "sürpriz hücum" elementini sarsıdıb. Sun Tzu "müharibə aldatma sənətidir" deyirdi, amma peyklərin 24/7 izlədiyi dünyada gizli yerdəyişmə qeyri-mümkündür. İndi fəlsəfə "gizlənmək" deyil, "görünsən belə, toxunulmaz olmaq" (manevr və REM vasitələri) üzərinə keçib.**

**GEOINT sadəcə xəritə deyil, peyk görüntülərinin, sensorların və süni intellektin sintezidir. O, proqnozlaşdırma üçün də həllediciidir. Məsələn, İranın bunkerlər tikərək GEOINT-dən yayınmağa çalışması buna bir reaksiyadır. Ancaq müasir radarlar (SAR) və termal sensorlar torpağın altındakı temperatur fərqlərini belə aşkar edərək bunkerin konturlarını cıza bilir. Süni intellekt illər boyu yığılmış arxiv görüntülərini müqayisə edərək yer səthindəki millimetrlik dəyişiklikləri, vibrasiyaları tapır. GEOINT-dən tam yayınmaq deyil, ancaq onu aldatmaq (inşaatı mülki obyekt kimi göstərmək, saxta koordinatlar yaratmaq) mümkündür.**

**Geoməkan kəşfiyyatı artıq təkcə "nə var?" sualına deyil, həm də "burada nə gizlədilə bilər?" sualına cavab tapır.**

**Müasir müharibə fəlsəfəsi artıq sadəcə bayraq sancmaqdan ibarət deyil; bu, reallığı kimin hansı prizmadan görməsi və kimin informasiya üstünlüyünü sona qədər saxlaması mübarizəsidir.**

**Azərbaycan 44 günlük müharibədə sübut etdi ki, geoməkan kəşfiyyatı yalnız böyük dövlətlərin imtiyazı deyil; texnoloji resursları düzgün idarə edən hər bir dövlət döyüş meydanını rəqəmsal müstəviyə köçürərək mütləq üstünlük qazana bilər.**

# "Azərbaycan dünya üçün vazkeçilməz ölkəyə çevrilib"

**"Son bir neçə günün hadisələri Azərbaycanın artıq Cənubi Qafqazın deyil, Avropanın və dünyanın daha çox diqqətini çəkdiyini, həlli vacib olan məsələlərin müzakirə edildiyi mühüm mərkəzə çevrildiyini sübut edir. Latviya və Ukrayna prezidentlərinin ardınca Çexiyanın Baş naziri Andrey Babişin ölkəmizə səfəri "qoca qitənin" həyatında Azərbaycanın müstəsna yer tutduğunu, əhəmiyyətini göstərir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin sədr müavini Musa Qasımlı deyib.

O, bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mətbuata bəyanatında bu gün və gələcək baxımından böyük əhəmiyyət daşıyan fikirlər vardır:

"Birincisi, strateji tərəfdaş olan dövlətlərimiz arasında dostluğa söykənən münasibətlər artıq ikitərəfli səviyyəni aşaraq region və dünya işlərini əhatə edir. Dövlət başçımız dedi: "Bizim indi çox fəal siyasi dialoqumuz var. Bu gün



bir çox məsələlər - həm regional, həm ikitərəfli, həm də daha qlobal xarakter daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır."İkincisi, məlumdur ki, ölkələr arasında münasibətlərin davamlılığından ötrü maddi təmələr, onları bir-birinə bağlayan bağlar mütləq möhkəm olmalıdır. Cənab Prezidentimizin dediyi "ticarət dövriyyəsinin daha tarazlı olmasını və strukturun təkmilləşdirilməsini arzulayırıq" sözləri ölkələrimiz arasında idxal və ixracda tarazlığın yaradılmasına, deməli, qarşılıqlı asılılığı möhkəmləndirməyə hədəflənib. Bu isə o deməkdir ki, yaxın gələcəkdə ticarət, enerji ehtiyatları ilə yanaşı digər sahələrdə də əməkdaşlığı görəcəyik. Keçirilən biznes-forum da ona xidmət edir. Dünya bazarlarına öz enerji ehtiyatlarını ixrac edən etibarlı ölkə olan Azərbaycandan idxal etdiyi neftin 42%-ini alan Çexiya indi də Azərbaycan qazına ehtiyac duyur.

Üçüncüsü, iki ölkə arasında önəmli əməkdaşlıq sahəsi müdafiə sənayesi ilə bağlıdır. Çexiyadan hərbi təyinatlı məhsulların alışı ilə yanaşı bundan sonra birgə istehsala da başlanılacaqdır. Azərbaycan dünya üçün vazkeçilməz ölkəyə çevrilib. Buna isə təkcə əlverişli coğrafi-siyasi mövqe, ərazi, əhali və təbii sərvətlərlə nail olmaq mümkün deyildir. Başlıca amil Liderin üstün zəkası ilə müəyyənləşdirdiyi strategiyanın həyata keçirilməsidir".

**Vasif ƏLİHÜSEYN**

# Sosial şəbəkələrdə cəlbedici reklamlarla bağlı xəbərdarlıq

**Daxili İşlər Nazirliyi vətəndaşlara xəbərdarlıq edib.**

Adalet.az xəbər verir ki, xəbərdarlıqda deyilir:

"Sosial şəbəkələrdə və müxtəlif onlayn platformalarda tez-tez "brend məhsullar çox ucuz qiymətə satılır" kimi cəlbedici reklamlarla rastlaşmaq mümkündür. İlk baxışda bu təkliflər son dərəcə sərfəli və cazibədar görünür.

Bu cür reklamlar əksər hallarda məşhur brendlərin adından istifadə etməklə etibar qazanmağa yönəlir.

Məhsullar real bazar qiymətindən xeyli aşağı təqdim olunur, "son fürsət", "məhdud sayda" kimi ifadələrlə insanlarda tələskənlik hissi yaradılır və düşünülməmiş qərar verməyə sövq edilir. Bu tip halların əsas məqsədi isə vətəndaşların şəxsi məlumatlarını, xüsusilə bank kartı məlumatlarını ələ keçirməkdir.

DİN vətəndaşlara aşağıdakı təhlükəsizlik qaydalarına əməl etməyi tövsiyə edir:

- Şübhəli linklərə daxil olmayın;
- Saytın ünvanını və etibarlılığını diqqətlə yoxlayın;
- Alış-verişi yalnız etibarlı və tanınmış platformalarda edin;
- Emosional təzyiq yaradan reklam və kampaniyalara aldanmayın.

Belə hallarla qarşılaşdıqda həmin reklamlara reaksiya verməmək vacibdir. Əgər artıq hər hansı məlumat daxil edilibsə və ya şübhəli əməliyyat baş veribsə, vaxt itirmədən müştərisi olduğunuz



banka və hüquq-mühafizə orqanlarına məlumat verin.

Unutmayın, onlayn platformalarda diqqətli davranmaq hesabınızdakı vəsaiti qorumağın ən etibarlı yoludur".

# "ABŞ Çin hərbi gəmilərinin Tayvan boğazında yaxınlaşmasından narahatdır"

**"ABŞ Prezidenti Donald Trampın martın sonunda Çinə səfəri planlaşdırılırdı. Ancaq həmin günlərdə ABŞ-ın İrana qarşı müharibəsi davam etdiyinə görə, Ağ Ev sahibi Çinə səfəri təxirə saldı. Tramp açıqlama verərək səfərin may ayının ortalarında gerçəkləşəcəyini bildirdi. Ancaq həmin tarix də dəqiq olmaya bilər. Məsələ burasındadır ki, ABŞ Tayvana 6 milyard dollar dəyərində silah və hərbi texnika verəcək".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, Vaşinqton Tayvanı Çinin bir hissəsi olaraq tanıyır:

"Buna baxmayaraq, Vaşinqton adanın hərbi yolla Çinə birləşdirilməsinin əleyhinədir. ABŞ Tayvanın əsas hərbi təchizatçısı olaraq qalır. Donald Tramp Çin lideri Si Cinpinlə dialoqun və görüşlərin tərəfdarı olsa da, onunla Tayvan mövzusunu müzakirə etmək istəmir. Si Cinpin isə Donald Trampla görüşdə ABŞ Prezidentinin Tayvanla bağlı açıqlama verməsində maraqlıdır. Donald Tramp sadəcə Vaşinqtonun Tayvanın müstəqillik elanını dəstəkləməməsi və vahid Çinin mövcudluğunu tanıması barədə sələflərinin dediklərini təkrarlayacaq".

Politoloqun sözlərinə görə, buna baxmayaraq, Donald Tramp Tayvanla



hərbi əməkdaşlığın tərəfdarıdır: "Çünki, Tayvan hökuməti aldığı hərbi texnikaya görə ABŞ-yə milyardlarla dollar pul ödəyir. Tramp üçün bu əhəmiyyətli amillərdən biridir.

ABŞ Tayvana raketlər, artileriya sistemləri satacaq. Bundan başqa ABŞ-la Tayvan arasında imzalanan başqa müqaviləyə görə, Amerika Tayvan Hərbi Dəniz Qüvvələrinə silah tədarük edəcək. ABŞ Tayvanla birgə hərbi təlimlərə də ara vermək istəmir. Çünki, ABŞ Çin hərbi gəmilərinin Tayvan boğazında yaxınlaşmasından narahatdır. Çin Cənubi Çin dənizinə nəzarət baxımından əhəmiyyətli bir üstünlüyə malikdir. Çinin bölgədə həmçinin təyyarələri eniş etdirə bilən süni adaları var".

E.Şahinoğlu deyib ki, Si Cinpin Donald Trampın Çinə səfərinin növbəti dəfə təxirə salınmasını istəmir:

"Çünki, Çin ABŞ ilə ticarət əməkdaşlığına "oyun qaydalarının" müəyyənləşdirilməsinə çalışır. Tramp da "oyun qaydalarını" müəəyyəlnəşməsini istəyir. Ancaq Vaşinqtonla Pekin arasında fərq ondadır ki, Tramp Çinlə idxal-ixrac əməliyyatlarının balanslaşdırılmsına çalışır. Çin isə dünya bazarlarına daha çox məhsul ixrac etmək istəyir. Tramp bunda maraqlı deyil. Bu arada, Rusiya və Hindistan arasında müdafiə müqaviləsini imzalaması və təsdiq olunması Pekinin narahatlığına səbəb olub. Dünyanın ən çox əhalisinə malik olan Hindistan xarici hərbçilərə ilk dəfə öz ərazisində müvəqqəti yerləşməyə icazə verib. Rusiya-Hindistan əlaqələrinin, xüsusən də müdafiə sektorunda dərinləşməsi regional müharibələr fonunda baş verib. Buna qədər Çin Rusiya ilə müdafiə sahəsində əməkdaşlıq edirdi. İndi isə Çinin bölgədəki əsas rəqiblərindən biri - Hindistan Rusiya ilə hərbi əməkdaşlığı dərinləşdirməyə qərar verib. Müqavilə Rusiyaya Hind okeanına giriş imkanı verir və öz növbəsində Yeni Dehli Vladivostokdan Murmanska qədər şimal dəniz yolu boyunca limanlara çıxış əldə edəcək".

**Sübhan**

# Azərbaycan-Çexiya əməkdaşlığının böyük hissəsi energetika sektoruna aiddir



*Əbilfəz Mahmudov, Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın üzvü, energetik*

**Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi günbəgün möhkəmlənir. Bu özünü həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar daxilində əlaqələrin inkişafında təsdiqləyir. Qarşılıqlı səfərlər fonunda münasibətlərin yeni istiqamətlər üzrə inkişafı beynəlxalq təşkilatlarda birgə səylərin göstərilməsinə geniş imkanlar yaradır.**

Belə səfərlərdən biridə aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babişin Azərbaycana səfəri oldu.

Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Çex Respublikasının Baş naziri Andrey Babiş mətbuata bəyanatlarla çıxış etdilər. Çexiyanın Baş nazirinin bu səfəri məhz iqtisadi reallıqlar fonunda formalaşan yeni əməkdaşlıq istiqamətlərinin göstəricisidir. Səfər həm ikitərəfli münasibətlərin inkişaf perspektivlərini, həm də Azərbaycanın Avropa ilə əlaqələrində artan rolunu əks etdirən mühüm siyasi hadisə kimi qiymətləndirilir. Bu səfər həm regional, həm də Avropa miqyasında dəyişən geosiyasi və iqtisadi reallıqların göstəricisi kimi qiymətləndirilə bilər.

Ümumiyyətlə qeyd edək ki, Azərbaycan və Çexiya beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyən ölkələr kimi çıxış edir. Bu münasibətlər qarşılıqlı hörmət və beynəlxalq hüququn prinsiplərinə əsaslanır.

Bu səfər Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolunun bir daha təsdiqidir. Son illərdə ölkəyə müxtəlif Avropa liderlərinin səfərlərinin intensivləşməsi onu göstərir ki, Azərbaycan artıq təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də siyasi dialoq və regional sabitlik baxımından etibarlı tərəfdaş kimi qəbul olunur. Bu baxımdan Çexiyanın marağı da təsadüfi deyil. Avropa ölkələri üçün Cənubi Qafqazda sabit və proqnozlaşdırıla bilən tərəfdaşın olması həm enerji təhlükəsizliyi, həm də nəqliyyat dəhlizlərinin inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Bir sözlə, qarşılıqlı ticarətin artması, yeni investisiya imkanlarının müzakirəsi və xüsusilə qeyri-neft sektorunda əməkdaşlıq perspektivləri bu münasibətlərin daha dayanıqlı əsaslar üzərində qurulduğunu göstərir.

Onuda qeyd edək ki, çex şirkətlərinin sənaye, energetika və texnologiya sahələrində təcrübəsi Azərbaycan üçün faydalı ola bilər. Energetika sahəsində əməkdaşlıq isə Azərbaycanın beynəlxalq mövqeyinin əsas sütunlarından biri kimi çıxış edir. Azərbaycanın etibarlı enerji təchizatçısı kimi tanınması, xüsusilə Avropa üçün alternativ enerji mənbəyi rolunu oynaması ölkənin geosiyasi əhəmiyyətini artırır. Azərbaycan qazının Avropa bazarına çıxışı və bir sıra ölkələrin enerji təhlükəsizliyində mühüm rol oynaması rəsmi Bakının strateji tərəfdaş kimi mövqeyini möhkəmləndirir. Bu, həm iqtisadi gəlirlərin təmin olunması, həm də siyasi təsir imkanlarının genişlənməsi baxımından vacibdir.

**Ümumilikdə, Prezident İlham Əliyevin bəyanatı Azərbaycanın milli maraqlarına uyğun olaraq siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində kompleks və strateji əməkdaşlıq modelini ortaya qoyur. Çexiya ilə münasibətlərin inkişafı yalnız ikitərəfli deyil, həm də Azərbaycanın Avropa ilə inteqrasiyası və beynəlxalq mövqeyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.**

# «Azərbaycan region ölkələrinin enerji təhlükəsizliyinin güclənməsinə xüsusi töhvə verir»

**”Son 1 həftədə Azərbaycana Avropa İttifaqına üzv dövlət olan Latviya və regionda xüsusi mövqeyi malik olan Ukrayna prezidentlərinin səfərləri ölkəmizin geo-siyasi gücünü göstərən faktorlardandır. Səfərlər zamanı 11 sənədin imzalanması da məhz ölkəmiz ilə sıx əməkdaşlığa olan marağın göstəricisidir”.**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, son 2 ildə Azərbaycan ilə Ukrayna arasındakı ticarət dövriyyəsi 31 faiz artaraq 510 milyon dollara çatıb:

”Ötən il 11 faizlik artım qeydə alınıb. İl ərzində Azərbaycandan Ukraynaya 227 milyon dollarlıq məhsul göndərilib. Azərbaycanın ixrac etdiyi qeyri neft-qaz məhsullarının 5.5 faizi Ukraynaya çatdırılır.Yeni dünya düzəninin formalaşması mərhələsində regionda müşahidə edilən siyasi kataklizmlərə rəğmən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirməklə yanaşı, ölkəmizi regional ”orta güc” dövlətinə çevirib. Çox vektorlu xarici siyasət Azərbaycanın eyni zamanda Qərb və Şərqlə tərəfdaşlığını gücləndirərək regional təhlükəsizliyin qorunmasında rolunu daha da artırıb”.



Onun sözlərinə görə, Azərbaycan Avropa daxil olmaqla region ölkələrinin enerji təhlükəsizliyinin güclənməsinə xüsusi töhvə verir:

”TAP kəməri vasitəsi ilə Azərbaycan indiyədək Avropaya 57 milyard kub metrdən çox qaz nəql edib. Hazırda Avropa İttifaqının 10 üzvü daxil olmaqla 16 dövlət Azərbaycandan təbii qaz alır. Azərbaycan Prezidentinin Latviya Prezidenti ilə görüşündə qeyd etdiyi kimi, ölkəmiz boru kəmərləri vasitəsilə qaz ixrac edən ölkələr arasında təchizat coğrafiyasına görə birincidir. Avropa İttifaqında təbii qaz idxal həcminə görə Azərbaycan ilk beşlikdə qərarlaşıb. Bu ölkəmizin Avropanın enerji təhlükəsizliyinin qorunmasında oynadığı rolu bir daha təsdiq edir”.

**Sübhan**

# Dostunuz boşanırsa, siz də risk altında düşə bilərsiniz - Araşdırma

**ABŞ-də aparılan uzunmüddətli bir araşdırma, yaxın çevrələrdəki boşanmaların fərdlərin öz evlilik qərarlarına təsir göstərə biləcəyini ortaya qoydu.**

Adalet.az xarici mediaya istinadla xəbər verir ki, nəticələrə görə, yaxın dostun boşanması riski 75%-ə qədər artıra bilər.

Evlilik və boşanma qərarlarının yalnız cütlüklər arasındakı dinamika ilə məhdudlaşmadığını göstərən diqqətəlayiq bir araşdırma dərc edilib.

Sosial şəbəkələrə yönəlmiş araşdırma, ətraf mühitin münasibət qərarlarına təsirinin düşündüyümüzdən daha güclü ola biləcəyini göstərir.

2013-cü ildə dərc olunmuş araşdırmaya görə, yaxın dostun boşanması, fərdin öz evliliyinə son qoyma ehtimalını əhəmiyyətli dərəcədə artıra bilər. Tədqiqat yaxın dostluq çevrələrində baş verən boşanmaların təsirinin daha çox olduğunu və bu təsirin yalnız yaxın dostlarla məhdudlaşmadığını, daha geniş sosial çevrəyə yayıldığını vurğulayır.



Araşdırmalara görə, yaxın dostları boşanmış şəxslərin öz nikahlarına son qoyma ehtimalı təxminən 75% daha yüksəkdir. Bu vəziyyət bir daha sosial münasibətlərin fərdi qərarlara təsirini vurğulayır.

**Alimlər bu təsiri sosial mühitdəki davranışların və normaların fərdlərə necə təsir etməsi ilə izah edirlər. Bir dostun boşanması insanın evlilik institutuna baxışını dəyişə, fərdlərin öz münasibətlərini şübhə altına almasına səbəb ola bilər. Sosial dəstək mexanizmlərini aktivləşdirə bilər. Mütəxəssislərin fikrincə, fərdlər bu proses zamanı öz münasibətlərini daha tənqidi qiymətləndirməyə meylli ola bilərlər.**

**Vasif ƏLİHÜSEYN**

*Rüstəm HACIYEV*

# İran manevr imkanlarını itirə bilər

**The Wall Street Journal-ın yazdıqlarına görə, Donald Tramp artıq İrana qarşı yeni hücum təşkil etməyə deyil, daha çox iqtisadiyat və dəniz yolları vasitədiylə təyziq etməyə üstünlük verəcək.**

**Nəşr qeyd edir ki, Ağ Ev İran münaqişəsindən tezlkklə yaxasını qurtarmaq üçün kütləvi bombardımandan tutmuş münaqişədən tezliklə qurtulmaq yollarına qədər bir neçə ssenari hazırlayıb.**

**Trampın məsləhətçiləri kütləvi blmbalsmaq variantının çox təhlükəli ola biləcəyini, vəziyyəti daha dərinləşdirə biləcəyini, başqa dövlətləridə münaqişəyə qoşmaqla böyük müharibəyə səbəb ola biləcəyini düşünürlər.**

**Digər variantlar isə, Vaşinqtonun İranın nüvə proqramından əl çəkməsinə məcbur edilməsi üçün yetəli deyil. Nəticədə belə razılığa gəlinib ki, yavaş-yavaş, lakin metodiki qaydada, Hörmüz boğazınından gəmilərini buraxmsmaqla, İran limanlarını uzun müddət blokadada saxlamaq, maliyyə transkasiyasını bloklamaqla liqtisadiyatın çökdürmək. ABŞ-In maliyyə nazirliyi artıq bu məsələ üzrə ”əməliyyatlara” başlayıb. Birləşmiş Ştatlsr İran kriptovalyutalarını bloklayıb, gizli bsnk sistemini çökdürüb, silah alışı mənbələrini bağlayıb.**

**Trampın spzlərinə gprə, artıq İranın neft istehsalı infrastrukturları, obyektləri, anbarları tamamiə dağıfıldlğı üçün neft quyularında tezliklə partlsylşlar baş verəcək.**

**Görünən odur ki, ABŞ və İran arasında danışıqlar baş tutmamasından sonra, Donald Tramp münaqişənin siyasi ağrılı və daha çox maliyə apardığını nəzərə alaraq, yenidən müharibənin qaynar nöqtəsinə baş vurmaq istəmir, yəni yeni hücumları, iqtisadi hücumlarlaəvəz etməyin daha effektli olacağını düşünür.**

**İran etiraf etməsə də, iqtisadi vəziyyətinin heç dı yaxşı olmadığı göz qabağındadır. Neft quyularını dayandıtmaq olmaz, nefti sağlamaq üçün isə anbarlar çatmır. Pakistanın açdığı bir neçə quru yol variantıda kömək eləmir. İranın hazırda minlərlə konteyneri Karaçidə yığılıb qalıb, Xəzər dənizi marşurutuda işə yaramır, çünki neftin daşınması üçün normal dəmir yolu xəttidə yoxdur.**

**Tramp administrasiyasının iqtisadi blokada planı İranın büdcəsinə ciddi zərbə vurmaqdadır. İranın neft ixracı faktiki olaraq dayanıb. Bu fonda ölkədaxili sitasi vəziyyətdə gərginləşməkdədir. Hakimiyyət tədricənm molla rejimindən İslam inqilabı keşikçiləri korpusunun əlinə keçir.**

**Siyasi vəziyyətin gərginləşdiyi bir vəziyyətdə strateji qərarların qəbul edilməsinə vaxt ayrıla bilmir. ABŞ bu regionda dayanmadan hərbi gücünü artırır və təyziqini gücləndirir.**

**Bu təyziqlərin qarşısında demək olar ki, Tehranın manevr etmək imkanları qalmır. Güman etmək olar ki, İran tezliklə nüvə proqramı üzrə ABŞ-la razılığa gəlmək məcburiyyətində qalacaq.**

## *Trampın komandası siyahı hazırlayır*



**Politico qəzeti bildirir ki, ABŞ prezidentinin komandası ”yaxşl və ”pis” NATO ölkələrinin siyahısını hazırlayır. Mətbu orqanın məlumatına görə, Tehrana qarşı hərbi əməliyyatlarda Vaşimqtonun tərəfində olan və əməliyyatların əleyhinə olan, ABŞ hərbiçilərini ərazilərinə buraxmaq istəməyən blok üzvülərini müəyyənləşdirirlər.**

Tramp onun göstərişlərini qəbul etməyən tərəfdaşlarını təhdid etməkdən belə çəkinmir. Qəzetin yazdığına görə, ABŞ- dəstəkləyən İsrail, Cənubi Koreya, Polşa, nisbətən Almaniya və Pribaltika dövlətləri Vaşinqton tərəfindən xüsusi qiymətləndirilir. Pentaqonun rəhbəri Pit Xerset hələ ötən ilin dekabrında etdiyi çıxışında, kollektiv təhlükəsizliklə bağlı ABŞ-ın təlimatlarını yerinə yetirməyən dövlətlər ağır nəticələrlə üzləşəcəklərini bəyan etmişdir. Vaşunqtinun ”Pis” dölətlər siyahında yer alan ölkələr barədə Ağ Evin konkret hansı tədbirlər görəcəyi Tramp administrasiyası tərəfindən gizli saxlanılır. Güman edilir ki, Vsşinqtonun potensial planına uyğun olaraq, ABŞ-ın bu ölkələrdə yerləşən hərbi qüvvəlıri digər, münasib tərəfdaş ölkələrinə köçürüləcək.

Tramp son çıxışlarının birində bəyan edib ki, NATO-dakı tərfdaşları ”kiçik bir qarşıdurmada” (İran münaqişəsində) iştirak etməkdın imtina edərək, özlərinə ”problem yaratdılar”. ”Şimali Atlantika alyansı lazlm olan zamanda, lazlmsız olduqlarını göstəedilər”- deyə ABŞ prezidenti bildirib.

Donald Trampın NATO-nu tərk edəcəkləri təhdidləri fonunda Avropa dövlətləri, artıq alyansa alternativ hərbi-sitasi blok yaratmaq variantı üzərində düşünməyə başlaylblar...



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Sənə pul göstərərəm...

**.... Dünyada hələ indiki kimi pulun fironluq elədiyi bir zaman olmayıb. Düzdür, pul həmişə çox şeyi həll edib. Amma indi hər şeyi yoluna qoyur. Və pulun, varın-dövlətin varsa, bu dünyada ən hörmətli adamsan. Adamın pulu olanda, Allah and olsun ki, dərdi də yüngül olur...**

**Tanıdığım bir imkanlı adam vardı, oğlu rəhmətə getmişdi. Yasda üzündə də tük saxlamadı və oğlunun qırxı çıxan kimi, həyat yoldaşını da qoltuğuna vurub, Avropa ölkələrinə gəzməyə getdi. İki aydan sonra qayıtdı. Cavan oğlana oxşayırdı və heç elə bil ki, oğlu rəhmətə getməmişdi. Aylar, illər keçdi, oğlundan sonra nə az, nə çox 35 il yaşadı.**

**Yəni pul onu yaşatdı, cavan saxladı! Bir kasıb ailə də tanıyırdım, oğlu öləndən 40 gün sonra əvvəl arvadı, bir ildən də sonra özü dünyasını dəyişdi! Əgər həmin adamın pulu olsaydı, o adam da yaşayardı və Ramiz Rövşən demişkən: "Bütün dərdlərindən yekə olardı". Bir şair deyir ki, "Ay köpəkoğlunun pulu, sən ölünü də dirildirsən...! Bəlkə belə deyil, dostlar??? Məşhur yazıçı-publisist Xeyrəddin Qoca deyir ki, mənim çoxlu pulum olsa, heç vaxt ölmərəm. Çünki pulun açmadığı qapı yoxdu. Və pulum olanda heç xəstələnmirəm də!**

**Bu günlərdə həkimə getmişdim. Növbədə məndən qabaq bir xəstə də vardı. Həkim onu uzun bir resept yazdı. Pasiyent həkimə dedi ki, doktor, qadan alım, dərmanı çox yazma! Keçən dəfə on dərmandan cəmi ikisini ala bildim və indi də ikisindən artıq yazma, onsuz da ala bilməyəcəyəm! Və həkim də onun dediyi kimi elədi; iki dərman yazdı. Həkimin yanından çıxandan sonra mənimlə söhbətləşdi. Dedi ki, müəllim, cəmi 360 manat pensiya alıram. Bilmirəm, kommunal xərcləri verim, evə yemək alım, dərmana pul ayırım... Ona görə də ağır durumdayam. Vallah, yaxşı pulum olsa, heç tez-tez xəstələnmərəm də! Gedirəm, Türkiyədə müalicə olunuram. Amma bir həsirəm, bir də Məmmədnəsir. Heç bu pulla kəndimizə gedə bilmirəm, o ki qala xarici ölkə ola! Bax bu gün pul insanlara hava, su, çörək qədər vacibdir. Və həmin pul olmayanda insanların havası çatışmır, boğulur. Şair Rüfət Zəbioğlu da pul barədə çox gözəl deyib ha: Sənə pul göstərərəm, Yalta bilərsən Ələti...**

## Qaraçuxurdakı imtiyazlı aptek xəstələrin dərmanını vermir...

**Dövlətimiz ayrı-ayrı xəstələr üçün hər ay pulsuz dərmanlar verir. Yəni həmin dərmanların pulunu dövlət ödəyir və həmin pulla da dərmanlar alınır , imtiyazlı xəstələrə görə apteklərə verilir!**

Buna görə, dövlətimiz çox sağolsun və xəstələr də bundan yetərincə razıdırlar.Amma təəssüflə qeyd etməliyik ki, bəzi aptekler imtiyazlı xəstələrə bu dərmanları bir çox hallarda ya vermir , verəndə də birini verir.Biz bir neçə gün əvvəl həkimin reseptdə yazdığı dərmanları almaq üçün

Bakı şəhərinin Suraxanı rayonunun Qaraçuxur qəsəbəsindəki imtiyazlı aptek gedik . Aptekdə işləyən xanım dedi ki, indi dərmanlar gəlməyib, aprelin 22-si, 23-ü olacaq , o da gəlib dərmanları alarsınız. Biz də deyilən vaxt, yəni aprelin 23- də saat səhər 9- da həmin aptekdə olduq və resepti xanıma verdik. O, üç dərmandan biri olduğunu dedi.

Dedi ki, yalnız " Depakin" var, ancaq birilər " Siklodol", " Escita" paylanıb qurtarıb. Xanıma dedik ki, siz dediyiniz vaxt gəlmişik , gecikməmişik bəs necə olur ki, dərmanlar qurtarsın? Axı bu dərmanlar imtiyazlı xəstələr üçündür.Yəni o qadın iki ayağını bir başmaga dirəyib bildirdi ki, həftənin birinci, ikinci, üçüncü günləri dərmanlar satıldı! Xanımın belə soyuqqanlı və məsuliyyətsiz hərəkəti bizi hövsələdən çıxardı. Dedik ki, sizin qanunsuz əməllərinizlə bağlı Səhiyyə Nazirliyini, TƏBİB- ə şikayət edəcəyik. Xanımın heç tükü də tərpənmədi və bildirdi ki, gedin, əlinizi hara qəlbidir , ora qoyun! Görünür, bu aptekin müdirinin və əməkdaşlarının arxası çox möhkəmdir,ona görə də qanunları saya salmırlar! Ancaq heç kimə sirr deyil ki, xəstələr verilən pulsuz dərmanlar onlar yox, başqa apteklərə verilir.Və bir çox baş həkimlərin də aptekləri var. İmtiyazlı xəstələrin dərmanlarını vaxtında verməmək həm sağalmaz xəstəliyə düçar olmuş insanların incidilməsi, həm də qanun pozuntusudur.

Və ən azından onların haqqına girməkdir! İnanırıq ki, Səhiyyə Nazirliyi Qaraçuxurdakı imtiyazlı aptekdə baş verən özbaşınalığın qarşısın alacaq , xəstələrin dərman almaq hüququnun pozulmasına imkan verməyəcək!!!

**Emil FAİQOĞLU**

## Atmosferi çirkləndirmək asan, qorumaq isə daha çətindir...



**Aprelin 25-dən mayın 15 - nə kimi respublika ərazisində "Təmiz hava" aylığı keçirilir. Bir qayda olaraq respublika ərazisində ildə iki dəfə "Təmiz hava" aylığı keçirilir.Çunki dövlətimizin əsas məqsədi odur ki, ekologiyamızı, havamızı, suyumuz, bir sözlə, təbiətimizi qoruyaq! Bu mənada böyük Dövlət Proqramı da var.**

Deməli, bundan sonra bütün işlər biz insanların üzərinə düşür.İlk növbədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi DİN-nin Baş Dövlət Yol Polisi İdarəsi ilə birlikdə atmosferin çirkləndirilməsinin qarşısının alınması üçün aprelin 25- dən " Təmiz hava" aylığına start verib və tədbirlər mayın 15 - nə kimi respublika ərazisində davam edəcək! Birmənalı olaraq deyə bilərik ki, Baş Dövlət Yol Polisi İdarəsi Yol Patrul Xidməti Alayının bütün tağımlarında, stasionar postlarında , rayon polis şöbələrinin bölmələrində reydlərə başlanılıb.

Təəssüf ki, yol polisinin saxladığı bir sürücülər yeni texniki cəhətdən nasaz avtomobillər idarə edirlər. Belə ki, elə ılk gün- aprelin 25-də onlara sürücü nəqliyyat vasitəsini idarə edərkən nasaz avtomobilin sükanı arxasında olub , onların avtomobilləri müayinə olunarkən maşınlardan atmosferə normadan artıq zərəli qazların atılması faktı aşkarlanıb. Bu isə o deməkdir ki, ölkəmizdə texniki cəhətdən nasaz avtomobillər hələ də kifayət qədərdir və yol polisinin tövsiyələrinə baxmayaraq, bir çox sürücülər mövcud texniki qüsurları vaxtda aradan qaldırmayıblar.

Ona görə də onlar 50 manat məbləğində cərimə olunublar.Hələ qarşıda xeyli vaxt var və müddət ərzində sürücülər avtomobillərndəki texniki qüsurları aradan qaldıra bilərlər. Baş Dövlətbj Yol Polisi İdarəsinin avtotexniki müfəttişlik şöbəsinin rəisi, polis polkovniki Xalid Əzimov bizimlə söhbətində bildirdi ki, hər iki nazirliyin iştirak ilə ildə iki dəfə " Təmiz hava" aylığının keçirilməsi atmosferə zərərli qazların atılmasının qarşısının alınmasında çox önəmli əhəmiyyət kəsb edir. Bizim birgə fəaliyyətimiz öz müsbət nəticəsini çoxdan verib.

Sadəcə olaraq bir çox fiziki, vəzifəli və hüquqi şəxslər bu işlərə məsuliyyətsiz yanaşırlar və bizdə məcbur olub , onlar barəsində inzibati tədbirlər görürük. Dəfələrlə biz həmin şəxslərə xəbərdarlıq etmişik nəqliyyat vasitələrində texniki qüsurları aradan qaldırsınlar, istismar müddəti başa çatmış nəqliyyat vasitələrində istifadə etməsinlər. Amma biz keçirilən reyd və yoxlamalarda bunun əksini görmüşük. Ona görə də, əməkdaşlarımız onları inzibati məsuliyyətə cəlb ediblər. Yol polisi heç kimi cərimə etmək fikrində deyil. Biz öncə ona çalışırıq ki, sürücülər arasında maarifləndirmə işləri aparaq və işləri də həmişə aparmışıq. Təbii ki, bunun müsbət tərəfləri də olub.

Ancaq elə sürücülər də var ki, maarifləndirmə işlərinə əhəmiyyət verməyiblər. Bir sözlə, hələ " Təmiz hava"aylığı yenicə başlayıb. Vaxt və imkan var ki, onlar nəqliyyat vasitələrindəki mövcud texniki qüsurları aradan qaldırsınlar. Çünki reydlər keçirilən zaman birmənalı olaraq, həmin avtomobillər stasionar postlarda saxlanılacaq, avtomobillər müayinədən keçiriləcək və atmosferə normadan artıq zərəli qazlar atan avtomobil sahibləri inzibati məsuliyyətə cəlb olunacaqlar! Ona görə də,sükan arxasında olan hər bir sürücü qanunlara əməl etməlidir ki, sonradan heç bir problem yaşamasın!!!

## İynə atsan yerə düşməzdi...



**Aprelin 21- də Metropolitenin baş verməş texniki nasazlıq üzündən bir neçə saat işləməməsi yerüstü nəqliyyatın iflic vəziyyətdə olduğunu göstərdi.Belə ki, həmin saatlarda metro işləmədiyinə görə, bu sətirlərin müəllifi də avtobusdan istifadə etməli oldu.**

Metronun " İçərişəhər" satansiyası bağlı olduğu üçün 65 nömrəli marşrutda işləyən avtobusa minib, " 20 yanvar" da düşdüm. Keçiddən çıxan adamlardan soruşdum ki, metro işləyir? Dedilər ki, yox işləmir! Ona görə də həmin yerdəki avtobus dayanacağına gəldim. Burada o qədər sərnişin vardı ki, iynə atsan yerə düşməzdi! Nə avtobusa minmək olurdu, nə də taksilərə .

Çünki polis taksilərin orada dayanmasına imkan vermirdi. Vəziyyətdən həmişə olduğu kimi sui-istifadə edən taksi sürücüləri qiymətləri qaldırmışdılar. Həmişə metronun ' Neftçilər" , " Xalqlar dostluğu " stansiyalarına bir manata aparırdılar. Həmin saatlarda iki manata belə taksilər yaxın durmurdu. Dörd taksiyə bir taksi sürücüsünə dedi ki, bizi iki manatdan " Neftçi"lərə apar. Sürücü isə razılaşmadı.Və adambaşına " üç manat" deyib durdu.

Tay fikirləşmədiki , bunlar tələbədir və pulları olmaya bilər. Bax həmişə belə çətin durumda taksilər qiyməti dəfələrlə bahalaşdırırlar ! Bir tərbiyəsiz taksi sürücüsü də vardı. Söyüşnən danışırdı və heç kim də onun tərbiyəsiz hərəkətinə görə maşınına minmədi! Nə qədər gözlədik avtobus olmadı. Axırda əlacımız kəsilib üç manat verib taksi ilə " Xalqlar dostluğu " na gəldik! Həmin saatlarda Yerüstü Nəqliyyat Agentliyinin heç bir fəaliyyəti hiss olunmadı və xətlərə əlavə avtobuslar buraxılmadı.

Eyni zamanda çətin vəziyyətdə yol polisi də hərəkət iştirakçılarına kömək etmədi!Yəni bəzi qurumların yaratmaz fəaliyyəti üzə çıxdı.Bir neçə saatdan sonra metroda bütün stansiyaların fəaliyyəti bərpa olundu. Və Allah bir daha sərnişinləri Yerüstü Nəqliyyat Agentliyinə və taksi sürücülərinə möhtac eləməsin! Amin!!!

## İntihar çıxış yolu deyil...



**Heç kimə sirr deyil ki, bu gün çoxlu sayda insan mənzil, avtomobil və digər daşınan və daşınmaz əmlak alanda banklardan kredit götürürlər! Əlbəttə, hər bir insanın evi, maşını olmalıdır. Amma gərək bunu kreditlə alanda dərindən düşünəsən!**

Yəni bankalardan aldığın krediti müqavilədə göstərilən müddətdə geri qaytarasan! Çox təəssüf ki, bəzi adamlar kredit alarkən el dilində demiş olsaq " yorğanına görə ayaqların uzatmırlar".

Yəni o pulu qaytarmaq imkanları olmadığı halda belə kredit götürürlər.Mən dəfələrlə yol polisinin keçirdiyi reydlərdə belə hadisələrin şahidi olmuşam.

Belə ki, reyd zamanı bank əməkdaşları da tədbirdə iştirak edib və kreditini verməyən sürücülər postda saxlanılaraq avtomobillər onlardan alınıb. O reyddə on avtomobil borcu olan insanlardan bank əməkdaşları tərəfindən alındı!Eləcə də mənzil alanlar bu gün krediti uzun müddət vermədiyinə görə, evlər banklar tərəfindən onlardan alınır. Bəziləri kredit borlarını verə bilməyəndə intihar etməyi çıxış yolu sayır. Amma bu da problemin həlli yolu deyil.

Çünki qanunda deyilir ki, kredit götürən ölərsə, həmin pul onların ailə üzvlərindən tutulur. Ona görə də bütün vətəndaşlar banklardan kredit götürərkən diqqətli olmalı, əgər o pulu qaytarmaq üçün imkanları yoxsa , yükün altına girməməlidirlər. Yəni bu ağır borcu ailə üzvlərinin üzərinə atılmamalıdırlar!!!

## Siqnal vermək insanları əsəbləşdirir...



**Biz çox vaxt avtomobil yolunda bəzi sürücülərin səs siqnalından istifadə etdiyini görürük. Yeri gəldi, gəlmədi bir də görürsən ki, sükan arxasında olan kimsə , fasiləsiz siqnal verir. Aydındır ki, o sürücü yol istəyir.Təbii ki, belə vəziyyətdə həmin sürücüyə yol vermək lazımdır. Xüsusilə də operativ xidmət avtomobillərinə, yeni təcili tibb yardım maşına, yanğın şöndürülən avtomobilə elə həmin anda digər sürücülər yol verməlidir. Təəssüf ki, bəzi hallarda o avtomobillərə də məsuliyyətsiz sürücülər yol vermirlər. Bir çox halda şəhərin bir çox küçə və prospektlərində tıxaclar olanda bir də görürsən ki, arxadakı nəqliyyat vasitələrinin sürücüləri fasiləsiz olaraq siqnallar verirlər.**

Axı qarşıda tıxac var, qabaqdakı sürücü nə etməlidir? Əfsuslar olsun ki, bunu bilə- bilə yenə arxadakı sürücülər siqnal verirlər! Fasiləsiz siqnal verilməsi də birmənalı olaraq qanun pozuntusu hesab olunur.

Yeni Günəşlinin massiv"D" bina 13- ün qarşısında çoxlu qarajlar var . Həmin qarajın sahiblərindən biri gecə saat 2-də avtomobillə ora gəlir və görür ki, qarajın qarşısında maşın saxlayıblar. Sürücü bu gecə saatlarında başlayır siqnal verməyə.Axırda bina sakinləri evdən çıxıb, onun abrını ətəyinə bükəndən sonra siqnal verməyi dayandırır. İndi siz deyin, bu adamın mədəniyyəti varmı?

Əlbəttə, yoxdur! İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə ehtiyac olmadan səs siqnalı verən sürücü 30 manat məbləğində cərimə olunur!!! Ona görə də, hörmət sürücülər , lazım olmayan yerlərdə səs siqnalından istifadə etməyin!!!

**Emil FAİQOĞLU**



# "Rusiyanın siyasi dairələrində hələ də bunu anlamaq istəməyənlər varsa..."

**”Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycana səfərinə dair Rusiya mediasında yazılanları oxudum. Rusiya Ukraynaya qarşı işğalçı müharibə apardığına görə, Volodimir Zelenskinin xarici ölkələrə səfərlərini az qala lupa ilə izləyir, onun müxtəlif ölkələrlə əldə etdiyi razılaşmaların analizini aparırlar. Bu mənada Rusiya mediasının Zelenskinin Azərbaycana səfərinə iki cür yanaşmasını müşahidə etdim. Rusiya mediasının bir hissəsi sadəcə Zelenskinin səfəri və Azərbaycan Prezidenti İlham Əliyevlə əldə edilən razılaşmalar barədə xəbərlər yayımlayıblar. Rusiya mediasının digər hissəsi isə Ukrayna-Azərbaycan əməkdaşlığının guya Rusiya əleyhinə yönəldiyini iddia ediblər, saytların birində hətta ”Azərbaycan Rusiyaya arxadan zərbə vurdu” ifadəsinə rast gəldim”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. O, bildirib ki, kimin kimə arxadan zərbə vurduğunu 2024-cü ildə Azərbaycanın mülki təyyarəsinin Rusiyanın hava sahəsində raketlə vurulması və vətəndaşlarımızın həlak olması əyani göstərib:



”Rusiya tərəfdən yüksək səviyyədə verilən vədlərə baxmayaraq, ölənlərin ailələrinə və yaralılara təzminat hələ də ödənməyib. Volodimir Zelenskinin İlham Əliyevlə birgə mətbuat konfransında ”Ukrayna və Rusiya nümayəndələri arasında növbəti görüşün Azərbaycan keçirilməsini təklif edirəm” bəyanatına da şimal qonşumuzdan ikili reaksiya var. Rusiya Federasiya Şurasının beynəlxalq məsələlər üzrə komitəsinin birinci müavini Vladimir Cabarov danışıqların Azərbaycanda keçirilməsini mümkün hesab edib. Onun həmkarı, Dövlət Dumasının MDB ölkələri ilə iş komitəsi sədrinin birinci müavini Konstantin Zatulin isə görüşün Azərbaycanda keçirilməsinin əleyhinə olduğunu bildirib. Erməni radikallarla işbirliyi içərisində olan Zatulindən başqa reaksiya gözləmək təəccüblü olardı. Həmin komitənin digər sədr müavini Viktor Vololatskiy də Zatulinlə eyni mövqedən çıxış edib”.

Politoloqun sözlərinə görə, bunlara elə gəlir ki, Rusiya və Ukrayna təmsilçilərinin Bakıda görüşünün təşkili xarici siyasətimizin əsas hədəflərindəndir:

”Bu Zelenskinin təklifidir. Ukrayna Prezidenti Azərbaycanın balanslaşdırılmış xarici siyasətinə istinad edərək görüş yeri kimi ölkəmizi təklif edib. Bizim belə bir təcrübəmiz var. Vaxtilə Türkiyə və İsrail arasında danışıqlar Bakıda aparılıb, elə Rusiya Baş Qərargahının rəisi də vaxtilə NATO komandanlığı ilə bir neçə dəfə paytaxtımızda görüşüb. Aydındır ki, Moskva Ukrayna təmsilçiləri ilə görüşün Azərbaycan ərazisində keçirilməsinə tərəfdar olmayacaqsa, mümkün görüş başqa ölkədə keçiriləcək”.

E.Şahinoğlu deyib ki, bu bizim üçün problem olmayacaq, təki müharibəyə son qoyulsun:

”O ki qaldı, Rusiyanın bəzi dairələrində səslənən ”Azərbaycan niyə Ukrayna ilə hərbi-texniki sahədə əməkdaşlığı genişləndirmək istəyir” sualının səslənməsinə, bu bizim daxili işimizdir. Azərbaycanın müxtəlif ölkələrlə hərbi-texniki əməkdaşlığı üçüncü ölkələrə qarşı yönəlməyib, müdafiə gücümüzün artırılmasına yönəlib. Rusiyanın siyasi dairələrində hələ də bunu anlamaq istəməyənlər varsa, bu onların öz işidir. Biz isə dost və tərəfdaş dövlətlərlə müdafiə və hərbi gücümüzü artıracaq layihələrdə iştirakımızı davam etdirməliyik”.

**Vasif**

# “Azərbaycanda ədalətli və sabit yanaşma formalaşıb...”

**”Beynəlxalq sistemdə güc balansının dəyişməsi uğrunda gedən maraqların toqquşması regional münaqişələri artırır və bu böyük güclər arasında rəqabəti dərinləşdirir. Nəticədə dünyanın siyasi tarazlığını pozulur. Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə gərginliklər, NATO ilə digər güc mərkəzlərinin qarşı-qarşıya gəlməsi beynəlxalq münasibətlərdə qeyri-sabit bir vəziyyət yaradıb”.**

Bunu Adalet.az-a açıqlamasında ”Yeni Xətt” Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

Onun sözlərinə görə, bu, gördüyümüz və dünya üçün açıq olan balans qarşıdurmaları və münaqişələridir:

”Görmədiyimiz və ”gizli münaqişələr” adlanan proseslər də mövcuddur. Daha sonra dolayı münaqişələr və dondurulmuş münaqişələr yəni açıq döyüş olmasa da, davamlı gərginliyin qaldığı vəziyyətlər var. Deməli, istənilən vaxt bu latent münaqişələr açıq müharibəyə çevrilə bilər. Çünki rəsmi şəkildə ifadə olunmayan bu münaqişələr potensial olaraq sabahın müharibə mənbəyidir. Sadəcə şəraiti pusqu kimi hesablayan və quran tərəflər nə zamansa tələyə düşəcək ”ovu” gözləyirlər. Bütün bu siyasi gərginlik ”Tension state” dünyada kritik vəziyyət və siyasi böhranlar yaradır”.

Politoloq bildirib ki, Azərbaycan həm enerji ixracatçısı, həm də geosiyasi keçid ölkəsi olaraq, xüsusilə Cənubi Qafqazda yerləşməsi səbəbilə təhlükəsizlik və sabitlik siyasətini daha da həssaslaşdırır:

”Bu geosiyasi gərginliklər dünyasında dövlətimiz həssas, eyni zamanda sabit siyasi mövqe formalaşdırmağı bacarıb və möhkəm siyasi sabitlik əldə edib.Güclü mərkəzləşdirilmiş idarəetmə modeli, iqtisadi dayanıqlılıq, xarici siyasət və diplomatiyadakı uğurlar, həmçinin daxili siyasətdə dialoq mühitinin sabitliyi bu keyfiyyətin göstəricisidir. Bu gün siyasi dialoq, xalq-dövlət birliyi və milli həmrəylik siyasi plüralizmin göstəricisidir. Dövlət, vətəndaş münasibətlərində şəffaflıq, vətəndaş cəmiyyətində milli düşüncənin və dövlətçilik prinsiplərinə sadiqliyin möhkəmlənməsi ölkəmizin əsas dayaqlarındandır. Dünyanın siyasi tarazlığından fərqli olaraq, Azərbaycanda ədalətli və sabit yanaşma formalaşıb və bu, bizim böyük uğurumuzdur. Çünki xarici siyasətimizin qlobal tarazlığın pozulduğu bir dövrdə geosiyasi risklərdən qorunması, təhlükəsizliyin təmin olunması və sabitliyin dialoq, güclü institutlaşma üzərindən möhkəmləndirilməsi qətiyyətli və müdrik siyasi lider İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilir. Xalq liderimizin ətrafında birləşib və bu birlik bizim gücümüzdür.Bu güc yalnız Azərbaycana uzanan pis niyyətli əlləri kəsəcək”.



**Sübhan**

# “Azərbaycan dini tolerantlıq ənənələrini qoruyub saxlayır”

**”Azərbaycanda dini tolerantlıq tarix boyu xalqımızın milli kimliyinin mühüm tərkib hissəsi olub. Ölkəmizdə müxtəlif dinlərin və məzhəblərin nümayəndələri heç bir ayrı-seçkiliyə məruz qalmadan, sülh və qarşılıqlı hörmət şəraitində yaşayırlar”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, İslam dini ilə yanaşı xristianlıq, yəhudilik və digər dini icmalar da sərbəst şəkildə fəaliyyət göstərir və cəmiyyətin ayrılmaz parçasıdır: ”Bu gün dünyanın bəzi bölgələrində dini dözümsüzlük, ksenofobiya və islamofobiya meyillərinin artması müşahidə olunur. Bu baxımdan Azərbaycanın multikultural və tolerantlıq modeli xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dövləti öz ərazisində müxtəlif dinlərə məxsus ibadət yerlərini qoruyur, onların bərpasını və fəaliyyətini dəstəkləyir.



İnsanların sərbəst ibadət etməsi üçün yüksək səviyyədə şərait yaradılıb ki, bu da bir çox ölkələr üçün nümunə hesab oluna bilər.

Dünyanın müxtəlif bölgələrində dini zəmində baş verən xoşagəlməz hadisələr - müqəddəs məkanlara qarşı zorakılıq, dini abidələrin dağıdılması, müqəddəs dəyərlərə hörmətsizlik halları - bu sahədə problemlərin hələ də mövcud olduğunu göstərir. Azərbaycanda isə bütün dinlərin fəaliyyəti azaddır və bu müxtəliflik ölkəmizin zəngin mədəniyyətinin ayrılmaz hissəsidir.

Cənab prezident İlham Əliyev tərəfindən işğaldan azad olunmuş ərazilərdə məscidlərin bərpası və yenidən tikilməsi də dövlətin dini-mənəvi dəyərlərə verdiyi önəmin göstəricisidir”.

**Vasif**

# *Günay Əfəndiyeva Ankarada görüşlər keçirdi*

**Günay Əfəndiyeva Ankarada Türkiyənin Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyasının rəhbəri və tələbə heyəti ilə görüşüb**



**Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva Türkiyənin Ankara şəhərinə səfər edib.**

**Günay Əfəndiyeva səfər çərçivəsində Türkiyə Respublikasının Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyasını ziyarət edərək Akademiyanın rəhbəri İsmayıl Hakkı Musa ilə görüşüb.**

**Görüş zamanı Azərbaycan ilə Türkiyənin hərtərəfli əməkdaşlığının günü-gündən daha da möhkəmləndirilməsi, parlament diplomatiyası, eləcə də ortaq mədəni irsin təbliği məsələləri müzakirə olunub.**

**Daha sonra Günay Əfəndiyevanın Akademiyada təhsil alan gənc diplomatlarla görüşü keçirilib.**

**Qarşılıqlı dialoq və fikir mübadiləsi şəraitində gerçəkləşən görüşdə millət vəkili tələbələr qarşısında çıxış edərək diplomatiyanın mahiyyəti, Azərbaycan-Türkiyə münasibətlərinin strateji dərinliyi və Türk Dünyasının gələcək inkişaf perspektivləri barədə geniş fikirlərini bölüşüb.**



**Günay Əfəndiyeva diplomatiyanı dövlətlər arasında maraqların uzlaşdırılmasına xidmət edən vasitə kimi dəyərləndirərək, vurğulayıb: ”Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər klassik diplomatik çərçivələri aşaraq, ortaq tarix, dil və mədəniyyətin üzərində yüksələn güclü qardaşlıq nümunəsidir. İki dövlətin tərəfdaşlığı beynəlxalq münasibətlərin ən səmimi və güclü təzahürlərindən biri kimi çıxış edir”.**

**Günay Əfəndiyeva Ümummilli lider Heydər Əliyevin ”bir millət, iki dövlət” fəlsəfəsini xatırladaraq qeyd edib ki, bu yanaşma Azərbaycan və Türkiyənin xarici siyasətdə bir-birini tamamlayan strateji xəttini əks etdirir.**

**Millət vəkili, xüsusilə 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin Prezident Recep Tayyip Erdoğanın rəhbərliyi ilə Azərbaycana verdiyi qətiyyətli mənəvi dəstəyin iki ölkənin qardaşlığını bütün dünyaya nümayiş etdirdiyini bildirib.**

**Bu həmrəyliyin məntiqi davamı kimi imzalanmış Şuşa Bəyannaməsi ilə münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyi qeyd olunub.**

**Deputat vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən səsləndirilən ”Türk dünyası bizim ailəmizdir” ifadəsi artıq Azərbaycan-Türkiyə qardaşlığını daha geniş coğrafiyada - bütün Türk Dünyasını əhatə edən diplomatik həmrəylik modelinə çevirir.**

**Çıxışda Türk Dünyasının son onilliklərdə keçdiyi inkişaf yoluna da toxunulub.**

**Günay Əfəndiyeva bildirib ki, sovet dövründə türk xalqları arasında parçalanmış əlaqələr bu gün müstəqil türk dövlətlərinin iradəsi ilə yenidən bərpa olunub və artıq Türk əməkdaşlıq təşkilatları vasitəsilə sistemli əməkdaşlıq daha da möhkəmlənir:**

**”Hər il Türk dövlətlərinin rəhbərləri Türk Dövlətləri Təşkilatı çərçivəsində keçirilən Zirvə toplantılarında bir araya gəlirlər. Bu görüşlərdə ortaq gündəm və gələcək perspektivlər müzakirə olunur, tranzit, logistika, enerji, ticarət, investisiya, rəqəmsallaşma və mədəniyyət kimi müxtəlif sahələrdə əməkdaşlığa dair mühüm sənədlər imzalanır”.**

**Görüşdə ortaq dil, əlifba, tarix kimi məsələlər ümumi müzakirə olunub, eyni zamanda millət vəkili gənc diplomatların suallarını cavablandırıb.**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# SEVGİ DOLU ÖMÜR

## Onu yaşamaq heç də arzu deyil...

Günlər bir-birinin davamıdı aylar, illər kimi. Elə mən də bu bir-birinin davamı olan günlərimi ömrümə hopdurmaqla, üstəlik də ömrümü o günlərin yaddaşına köçürmək niyyəti ilə bir ipucundan tutub gedirəm. Və hərdən də öz-özümə deyirəm ki, bax, budur ipucu və budur ömrümə hopan günlərin mənə verdiyi ümid!.. Necə asi olum, necə şəkk gətirim bütün olanlara. Axı, hər şey göz önündədi - əzab da, vüsal da, sevgi də nifrətdə, lap elə sevən də, sevilən də!.. Hər şeyin bir müstəvidə olduğu məqamda özünü ittihamdan başqa yol qalmır. Yəni günahı başqasında axtarmaq kimi sadə və primitiv üsuldansa, özündəki eyibi görmək daha dürüst seçimdi məncə. Onda əzabı da sinirmək bir az asan olar. Və həm də özünü də tanımış olarsan. Bilərsənki, nəyin cəzasıdı və nəyə görə çəkirsən.

Bu məqamda bir şeirin həniri gəlib keçdi könlümdən ....

*Qarşılaşdıq, gözləmirdin deyəsən*
*Şimşək çaxdı, yoxsa o an, ildırım?!.*
*Bilirsənsə bəlkə yolun deyəsən -*
*Necə edim, gözlərini güldürüm?!.*

*Gətirirəm xəyalıma ağ günü*
*Qan coşduran, təravətli sağ günü!*
*Qoy eləyib bir-birinə tağ, günü -*
*Kipriyindən mən o nəmi sildirim!*

*Öz-özümü toparlayıb yığmışdım*
*Həyacandan ürəyimi sıxmışdım...*
*Mən qarşına ona görə çıxmışdım -*
*Açıq sənə, sevdiyimi bildirim!*

***

İndi doğulduğum o yerləri gözümün önünə gətirib məhz arxada qalan günlərimi xatırlamağa çalışıram.Doğrudu, bunlar indi şirin bir xatirədi. Amma mən bu xatirəni yaddaşımı təzələmək üçün yox, bu günlərdə Fəridə Rəhimlinin internet səhifəsində paylaşdığı qar dağı ilə bağlı gördüyüm mənzərənin içimdə yaratdığı kədər və həsrət dolu nüanslarını yenidən yaşamaq üçün diqqətə təqdim edirəm.

Məhz həmin o mənzərə bütünlüklə kəndimin qış günlərinin görüntüləriilə üst-üstə düşürdü. qar altında qalan ağaclar, hətta həyətin, evin qapısını açmağa imkan verməyən qar tarı bütünlüklə yaddaşımdakı ilə eyni idi. Ona görə də söz yazmaq imkanım mənə rahatlıq vermədi. Və bir də gördüm ki, misralar bir-birinin ardınca düzülüb:

*Belə istəyirəm ömrün qışını*
*Qar səssiz -durmadan yağa üstümə...*
*İlıq göz yaşı tək süzülüb bir az -*
*Hopa bələndiyim ağa - üstümə!..*

*Heyrət sərhəddini ötüb keçə səs*
*Titrəyə bu səsdən qar tikən qəfəs!*
*Saçından bəyaz tel ayıran bir kəs -*
*Onu al bayraq tək taxa üstümə...*

*Bu qar gerçəkdimi,yoxsa yuxumu*
*Görəndən gözümdən silir yuxumu!*
*Bilir ürəyimi,bilir ruhumu -*
*Allahım, bu dəfə baxa üstümə...*

*Hər yan ağappaqdı gerçək sözü tək*
*Nurdu bu mənzərə,nurlu gözü tək...*
*Duman da o qızın elə özü tək -*
*Qalxa asta-asta dağa - üstümə!*

*Əbülfət, sən indi qar havasında*
*Dinləndin bu qarın tar havasın da!..*
*Qatıb bir-birinə yar havasında -*
*Hopdura ruhuma,yaxa üstümə...*

İndi bu xatırlamanın məni nə qədər içimdən oynatdığını duymuş oldunuz. Çünki yazdığım şeir yaşadığım həmin anın pıçıltıları idi.

Deməli,özüm-özümlə danışmaqla bahəm, həm də sizlərə nəyisə çatdırmağa çalışdım. Hə, həyatın hər üzünü görə-görə, adamların hər sifətinə baxa-baxa və hətta bəzilərinin içini belə oxuya-oxuya dua etməyin də öz ləzzəti var. Axı, Tanrı hər kəsə öz ürəyinə görə verir. Kiminsə cəhdindən, əməlindən, hətta oynadığı rollardan asılı olmayaraq, başqasının payını əlindən ala biləcəyinə heç bir inamım yoxdu. Bir məqamdan başqa...

*Yapışaraq bir şairin sözündən*
*Xəyallanıb, yenə çıxdım özümdən...*
*İnanın ki, ölçüləri gözümdən -*
*balacadı, dünyanın!*

*Fikir boyu neçə dəfə dolaşdım,*
*Gah dumana, gah buluda bulaşdım..*
*Sirli sözünü də axır , mən açdım -*
*balacadı, dünyanın!*

*Naxışları bir-biriylə uymayan*
*Adamların acısında doymayan*
*Qəlbi , hətta özünü də duymayan -*
*balacadı, dünyanın!*

*Çox olsa da dərəsi də, dağı da*
*Dəryası da, ormanı da, bağı da...*
*İmkan vermə, Allah, bəndə dağıda -*
*balaca dünyanı!*

***

İnsan öz durumunu, öz gerçəkliyini və bir də içindəki sevgi və nifrəti göstərmək zorunda deyil. Yenə bir məqamdan başqa.

Yəni artıq duyulmursa, hiss olunmursa,görünmürsə, onda hansısa bir formada öz haqqını göstərməyə məcbursan. Belə məqamda da görünməsə, onda qalır qarşı-qarşıya gəlmək. Bunu isə heç kimə arzu etmirəm. Ən yaxşısı sakit və anlayışlı şəkildə ömür payını yaşamaqdı...

Bəli, qış havalı, qış ovqatlı indiki anımda bir sözün işığını açıq şəkildə görürəm və özümü o işığa tərəf can atan varlıq hesab edirəm. Ola bilsin ki, o gördüyüm işıq deyil, ilğımdı. Amma hər nə olur olsun, indiki anımda mən onu işıqkimi qəbul etmişəm. Və bu işığın da gücünə bələdəm. O, həyat əlamətidi. Deyə bilərsiniz ki, bəs sən kimsən? Onda bu misraları oxuyun:

*Mən bəlkə də heç kiməm*
*Bəlkə də sonuncu "ah"...*
*Bəlkə də bu dünyada-*
*Günahın özü günah!..*

*Əlim küləkdən tutub*
*Ayağım hava üstə...*
*Yer məni elə udub -*
*Gedir tay dava üstə...*

*Dözülməzdi tənhalıq*
*Dözülməzdi dörd divar...*
*Düşünün siz biranlıq -*
*Kimin lal, kar dərdivar?!*

*Bölüşmək çətinləşib*
*Qeyb olubdu isti söz...*
*Məni qüsul etməyin-*
*Məndən bezib -küsüb söz!...*

Bütün yazı boyu sağdan, soldan müəyyən məqamlara diqqət çəkmək istədim. Amma ən böyük istəyim Allaha və sevgimə olan inancımı ifadə etmək idi. Bunların hər ikisi yaşamağımın, ayaqda olmağımın ən böyük ilhamçısı, ən böyük dəstəyidi. Mən hər ikisinə şükürlər etməklə özümü suya tuturam. Yaşadığım Masazırda hələ ki su donmayıb. Ona görə də duamın suya qarışıb aydınlığa çıxacağına şübhəm yoxdu. Duam isə bundan ibarətdir ki, hərkəs özü-özünü görə bilsin! Hər kəs özü özündə olsun! Və nəhayət, hər kəsin özü öz günahını yuya bilsin!..

***P.S.*** *Deyirlər ki, cəzadan qaçmaq heç kimə qismət olmayıb. Mən isə Sizə günahsız və cəzasız ,- SEVGİ dolu ömür arzu edirəm.*

Araz HÜSEYNOV

## Tənhalıq bütün insanların qismətidir...



Ana bətnindəki tənhalıqdan sonra bizi insanlar arasında yalnızlıq gözləyir, sonra da məzardakı yalnızlığa qayıdırıq. Bütün həyatımızı yalnızlığımızı yüngülləşdirmə cəhdləri ilə keçirdirik.

Lakin yaxınlıq heç vaxt qovuşmaya çevrilmir. Özünə məqsədli, xoş məramlı dost seçimi edəndə belə ona qovuşmuruq. Qovuşa bilmirik. Ən izdihamlı şəhər belə viranəlik çoxluğudur.

Sözlərimizi bölüşürük, lakin onları bir zülmətdən digərinə ötürürük və başqalarının onları biz anladığımız kimi anladığına ümid edirik, ancaq əksinə olur. Bəzən ümidlər xəstələnəndə bu baş verir. Həyatımız böyük bir boşluğa yuvarlanır. Zalım çıxmışlar, saldıqları boşluqdan belə əl uzadıb çıxartmırlar.

Evlənirik və bu zaman evdə bir tənhalıq əvəzinə ikisi peyda olur. Təkrar-təkrar sevişirik, amma yenə də qovuşmuruq.

Ən səmimi sevişmə belə yalnız səthlərin toxunuşudur, sanki ölüm hökmünə məhkum olunmuşlar kimi həbsxana qəfəsləri arasından fahişə ilə sevişirik. Həzzi paylaşmaq olmur, ağrı kimi onu da hiss etmək, yaxud oyatmaq olar və biz sevgililərimizə həzz verəndə, yaxud ehtiyacı olanlara yaxşılıq edəndə, əslində xeyirxahlıq obyektimizə zövq vermirik, özümüz ləzzət alırıq.

Həqiqət ondadır ki, bizim xeyirxahlığımızın da, qəddarlığımızın da səbəbi eynidir. Öz hökmranlığımızı daha güclü hiss etmək istəyirik. Daima buna can atırıq. Baxmayaraq ki, hökmranlıqdan alınan həzz bizi özümüzü əvvəlkindən daha tənha hiss etməyə məcbur edir.

Faktiki olaraq tənhalıq bütün insanların qismətidir və onu yalnız unutqanlıq, kütləşmə və xəyallarla yumşaltmaq olar.

Lakin onun kəskinlik dərəcəsi insanın öz hökmranlığını dərketmə qüvvəsi və onun real miqyasları ilə mütənasibdir. İstənilən halda nə qədər hökmran olsaq, tənhalığımızı bir o qədər kəskin şəkildə hiss edəcəyik.

## Müraciətlərə baxılması qaydası dəyişir



**Vətəndaşların dövlət qurumlarına müraciətlərinə dair tələblərə Elektron Hökumət İnformasiya Sistemi (EHİS) üzərindən əməliyyatların aparılması üçün yeni normalar əlavə edilir.**

Adalet.az xəbər verir ki, bununla bağlı "Vətəndaşların müraciətləri haqqında" qanuna dəyişikliklər təklif edilir. Dəyişikliyə əsasən, müraciət edən şəxsin müraciətin cavablandırılması üsuluna dair seçimləri sırasına elektron və ya poçt ünvanı, yaxud EHİS vasitəsilə cavablandırma əlavə edilir. Həmçinin, müraciətin (EHİS üzərindən təqdim olunmuş müraciətlər istisna olmaqla) EHİS üzərindən cavablandırılmasını istənildiyi halda müraciət edən şəxsin fərdi identifikasiya nömrəsi (FİN), hüquqi şəxsin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) tələb ediləcək. Müraciətin elektron ünvan vasitəsilə cavablandırılması istənildiyi halda cavabın göndəriləcəyi elektron ünvan istəniləcək.

Sənədə əsasən, vətəndaşlar şəxsiyyətini təsdiq edən sənədlə müraciət etmək və ya müraciətə baxan subyektin rəsmi internet informasiya ehtiyatında, yaxud EHİS üzərindən elektron imza vasitəsilə qeydiyyatdan keçmək yolu ilə qəbula yazılırlar. Hər üç qaydada qəbula yazılmış vətəndaş qəbul günü şəxsiyyət vəsiqəsini, müraciət edən vətəndaşın adından qəbula onun nümayəndəsi gəldikdə isə onun səlahiyyətlərini təsdiq edən sənədi təqdim etməlidir. Dəyişikliyə görə, elektron müraciət həmin müraciətə baxan subyektin rəsmi internet informasiya ehtiyatına daxil edilir, həmin subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir, yaxud EHİS üzərindən təqdim olunur. Ümumilikdə, "Elektron hökumət" sahələrində fəaliyyətin daha səmərəli təşkili, dövlət idarəetməsinin optimallaşdırılması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, eləcə də müvafiq sahələr üzrə təhlil aparılması, proqnoz və hesabatlar hazırlanması və onlar əsasında dövlət tənzimləməsini həyata keçirmək üçün zaman-zaman müvafiq normativ hüquqi aktlarda dəyişikliklər edilir.

Rafiq YUSİFLİ



# Yarımçıq xalça (Yarıya bölünmüş Kalb)

**1993-cü il idi. Rayonda, Füzulidə müharibə artıq qapını döyürdü. Amma o vaxt hələ heç kim Füzulinin işğal olunacağını təsəvvür etmirdi.**

Füzulini tərk etməyimizə bir neçə həftə qalmış bir nəfərə kiçik bir xalça sifariş etmişdim, üzərində ürək şəkli olan bir xalça...

Hadisələr qəfil qızışdı. Xalçanı toxuyanlar mənə dedilər:

"Yarısını toxumuşuq, hazırdır... amma bitirə bilməyəcəyik. Şəhərdən çıxmağa hazırlaşırıq. İstəsəniz, bu vəziyyətdə gətirək..."

Və onlar xalçanı mənə gətirdilər, ürəyin yarısı toxunmuş, yarısı isə yarımçıq qalmış halda, bu şəkildəki kimi.

Elə bil qəlbin özü iki yerə bölünmüşdü.

Bu günlərdə evdəki xalçaların arasından onu yenidən çıxardım. Tozunu sildim. Baxdım. Və ilk yadıma düşən Nazim Hikmət oldu... onun məşhur "Angina pektoris" şeiri.

"Angina pektoris" - bu gün hamının "stenokardiya" dediyi xəstəlik. Amma şair üçün bu, təkcə xəstəlik deyildi, parçalanmış bir qəlbin ağrısı idi.

O illərdə Koreya müharibəsi gedirdi. Türk əsgərləri uzaqlarda, Koreyada döyüşürdülər. Çin qüvvələri ilə ağır savaşlar gedirdi. Qəhrəmanlıqlar göstərilir, şəhidlər verilirdi, amma geri çəkilmirdilər. Şairin qəlbi də orada idi, uzaqlarda.

Eyni zamanda Yunanıstanda güllələnənlər, həbsxanalarda əziyyət çəkənlər... Bütün bunlar Nazim Hikmətin ürəyini rahat buraxmırdı. Çünki onun kimi sairin "Klbi" başqa cür "olamaz".

O şeir...Və mənim yarımçıq xalçam...

Hər dəfə o xalçaya baxanda, yarısı toxunmuş, yarımçıq qalmış o ürək mənə yenə o günləri xatırladır, Füzulinin işğal günlərini...

O qarışıqlığı, o qaçhaqaçı, o ağrını...

Bəzən isə bu mənzərə gözümün önündə Karl Bryullovun "Pompeyin son



günü" əsərini canlandırır, hər şeyin bir anda dağıldığı, həyatın yarıda qaldığı o anı..

Nazim Hikmətin "Kalbi" şeirdə deyildiyi kimi yarısı uzaqlarda qalmışdı...

Mənim qəlbim isə o xalçada qalmışdı, yarısı toxunmuş, yarısı Füzulidə qalmış bir xalçada... Amma bir fərq var. İnşallah, o xalçanın yarısını da bərpa etdirəcəyəm. Necə ki, torpaqlarımız bərpa olundu...

Şəhidlərimizin, qazilərimizin, ordumuzun, xalqımızın və Ali Baş Komandanımızın gücü ilə bölünməkdən qurtulan Vətənimiz kimi.

**Nazim Hikmət**

### *ANGİNA PEKTORİS*

**Yarısı burdaysa kalbimin**
**yarısı Çin'dedir, doktor.**
**Sarınehre doğru akan**
**ordunun içindedir.**
**Sonra, her şafak vakti, doktor,**
**her şafak vakti kalbim**
**Yunanistan'da kurşuna diziliyor.**
**Sonra, bizim burda mahkumlar**
**uykuya varıp**
**revirden el ayak çekilince**
**kalbim Çamlıca'da bir harap**
**konaktadır**
**her gece, Doktor.**
**Sonra, şu on yıldan bu yana**
**benim fakir milletime**
**ikram edebildiğim**
**bir tek elmam var elimde, doktor,**
**bir kırmızı elma:**
**kalbim...**
**Ne arteryo skleroz, ne nikotin,**
**ne hapis,**
**işte bu yüzden, doktorcuğum,**
**bu yüzden**
**bende bu angina pektoris...**
**Bakıyorum geceye demirlerden**
**ve iman tahtamın üstündeki**
**baskıya rağmen**
**kalbim en uzak yıldızla birlikte**
**çarpıyor...**

# TikTok gənclərin düşüncə tərzini necə dəyişir?

**Müasir dövrdə sosial media platformaları cəmiyyətin bütün təbəqələrinə təsir göstərsə də, bu təsir ən çox gənclər arasında müşahidə olunur. Xüsusilə TikTok son illərdə sürətlə yayılaraq milyonlarla istifadəçi toplayıb və gənclərin gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. Qısa videolar üzərində qurulan bu platforma yalnız əyləncə məqsədi daşımır, həm də gənclərin düşüncə tərzinə, davranışına və dünyanı qavrama üsuluna ciddi təsir göstərir.**

Adalet.az xəbə verir ki, TikTok-un ən mühüm təsirlərindən biri gənclərin diqqət müddətinin azalması ilə bağlıdır.

Platformada təqdim olunan videoların qısa və dinamik olması istifadəçiləri sürətli informasiya qəbul etməyə öyrədir. Bu isə zaman keçdikcə gənclərin uzun mətnlərə, kitab oxumağa və ya dərin analiz tələb edən mövzulara marağını azalda bilər.

Gənclər daha çox qısa və asan başa düşülən məlumatlara üstünlük verir, nəticədə analitik düşünmə qabiliyyəti zəifləyə bilər. Bundan əlavə, TikTok-un alqoritmi istifadəçinin maraqlarına uyğun kontent təqdim etməklə onun düşüncə çərçivəsini formalaşdırır. İstifadəçi hansı tip videolara baxırsa, platforma ona daha çox həmin mövzuda məzmun göstərir. Bu isə "informasiya balonu" yaradır və gənclərin fərqli baxış bucaqları ilə tanış olma imkanını məhdudlaşdırır. Nəticədə onların dünyagörüşü birtərəfli formalaşa bilər və tənqidi düşünmə zəifləyə bilər.

TikTok həmçinin gənclərin dəyərlər sisteminə və həyat tərzinə təsir edir. Platformada yayılan trendlər, məşhurların davranışları və populyar həyat tərzləri gənclər tərəfindən tez mənimsənilir. Bu isə onların geyim tərzindən tutmuş danışıq üslubuna, hətta həyat məqsədlərinə qədər bir çox sahədə dəyişikliklərə səbəb olur. Bəzi hallarda gənclər real həyatdan uzaqlaşaraq so-



sial mediada gördükləri "ideal həyat" modellərini təqlid etməyə çalışırlar.

Psixoloji baxımdan da TikTok-un təsiri əhəmiyyətlidir. Platformada tez-tez gözəllik standartları, uğur və populyarlıq ön plana çıxarılır. Bu isə gənclərin özlərini başqaları ilə müqayisə etməsinə səbəb olur. Nəticədə özünə inamın azalması, narahatlıq, stress və hətta depressiya halları yarana bilər.

Sosial mediada qəbul olunmaq və bəyənilmək istəyi isə əlavə təzyiq yaradır və bu, psixoloji sağlamlığa mənfi təsir göstərə bilər. Digər tərəfdən, TikTok gənclərin sosial davranışına da təsir edir. Onlar platformada gördükləri hərəkətləri, zarafatları və ya trendləri real həyatda təkrar etməyə çalışırlar. Bu, bir tərəfdən yaradıcılığı və özünüifadəni inkişaf etdirə bilər, digər tərəfdən isə təhlükəli və ya mənfi davranışların yayılmasına səbəb ola bilər. Xüsusilə viral çağırışlar bəzən riskli nəticələr doğura bilir.

Bununla yanaşı, TikTok-un müsbət tərəflərini də nəzərdən qaçırmaq olmaz. Bu platforma gənclərə öz istedadlarını nümayiş etdirmək, yaradıcılıqlarını inkişaf etdirmək və yeni bacarıqlar öyrənmək imkanı verir.

Təhsil, elm, dil öyrənmə və digər sahələrdə faydalı və maarifləndirici kontentlər də mövcuddur. Bir çox gənc TikTok vasitəsilə özünü kəşf edir və yeni imkanlar əldə edir. TikTok gənclərin düşüncə tərzinə çoxşaxəli təsir göstərən güclü bir platformadır. Bu təsir həm müsbət, həm də mənfi ola bilər.

**Əsas məsələ ondan ibarətdir ki, gənclər bu platformadan necə istifadə edir. Əgər istifadə balanslı və məqsədli şəkildə həyata keçirilərsə, TikTok faydalı və inkişaf etdirici bir vasitəyə çevrilə bilər. Əks halda isə diqqət, psixoloji vəziyyət və dünyagörüşü üzərində mənfi təsirlər qaçılmaz olur.**

# Bir tərəfdə cərrah, digər tərəfdə şair

**Talelərə istiqamət verən müqəddəs bir missiyanı həyata keçirən adamlar deyəndə ilk ağlınıza gələn kim olur?**

Mənim ağlıma həkimlər gəlir.

Adamların ən ağır anlarında, ən ümidsiz gecələrində ilk yada düşən kim olur?.. Yenə də həkimlər. Onlar ağrının dilini anlayan, ümidin sönən işığını yenidən alovlandıran insanlardır.

İndi texnologiyanın inkişafı həkimlərin işini dəqiqləşdirə də onlara daha geniş imkanlar tanısa da, insanlarla ünsiyyət ,sevgi və mərhəmət hissi dəyişməz olaraq qalır.

Həkimlərin işi yalnız xəstəlikləri müalicə etməkdən ibarət deyil. Onlar eyni zamanda dost və bəzən də bir ümid çırağıdırlar. Xəstə üçün həkimin bir sözü, bir baxışı çox vaxt dərmandan daha təsirli olur. Bu səbəbdən həkim olmaq üçün yalnız bilik deyil, böyük ürək də lazımdır.

Mənim aləmimdə həkimlər görünməz qəhrəmanlardır. Onlar yalnız bədəni deyil, ruhu da sağaldırlar. Sağlığına qovuşan hər bir xəstə həkimin qələbəsidir. Bu qələbələr sayəsində dünya və yaşam gözəlləşir.

Mən bu yazını qələmə alanda həkim dostum Zərraf Şirinovu yada saldım.. Bu yazının isti, məlahətli və gözəl olması bu adamın sayəsindədir.O mənim üçün gələcəyə inam və möcüzələr aşılayan bir həkim, qayğıkeş və ləyaqətli bir dostdur.



Mən bu yazımın adını çox da düşünmədən

"İki dünyanı eyni ürəkdə daşıyan adam" qoydum.

Niyəsini bütün dostlar,yaradıcı adamlar gözəl bilir..

İnsanlar adətən bir sahədə zirvəyə qalxır, bir sahədə özünü təsdiq edir. Amma elə insanlar var ki, həm ağ xalatın məsuliyyətini, həm də sözün müqəddəs yükünü eyni səviyyədə daşımağı bacarır. Professor Şirinov Zərraf məhz belə nadir simalardandır.

O, əməliyyat otağında həyatla ölüm arasında incə bir xəttin keşiyində dayanarkən soyuqqanlı, dəqiq və peşəkar bir cərrahdır. Skalpel onun əlində sadəcə alət deyil, ümiddir. Bir xəstənin ağrısına əlac olmaq, bir ailənin göz yaşını sevincə çevirmək onun gündəlik işidir.

Tibb elmləri doktoru olmaq sadəcə titul deyil, illərin zəhməti, gecələrin yuxusuzluğu və insan həyatına verilən dəyərin zirvəsidir.

Amma bu tərcümeyi-halın başqa bir tərəfi də var

Qəlbi şəfqətlə dolu bu insanın ürəyində günəşə açılan bir poeziya pəncərəsi də var. Şeir onun üçün sadəcə ifadə vasitəsi deyil ruhunun səsi, qəlbinin etirafıdır. Bəlkə də əməliyyat masasının yanında gördüyü həyat hekayələri misralara çevrilir. Bəlkə də hər xilas edilən həyat, hər itirilən nəfəs onun qəlbində bir şeir doğurur

Zərraf Şirinov, bir tərəfdə cərrah, digər tərəfdə şair. Bir əlində həyat qurtaran dəqiqlik, digər əlində qəlbləri titrədən incəlik. Bu iki aləmi birləşdirmək hər kəsə nəsib olmur. Çünki biri ağıl tələb edir, digəri ürək. O isə hər ikisini eyni anda yaşadanlardandır.

Onun həyat yolu bizə bir həqiqəti xatırladır:

- Əgər daxilində söz varsa yazmalısan, əgər əlində şəfa vermək gücü varsa yaşatmalısan.

Belə insanlar cəmiyyət üçün sadəcə həkim və ya şair deyil Onlar bir dəyərdir. Onlar bir örnəkdir. Onlar insanlığın ən gözəl tərəfinin sübutudur.

Var olun, professor. Siz həm bədəni, həm ruhu sağaldan nadir insanlardansınız

**Onu da deyim ki, bu gün Zərraf həkimlə görüşümüz çox unudulmaz oldu..Necə deyərlər,bir-birimizdən doymadıq...**

**Ayaz ARABAÇI**



Rafiq ƏLƏKBƏR

# Yetimlikdən ucalan şəxsiyyət

(sərbəst esse-poema)

Cənubdan Şimala gələn,
hələ körpə ikən doğmalarını itirən,
içində Tanrı sevgisi və yetimliyin
bütün məhrumiyyətlərini daşıyan,
Allahın xalqıma lütf etdiyi,
dünyanın ən məsum uşağı,
bir qarın çörəyə muzdurluq edən,
əzabların, ağrıların içində qovrulan uşaq,
uşaqlıq səadətindən məhrum olan,
zəhmətin, əməyin ən ağır qatlarına dözən,
iztirablar, məhrumiyyətlər içində böyüyən,
həyatın tərbiyə etdiyi yetim, əmin ol,
Tanrı peyğəmbərləri, imamları da məsum yaratdı...
Onlara insanlığın ən yüksək məqamlarını bəxş etdi.
Mirzə məsumluğu ruhun məsumluğunun,
qəlbin paklığının İlahi rabitəsindən qaynaqlanırdı.
O, hələ bilmirdi ki, Tanrı ona
seçilmiş bir həyat hesablayıb.
Günəmuzd çobanlıqla məşğul olan bu uşaq
hələ bilmirdi ki, lap yaxınlıarda onun üçün
bir ümid işığı parlayacaq.
O, Cənubdan Şimala böyük ruhların
daşıyıcılarının enerjisini gətirmişdi.
Bu günün məsum uşağı olan Mirzə
sabah - Tanrının mirzəsi,
xalqın mirzəsi, millətin mirzəsi olacaqdı.
Xalqına xidmət etmək kimi
İlahi bir missiya ilə mükafatlandırılacaqdı.
Onun uşaqlığı dünyanın ən pis zamanına düşmüşdü,
dünyanın ən zalım despotunun, ən qəddar tiranının
rəhbərlik etdiyi imperiyada yaşamaq
onun bəxtinə yazılmışdı.
Despot rejim bu məsum uşağın biliyinə,
sənətinə heyran qalmışdı.
Zaman bu cür insanları tez-tez yetişdirmir,
çünki Azərbaycanın mirzəsi həm də göylərin mirzəsi idi.
O, öz vətəni, xalqı üçün İlahidən gələn
tapşırıqları yerinə yetirəcəkdi,
o, xalqını, elmli, savadlı görmək istəyirdi.
Ömrünü buna fəda edirdi...
Despot rejimin xalqına qarşı əclaflıqlarına sinə gərirdi.
Məsum Mirzə dədə Mirzəyə çevrilmişdi,
öz nüfuzundan istifadə edərək millətin aydınlarını
imperiya cəlladlarından bacardıqca qorumağa çalışırdı.
Repressiya illərində ziyalıların bir-birindən
donos yazdığı vaxtlarda müdriklik zirvəsinə ucalmışdı.
O, donos yazanlara nifrət edirdi.
Əksinə, imperiyanın Azərbaycan təmsilçisi
Mircəfər Bağırovun üzünə məğrur və qürurla
sözünü deyə bilirdi.
Millətin ziyalılarını qorumaq üçün
ona hər cür təsir etməyə çalışırdı.
Çünki o, artıq məsum Mirzə deyil,
dədə Mirzə idi, müdrik Mirzə idi.
Üzeyir Hacıbəyov, Səməd Vurğun, Xan Şuşinski
və neçə-neçə ziyalı və aydınları qorumaq üçün
Mircəfər Bağırov və Moskvaya etirazını bildirir,
aydınları təmizə çıxarırdı.
Tanrı onu bu xalqa lütf etdi, imperiya
onun qəddini sındıra bilmədi.
Çünki o, özündən çox xalqının gələcəyi
üçün fədakarlıq edirdi.
O, Azərbaycanın gələcəyi üçün çalışırdı,
ona görə "Gələcək gün" epopeyasını yaratmışdı.
Onun məfkurəsində cənublu və şimallı Azərbaycan bir idi.
Ömrünü Şimala həsr etsə də, ruhunda
Böyük Azərbaycan işığı parlayırdı.
O, ruhi qidasını göylərdən alan millət mirzəsi idi.
Tanrının müqəddəs həqiqətləri ilə yaşayırdı,
imperiya manqurtları onu
başa düşməkdən çox-çox uzaq idi.
Manqurtlar ziyalıları, aydınları qanına qəltan edəndə,
o, imperiya rəhbərliyini özü ilə hesablaşmağa məcbur edirdi.
Keçən əsrin 50-ci illərinin ortalarında
imperiyada mülayimləşmə mehi dolaşırdı,
ziyalılar rahat nəfəs almağa başlamışdılar.
Mirzənin dühası daha da işıqlanırdı.
O, Azərbaycan Respublikası Ali Soveti
Rəyasət Heyətinin sədri vəzifəsinə qədər ucaldı.
O dövrdə bu, dövlətin ən ali qanunverici orqanı idi.
Bu vəzifə ona xalqına xidmət etmək üçün
böyük imkanlar yaratdı.
Başqaları bu vəzifədə şəxsi maraqlarını
önə çəkib daha böyük karyeralara can atardılar.
O isə əyninə kəfən geyib bu ali vəzifədə milləti üçün,
xalqı üçün, vətəni üçün böyük işlər görməyə başladı.
O, Azərbaycan dilinin dövlət dili olmasına
imperiya rəhbərliyini razı saldı, baxmayaraq ki,
imperiya rəhbərliyi bundan çox-çox peşman oldu.
Çünki dədə Mirzə bu addımında çox qətiyyətli idi.
Bütün dövlət təşkilatlarında və strukturlarında
Azərbaycan dilinin dövlət dili kimi işlədilməsinə
göstərişlər verdi.
Şər qüvvələr, başda ermənilər olmaqla dədə Mirzəyə qarşı
amansız və çirkab hücumlara rəvac verdilər.
Hər an, addımbaşı ona təxribat hazırlanırdı,
lakin heç bir qüvvə Mirzənin qətiyyətini sındıra bilmirdi,
çünki onun üzərində Allahın lütfü dayanırdı.
Mirzə bütün rəhbərliyi heyrətə gətirmişdi,
hətta imperiya rəhbəri Xruşşov Mirzənin atdığı



vətənpərvər addımlardan təngə gəldiyini dilə gətirirdi.
Lakin Mirzəni öz yolundan çəkindirmək çətin idi,
əməllərində haqqa və ədalətə, qanuna söykənən Mirzə
öz adddımlarını əsaslandıra bilirdi.
O, Azərbaycanın xammal respublikası kimi
istifadə edilməsinin qəti əleyhinə idi,
Azərbaycan qazının, işığının qonşu respublikalara
ucuz qiymətə verilməsini dayandırmaq üçün hökumətə
təsir etməyə çalışırdı, buna qismən nail olurdu.
Bakıda imperiyanın daxili işlər nazirini
divara dirəyən dədə Mirzə idi,
cinayətkarın milliyyətini qabartdığına görə
imperiyanın daxili işlər naziri
Mirzənin ağır ittihamlarına tuş gəldi.
Ona Mirzə tərəfindən elə bir dərs verildi ki,
o, bir daha danışmağa cəsarət etmədi.
Dədə Mirzə üçün millət maraqları,
Vətən maraqları hər şeydən üstün idi.
Onun nurlu əməlləri
millətin gələcəyi üçün mayaka çevrilmişdi.
Dağlıq Qarabağ münaqişəsi başlayanda
o, çoxları kimi qışqırmadı,
Kremlin qurultaylar sarayında, birbaşa
Qorbaçovun yanında ermənilərə xitabən
çox-çox uzaqlara hesablanmış,
müdrikcə bir cümlə işlətdi:
"Allah birini cəzalandırmaq istəyəndə
birinci növbədə onun ağlını əlindən alır".
İndi baxın, görün, Mirzənin bu uzaqgörən fikirləri
necə də öz reallığını tapmışdır.
İxtiyar yaşında dədə Mirzənin
ağsaqqal görkəmi də möhtəşəm idi...
Cahillər Mirzəni anlamaqda çətinlik çəkirdilər.
Mirzə intəhasız bir dərya idi,
Bu dərya Mirzə hikmətləri, Mirzə kəlamları,
Mirzə ədəbi inciləri ilə dolmuşdu.
Çünki o, böyük Mirzə idi,
nə yaxşı ki, tariximizdə dədə Mirzə olub.
Ruhun şad olsun, ey dədə Mirzə!
Tanrı dərgahında elimiz, yurdumuzdan ötrü
öz şəfaət dualarını əskik etmə, ey ulu Mirzə!



# UŞAQ QIĞILTISI - NƏĞMƏ SƏSİ

**"Əgər musiqinin yoxluğu ilə dünya karlıq vahiməsi ilə üzləşərsə, təkcə "Cücələrim" kifayətdir ki, dünya musiqi xiffəti çəkməsin", uşaq qığıltısının təntənəsinə qovuşsun, insanlar yaşamın əbədiliyinə sevinsin.**

"Cücələrim" uşaq mahnısı həmin qığıltının söz və musiqi ilə ifadə olunan ahəngidir. Gəncəli bəstəkar Qəmbər Hüseynlinin körpələri sevərək onları yaşamın gözəlliyinə səsləyən bu uşaq nəğmə-



sindəki ilahi fəhm, ilahi duyum və ilahi ahəng bu dünya durduqca var olacaq, əbədiyyətin yaşam təntənəsinə çevrilən uşaq qığıltısı kimi əks-səda verəcək ...

Körpələrin ifasında səslənən bu nəğmə yaşıdlarının qəlbində hələ tam dolğunluğu ilə dərk etmədiyi sevinc hissi, şaqraq duyğular oyatdı, böyüklər isə yaşanın ömrün qədr-qəymətinin sevincini yaşadı, bir az da, "necə yaşamışam" sualının doğurduğu xiffət hissinə qapıldı...

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında böyük bəstəkar Qəmbər Hüseynlinin 110 illik yubileyi münasibətilə təşkil olunan tədbir körpə "cücələrin" ifasında bu ecazkar nəğmə ilə başa şatdı...

Qəmbər Hüseynli Gəncədə dəmirçi Məşədi Muxtarın ailəsində dünyaya gəlib. Dəmirçi atasının polad çəkiclə zindan üzərində döyəclədiyi dəmirin yaratdığı səs, ritm kimi onun qəlbində xoş duyğular oyadıb, eşitdiyi bu səs onda ahəngə sevgi doğurub və Gəncənin musiqi mühiti, çal-çağır məclisləri, xüsusilə Qarabağın el şənlikləri uşaq qəlbində oyanan bu ritmə coşqu verib, onu musiqiyə bağlayıb. Görkəmli sənətkarlar Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Bülbül, Xan Şuşinski, Məşədi Cəmil Əmirov və başqa görkəmli ifaçıların çıxışları bu coşqunu, bu arzunu qanadlandırıb. Və bu ecazkar musiqi dünyasının cazibəsindən çıxa bilməyib, nota çevrilən ilk könül çırpıntıları onu böyük musiqi yoluna çıxarıb.

Filarmoniyanın kiçik zalında təşkil olunan tədbir tamaşaçı anşlaqı ilə keçdi, əsl ümümxalq sevgisi və gəncəlilərin öz həmyerlilərinə, onun ölməz yaradıcılığına sonsuz etiramının ifadəsinə çevrildi. Görkəmli bəstəkarın yaradıcılığında mahnı və romans yaradıcılığı xüsusi yer tutur. Filarmoniyanın xalq çalğı alətləri ansamblının müşayiəti ilə səslənən "Ay işığında", "Gecələr uzanaydı", "Düşür yadıma", "Gülə-gülə", "Sən-sən", "İlk məhəbbət", "Tellər oynadı", "Ömrümün yazı" və ölməz bəstəkarın əbədilik hüququ qazanmış digər mahnılarının xalq artisti Şahnaz Həşimova, əməkdar incəsənət xadimi Mehbarə Cəfərova, gənc vokalçılar Xəyal Əliyev, Zamira Mustafayeva və Samirə Hacıyevanın yüksək sənətkarlıqla ifaları dinləyicilərdə xoş duyğular oyatdı. İllərin keşməkeşindən süzülüb bu mahnılar Qəmbər Hüseynli yaradıcılığına sonsuz etiramın ifadəsinə çevrildi və alqışlarla qarşılandı.

Gənc tarzən, musiqi məktəbinin 4-cü sinif şagirdi Rövnəq Binnətlinin məharətlə ifa etdiyi "İlk məhəbbət" əsəri Qəmbər Hüseynli yaradıcılığının həmişəyaşarlıq rəmzi kimi səsləndi.

Qəmbər Hüseynlinin 110 illik yubileyi münasibətilə təşkil olunan tədbir dünyanın müxtəlif ölkələrindən olan uşaqların doğma nəğməsinə çevrilən "Cücələrim" nəğməsi gəncəli körpələrdən ibarət xorun ifası ilə başa çatdı.

Bu ümümxalq coşqusu, bu körpə sevinci göstərdi ki, Qəmbər Hüseynlinin şair Tofiq Mütəllimovun sözlərinə bəstələdiyi, dünyanın 100-dən çox xalqının dilində səslənən, yüz milyonlarla uşağın və böyüyün zövqünü oxşayan, sözün əsl mənasında Azərbaycanımızın "vizit vərəqi"nə çevrilən "Cücələrim" nəğməsi dünya durduqca var olacaq, bəstəkarına və xalqımıza tükənməz şöhrət gətirəcək...

Vaqif TANRIVERDİYEV
Gəncə



Tofiq Əmrahov

# Haray, ellərim, haray...

## (Şəhid Həsən Bəhram oğlunun əziz xatirəsinə)

**"Qartal görmək istəyirsənsə, zirvəyə bax..."**

Qartalın iki nəhəng qanadı olduğu kimi, o uca dağların zirvəsində də qartal qanadlarına bənzəyən iki kənd var: biri Todan, o biri Sarısu! Çətin məqamlarda bir-birinə arxa duran iki qardaş kənd... Çox ağrılar görüb, çox əziyyətlər çəkib bu kəndlər, onların insanları...

İndi haqqında söz açacağım şəxs Sarısu kəndinin mərd oğlu, şəhid Həsən Bəhram oğludur...

Bayramov Həsən Bəhram oğlu 17 iyun 1992-ci ildə Göygöl rayonunun Sarısu kəndində dünyaya göz açıb. İlk məktəb illərini Sarısu kəndində və Gəncə şəhərində keçirib. 2011-2013-cü illərdə hərbi xidmətdə olub. Əmək fəaliyyətinə Gəncə şəhər İcra Hakimiyyətində başlayıb. Aqrar Universitetin tələbəsi adını qazanması xəbərini elə döyüş meydanında eşidib. 2020-ci ilin iyun ayında Gəncədəki "N" saylı hərbi hissədən cəbhəyə yollanıb.

Onun ilk döyüş yolu Murovdağdan başlayıb Füzuli, Cəbrayıl və Qubadlıdan keçib. Son döyüşü 5 noyabrda Laçın uğrunda olub. Şəhidimizin nəşi 26 noyabrda yaşadığı Gəncə şəhərinə gətirilib. 27 noyabrda ucu-bucağı görünməyən bir izdihamla Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Göygöl rayonunun Sarısu kəndi... zirvələrdə dayanan o kənd... Az qala əsr yarım düşmən əhatəsində qalıb bu kənd. Dəfələrlə düşmən hücumlarına, təzyiqlərinə məruz qalıb - Sarısu. Məğrur duruşlu Kəpəz dağı ilə üzüzə dayanır bu kənd. Hər səhər Kəpəz dağı sanki Sarısululara sabahın xeyir deyir, onlar da Kəpəzi salamlayır. Kəpəzlə Sarısu arasında gözəlliyi və ucalığı ilə göz oxşayan "Göydağ" durur. Elə bil bu baxışlara, mehribanlığa paxıllıq edir...

Düşmən bu kəndi öz nankorluğu, qəddarlığı ilə xəritədən silmək istədi, lakin arzuları gözlərində qaldı. Çünki bu kəndin zirvələrdə boya-başa çatmış Həsən kimi igid oğulları vardı.

Kəndin çox yerində ucalan sərt qayalar hamıya tanış idi. Ancaq heç kəs o zirvələrə onun baxdığı kimi baxmırdı. Həsən uşaq olanda deyərdi: "Qartallar aşağıdan uçmaz... İnsan da elə yaşamalıdır, qartal kimi!" Adı sadə olsa da, taleyi heç kimə bənzəmirdi. Anası Ruhiyyə xanım xatırlayır ki, o, uşaq vaxtı həmişə hündür yerlərə çıxarmış: "Hey deyərdim, Həsən, qurban olum, düş aşağı, yıxılarsan. O isə baxmazdı; damın üstünə, ağacın başına dırmaşardı, qorxu nədir bilməzdi. Sanki yer onu saxlamırdı, göy isə ucalığa səsləyirdi..." Səhərlər günəş dağın arxasından boylananda kəndin evlərinə işıq süzülür, Kəpəz sanki əlini uzadıb "Oyanın" deyir. Axşamlar isə pıçıldayır: "Yoruldunuz, indi yatıb dincəlin..."

Həsən bu səsləri eşidə-eşidə böyümüşdü. Dağlara baxanda susardı. Heç kim bilmirdi nə danışdıqlarını, amma hamı hiss edirdi: Həsənin ürəyi dağ kimi böyükdür.

Bir dəfə atasına demişdi: - Ata, Kəpəz uzaqdan böyük görünsə də, yaxınlaşdıqca daha uca görünür. Atası



gülümsəmişdi: - Oğul, dağlar yaxınlaşdıqca böyüyər, insanlar da elə olmalıdır...

İllər keçdi... Vətən çağıranda Həsən yenə o dağlara baxdı, Kəpəz isə bu dəfə susmadı: "İndi sənin zirvən başlayır, Həsən!" O, bir an belə düşünmədən getdi. Dağ kimi sakit, qartal kimi qürurlu. Döyüşlərin səsi uzaqlardan gəlsə də, kəndə hər səhər görünən Kəpəz artıq tamam fərqli, qaşlıqabaqlı idi.

Kənd adamları o dağlara baxanda artıq qayaları görmürdülər, bir igidin kölgəsi idi onlara görsənən...

Döyüşə getdiyi gün...arxaya baxdı. Atası Bəhram bir evin tək oğlunu, iki bacının tək qardaşını daban-dabana izləyib yola salırdı. Həsən atasına gülərək səsləndi:

***Rəngim dağların qarı,***
***Yönüm Murova sarı.***
***Ata, ölsəm amandır,***
***Bük məni bayrağa sarı...***

Atası olduğu yerə çökdü, göz yaşları gilələndi üzü aşağı torpağa sarı...

Döyüş günü elə bil göydən buz yağırdı. Elə uşaq vaxtı baxdığı Kəpəzin, Murovun zirvələri kimi Həsən özünü irəli atanda dostları qışqırırdı: "Həsən, ehtiyatlı ol!" O isə gülümsəyirdi: "Qartallar ehtiyatla uçmur, çünki onlar zirvədən baxır." Son güllə səsləri dağlarda əks-səda verəndə, sanki bir qartal qanad çaldı - bu dəfə göylərə doğru, bir daha geri dönməmək üçün...

Kəndə Həsənin şəhid xəbəri gələndə anası Ruhiyyə xanım pəncərədən o tanış zirvələrə baxıb ürəyi qan ağlaya-ağlaya pıçıldadı: "Mən səni həmişə orda görürdüm, oğlum... Demək, doğrudan da yerin oraymış..."

İndi Ruhiyyə xanım hər axşam Kəpəzin kölgəsi kəndin üzərinə düşəndə göz yaşları ilə ağı deyir:

***Lay-lay dedim ürəkdən,***
***Qırdın qolum biləkdən.***
***Sənin igid olduğun,***
***Bilinirdi bələkdən...***
***Lay-lay, balam, a lay-lay***
***İgid balam a lay-lay.***

Həsənin atasına vəsiyyətini bütöv Azərbaycan Bayrağa bükmüşdü...

Yenə anası:

***Arzu diləyim Həsən,***
***Vuran ürəyim Həsən.***
***Dərddən qara yanıbdı,***
***Vallah kürəyim Həsən!!!***

Atası Bəhram bir küncə çəkilib pıçıldayır:

***Oğul, sənsiz təkəm mən,***
***Dərd-qəmim ətək-ətək.***
***Oğlum, dərdin əlimdən,***
***Bu sinəm pətək-pətək...***

Bacılarının fəryadı isə ərşə bülənd olur:

***Ana, cırma yaxanı,***
***Qalmadı yerdə qanı.***
***Azərbaycan ağlayır,***
***O qəhrəman balanı...***

Cənazə böyük bir izdihamla Şəhidlər Xiyabanına üz tutarkən, ana qəlbi yenə sızlayırdı:

***Lal oldu dilim, oğul,***
***Qırılıb belim, oğul.***
***Könlüm səni istəyir,***
***De, necə gəlim, oğul?***

Azərbaycan bir igidini, bir şəhid balasını müqəddəs torpağa əmanət etdi.

**Başın sağ olsun, Vətən!**

**Başınız sağ olsun, Bəhram ata, Ruhiyyə ana!**

**Məkanın cənnət olsun, İgid Əsgər!**

# Azərbaycanda Nyukasl xəstəliyinə yoluxma aşkarlanıb?

**Azərbaycanda müayinələrin və ümumi epizootoloji müşahidələrin təhlili nəticəsində quş qripi xəstəliyinin törədicisinə və xəstəliyə şübhəli klinik əlamətləri olan quşa rast gəlinməyib.**

Bu barədə Adalet.az-a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən məlumat verilib.

Bildirilib ki, həmçinin ev quşlarından götürülmüş diaqnostik nümunələr Nyukasl xəstəliyinə görə də müayinə edilib və yoluxmaya şübhəli hal aşkar edilməyib. Qeyd edək ki, aprelin 6-10-da respublika ərazisində (Naxçı-



van Muxtar Respublikası daxil) quş qripi xəstəliyinə qarşı keçirilmiş epizootoloji monitorinq epizootik risk əsasında müəyyən olunmuş dövlət təbiət yasaqlıqlarının, ovçuluq təsərrüfatlarının və milli parkların su-bataqlıq, dənizsahili zonalar və digər əraziləri əhatə edib.

Habelə su anbarları və çaysahili ərazilərdə ümumi müşahidələr aparılmaqla vəhşi quşlara klinik baxış keçirilib, xəstəlik törədicisinin aşkar edilməsi məqsədilə müxtəlif növ vəhşi quşdan diaqnostik nümunələr götürülüb. Bundan əlavə, 34 sənaye əsaslı müxtəlif həcmli quşçuluq müəssisəsində və 4 rayonun (şəhər) 72 ailə təsərrüfatında müxtəlif növ ev quşlarından laborator müayinə üçün qan və yaxma nümunələri götürülüb.

Əntiqə Kərimzadə

# Ömrün faciəvi kinosu



*Deyirlər ki, insan öz taleyini bəzən özünü seçir. Ancaq bu, həmişə belə olmur. Bəzən yürüdüyün yollarda o qədər eniş- yoxuş olur ki, istər- istəməz büdrəyirsən. Amma bu büdrəmək insan həyatında taleyin hökmünə çevrilməməlidir. Yəni tale insanı əzməməlidir, bir sözlə- həyatla barışmağı bacarmaq gərəkdir. Azərbaycan SSR-in əməkdar incəsənət xadimi, faciəli taleyi olan kinorejissor Lətif Səfərov da taleyi ilə barışmayan incəsənət fədailərindəndir.*

*O, 31 sentyabr 1920-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Balaca Lətifin valideynlərinin boşanmasından sonra (1925), 1927-ci ildə o, anası ilə birlikdə Ağdama köçür. Burda onun üçün həyat daha fərqli olur. Lətif kiçik yaşlarından incəsənətə yönəlir.*

*Belə ki, o, ilk rolunu (Gülgül), 7 yaşı olanda "Gilan qızı" (1927-1928) filmində oynayır.*

*1931-ci ildə Lətif Səfərov ağır xəstələnir və həkimlər ona kinoda çəkilməyi qadağan edirlər. Bir müddətdən sonra o, həmçinin məktəbdən xaric edilir. Bu səbəbdən anasının yanına, Bərdə şəhərinə getməyə məcbur olur. 1935-ci ildə Lətif Bakıya qayıdır.*

*1936-cı ildə (1937) Lətif Səfərov Bakı kinostudiyasında aktyor və rejissor köməkçisi işləməyə başlayır.*

*Kinostudiyanın dublyaj şöbəsində Səfərov "Çapayev", "Biz Kronstadtdanıq", "Lenin Oktyabrda" və s. sovet bədii filmlərinin səsləndirilməsində iştirak edir.1937-ci ildə Lətif Səfərovun atası "xalq düşməni" kimi həbs olunur və Sibirə sürgün edilir. Sonralar o, hadisələri belə xatırlayırdı:"Mən xalq düşməninin oğlu olanda cibimdə pasportum yox idi. Öz müstəqil həyatıma küçədən başlamalı oldum. Onda yeganə yay kostyumunda idim, cibimdə də 10 qəpik pulum vardı. Allaha şükür ki, yay idi, hələ gecələr bulvarımız da isti olurdu. Amma skamyalar gündüzkü kimi bərk idi… İnstitutu bitirəndən studiyanın tapşırığı ilə sərhədçilərdən bəhs edən bir sənədli film üçün material toplamağım yadıma düşür. Bir kapitanın və avtomatçı serjantın məni necə müşayiət etdiklərini xatırlayıram. Elə bilirdim ki, onlar məni qoruyurlar, sən demə, silah altında aparırlarmış ki, birdən o taya keçərəm. Çox şeylər olub…"*



*Kinorejissor1939-ci ildə Gəncə pedaqoji məktəbinin qiyabi şöbəsini fərqlənmə diplomu ilə bitirir. İkinci Dünya müharibəsi Lətif Səfərovun da həyatına təsirsiz ötüşmür. 1941-ci ildə Almaniyanın SSRİ-yə hücum etməsi ilə Lətif Səfərov sovet ordusuna çağırılır. Ancaq onun hərbi xidmətə yararsız olmağı səbəbindən o bir müddət sonra tərxis olunur.*

*O, eyni zamanda həm "Çağırışa cavab"(1947),"Yeni həyat qurucuları" (1949), "Gədəbəyin sərvəti" (1950), "Azərbaycan sərhədçiləri" (1951), "Bakı və bakılılar" (1958) sənədli filmlərinin rejissoru və ssenari müəllifi olmuşdur. Sonuncu film elə həmin ildə Moskvada keçirilən Ümumittifaq Sovet Filmləri kinofestivalında III dərəcəli diplomla təltif olunmuşdur.*

*1950-ci ildə Lətif Səfərov Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsini bitirir.Lətif Səfərovun rejissoru olduğu ilk müstəqil işi "Bəxtiyar" (1955/1956) bədii filmidir. Səfərov həmçinin aşağıdakı bədii filmləri çəkmişdir: "Qızmar günəş altında" (1957),"Leyli və Məcnun" və ya "Məhəbbət əfsanəsi" (1961). O, həmçinin "Qubanın bağlarında" (1953) sənədli filminin rejissorudur.*

*1958-1963-cü illərdən Lətif Səfərov Azərbaycan kinematoqrafiya işçiləri İttifaqının (Azərbaycan Kinematoqrafçılar İttifaqı) sədri vəzifəsini tutmuşdur.Bu illərdə onun şəxsi həyatında dönüş nöqtəsi olur. O, azərbaycanlı müğənni Şövkət Ələkbərova ilə evlənir.Lətif Səfərov dəfələrlə Azərbaycan kinomatoqrafiyasında çatışmazlıqlar mövzusunu qaldırmışdır. O, öz çıxışlarının birində deyirdi:"…Nəyə görə mərkəzdə adamlar öz tariflərini artıra bilirlər, əyalətdə isə yox… ? Mən hesab edirəm ki, bu dövlət nöqteyi-nəzəri deyil, bu məsələnin düzgün qoyuluşu deyil. Bizim nəhayət, soruşmağa haqqımız var: hamı üçün eyni imkanlar nə vaxt yaranacaq? Nə vaxt?.."*

*Nəhayət kino üçün canını fəda edən rejissorun zəhmətinə ilk rəsmi qiymət verilir. Belə ki, 1960-ci ildə Lətif Səfərov Azərbaycan SSR-in əməkdar incəsənət xadimi adına layiq görülür. O, həmçinin "Şərəf nişanı" ordeni ilə də təltif edilib.*

*Hər şey bu qədər yaxşı davam edərkən birdən 1963-cü ilin yanvarında Lətif Səfərov Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri vəzifəsindən çıxarılır. Bu hadisə Lətif Səfərovun demək olar ki, həyatının sonu olur. Kinorejissor baş verənlərə dözə bilmir.*

*O, 9 dekabr 1963-cü ildə ov tüfəngindən özünə atəş açaraq intihar edir. Onu bu aqibətə gətirib çıxarmış ehtimal olunan səbəblər arasında onun həm Kinematoqrafçılar İttifaqından kənarlaşdırılması , həm də ağır, çarəsiz xəstəliyin olması göstərilir.*

# İlahi eşqin sufi poetikasında yol və ruh...



Qalib RƏHİMLİ

*Qibləgahım, ulum, ucam,*
*Əmanətdi yollar, Xocam!*
*Yox, körpü yox- addamacam,*
*Hər kəs məndən keçə bilməz.*

*Varam ”olum” həvəsində,*
*Ruham İmrə nəfəsində,*
*Yol gedir can qəfəsində,*
*Gündüz bilməz, gecə bilməz!*

*Qadir Allah, o bir Allah,*
*Bölənləri bölür Allah...*
*İncəyurdu bilir Allah-*
*Aşiqləri necə bilməz!?*

Mən Rafail İncəyurdun yaradıcılığında İlahilik, sufilik haqqında bir neçə dəfə qısa rəylərdə yazmışam. Şairin təqdim olunan bu şeiri isə dərin fəlsəfi və mistik qatlara malik olmaqla, oxucunu zahiri mətnin hüdudlarından çıxarıb mənəvi təfəkkür müstəvisinə aparır. Bu şeir sadəcə poetik ifadə deyil, həm də insanın ilahi həqiqətə doğru daxili səfərinin bədii təcəssümüdür və zahiri poetik forma ilə batini fəlsəfənin qovşağında dayanır. Bu şeir oxucunu sadəcə emosional təsir altında saxlamaqla kifayətlənmir; o, insanı varlıq, yol, ruh və ilahi həqiqət haqqında düşünməyə sövq edən sufi-fəlsəfi bir mətn kimi açılır. Şeirdə müşahidə olunan sufi-fəlsəfi ruh insanın zahiri varlıqdan batini həqiqətə doğru hərəkətini ifadə edir. Şeir ilk misralardan etibarən ilahi yönəlişlə başlayır:

*Qibləgahım, ulum, ucam,*
*Əmanətdi yollar, Xocam!*

Burada Allah həm qiblə - yəni istiqamət, həm də ucalıq və mütləq həqiqət kimi təqdim olunur. ”Yolların əmanət olması” isə insan həyatının təsadüfi axın deyil, məsuliyyətlə yüklənmiş mənəvi bir missiya olduğunu bildirir. Bildiyimiz kimi sufi düşüncədə bu, ”insanın yolda olması” ideyasına uyğun gəlir. Yəni insan gəlib gedən deyil, gedən və dərk edən varlıqdır. Şeirin növbəti hissəsində poetik ”mən” özünü sərhəd kimi müəyyənləşdirir:

*Yox, körpü yox - addamacam,*
*Hər kəs məndən keçə bilməz.*

Burada ”körpü” obrazının inkarı çoxqatlıdır. Körpü adətən keçid, vasitə, bağlayıcı elementdir. Şair isə artıq başqalarının keçid vasitəsi olmaqdan imtina edir. ”Addamac” hesab edirəm keçilməzlik və fərdi bütövlük mənası daşıyır. Bu da sufi terminologiyada ”nəfsin fərqlənməsi” və fərdin öz batini sərhədini dərk etməsi kimi anlaşıla bilər. Şeirin ən dərin qatlarından biri varlıq axtarışını ifadə edən misralardır:



*Varam ”olum” həvəsində,*
*Ruham İmrə nəfəsində,*

Burada ”olum həvəsi” sadə yaşamaq istəyi deyil. Sufi kontekstdə bu, ”fənadan bəqaya” - yəni nəfsin yox olması və ilahi varlıqda davam etmə istəyidir. İnsan artıq mövcud olmaq üçün yox, həqiqətə çatmaq üçün var olmaq istəyir. ”İmrə nəfəsi” isə Yunus İmrə ənənəsinə işarə edir və bu, şeiri Anadolu sufi poeziya xəttinə bağlayır. Burada ruh artıq fərdi deyil, eşq, sadəlik və ilahi yaxınlıqla nəfəs alır. Şeirin mistik kulminasiyası isə məncə bədən və ruh münasibətində açılır:

*”Yol gedir can qəfəsində,*
*Gündüz bilməz, gecə bilməz!*

”Can qəfəsi” klassik sufi metaforasıdır - ruh bədən daxilində məhbusdur, lakin eyni zamanda azadlığa doğru hərəkətdədir. Burada bir paradoks yaranır. Qəfəs içində olan ruh sərhədsizdir. ”Gündüz bilməz, gecə bilməz” misrası isə artıq zamanın ləğv olunduğu mistik halı ifadə edir. Sufi təcrübədə bu vəziyyət ”vəcd” və ya ”hal” adlanır - burada insan maddi ölçüləri aşaraq yalnız ilahi varlıqla təmasda olur.

Şeirin sonrakı qatında metafizik ədalət prinsipi ortaya çıxır:

*Qadir Allah, o bir Allah,*
*Bölənləri bölür Allah...*

Bu misralar Uca Allahın təkliyini və mütləq ədalətini ifadə edir. ”Bölənləri bölür” fikri isə dərin fəlsəfi məna daşıyır: varlığı parçalamağa çalışan hər düşüncə nəticədə öz parçalanmasını yaşayır. Bu, həm etik, həm də kosmik qanun kimi təqdim olunur. Şeir belə bir sual və cavabla tamamlanır:

*”İncəyurdu bilir Allah -*
*Aşiqləri necə bilməz!?*

Burada şair öz poetik kimliyini daxil edərək Allahın hər şeyi əhatə edən biliyinə işarə edir. ”Aşiq” anlayışı isə sadə məhəbbət deyil; bu, ilahi eşq yolçusudur - yəni salik. Sufi ənənədə aşiq Allaha yönəlmiş, özünü itirib Haqqda tapmış insandır.

Şairin ritorik sualı əslində cavabı özündə daşıyır. İlahi bilik aşiqi mütləq tanıyır.

Bu şeir bütövlükdə insanın ”mən”dən ”Haqq”a doğru hərəkət edən mənəvi yolunun poetik xəritəsidir. Bu şeirdə insan yolçudur, bədən qəfəsdir, ruh sərhədsizdir, eşq isə yolun özüdür. Ən düşündürücü məqam isə şeir oxucunu yalnız estetik təəssüratla deyil, daxili sualla da tərk edir: insan haradan başlayır və harada tamamlanır? Cavab isə sufi poetikasının özündə gizlidir - insan tamamlanmır, o, daim yoldadır.

Mən Rafail İncəyurdun bu şeirinin təsirindən təbii ki, uzun müddət ayrıla bilməyəcəm. Şair doğrudan bir ilahilik və sufilik möcüzəsi yaradıb və şeirdəki təkcə şairin özü deyil, qanan, əvvəl ilə sonu anlayan hər bir kəsdir. Bəlkə də hamımızıq. Bu şeirdə əsas dəyişən də elə budur. Şeir ”hadisə”dən çıxıb düşüncənin özünə çevrilir. Beləliklə şairin bu şeiri bir müddət insanın daxilində qaynayan vəziyyətdə qalır. Bax möcüzə dediyim bir də budur və mən bu şeiri içimdə davam edən alov kimi qavradım. Bu isə ədəbiyyatın ən maraqlı təsir qatıdır. Şeir bitir, amma onun yaratdığı düşüncə bitmir.

# AŞIQ



Xatirə RƏHİMBƏYLİ

**Səlim intizarla doqqaza boylandı.Bayaqdan yüz dəfə gedib-qayıtmışdı,amma Cəlil adında adamdan xəbər yox idi.**

--ALLAH xeyir versin,xoşbəxt olsunlar.

Xələt yazdırıb gedənlərə ”qalın ,musiqiyə qulaq asın”-deməyə ürək eləmirdi Birdən,ALLAH eləməmiş...

Sarı maşın qapıda dayandı.Səlim sevincək doqqaza yüyürdü.Maşından Cəlil düşdü,bir də Səlimin tanımadığı başqa bir oğlan .Səlim intizarla Cəlilin üzünə baxdı və maşının boş olması onun yeddi qatından keçdi.Təəssüf,əsəb,intizar qarışıq boğuq bir səslə:

--Nooldu,ə,bəs?

Cəlil Səlimi eşitmirmiş kimi əyilib maşındakı sazı götürən oğlana :

--Gəl,xalaoğlu,gəl,xoş gəlmisən,--deyib qardaşının qoluna girdi.Doqqazdakı qohumlardan birinə qonağı içəri aparmağı tapşırıb Səlimi kənara çəkdi:

--Hüsügilə getmişdim ki,onu da götürüb gedim Bərdəyə.Tapmışam oradan bir dəstə,gedim gətirim.

Səlim çox gərgin:

--Əşşi,gedəydin də,ta nəyə gəlmisən bura?Vaxt öldürürsən e,özüm ölüm..

Cəlil səsini qısıb:

--Bunu gətirdim də. Dədəmin goruyçün bülbüldü. Pula gəlməyib,eləbelə ...Biz gəlincə məclisi boş keçməyə qoymasın. Danışmışıq,onlar çıxıb oradan .Uzağı bir saat gecikəcəyik.

Səlim fikirli-fikirli çiynini çəkdi.Cəlil pıçıldadı:

--Sən ALLAH qoyma uşaqlar onu incitsinlər.Bilirsən də, cavanları..Qəribdi,yazıqdı.Özün apar mağara.

Səlim fikirli-fikirli başını yellədi.

--Əvvəl qoy bir şey yesin.İçib-eliyən döyül.Qorxma,sanballı uşaqdı.

Cəlil getdi.Səlim oğlana yaxınlaşıb gülümsündü:

--Xoş gəlmisən,qardaş.Bir az dilxoram,sən ALLAH ,bağışla.

Onun qoluna girdi:

--Gedək bir-iki tikə yemək yeyək,sonra başlayarsan.Camaat gözləyir...

Camaat doğrudan da gözləyirdi.Səlimin vəziyyəti yaxşıyadı.Bu toy yaxşı toylardan olmalıydı.Səlim atasını tez itirsə də,özünü itirməmişdi,bacı-qardaşlarını başına yığıb işləmişdi,çalışmışdı,sonra da başqaları kimi Moskvaya getmişdi,əli gətirmişdi,amma özünü itirməmişdi,keçmişini unutmamışdı,bacısını təmtəraqla ərə vermiş,Cəlilə toy eləmişdi.İndi də sonbeşik qardaşının toyu idi.Atası öləndə kiçik qardaşının 2 yaşı vardı,dil açıb Səlimə ”dədə” demişdi.Səlim də onu qardaş yox,oğul gözündə görmüşdü yaş fərqləri az olsa da.And içmişdi ki,ona bir toy eləyəcəm ki,külli-Qarabağda səs salsın.İndi qarmonçalanın qəflətən infarkt olması Səlimi çox əsəbiləşdirirdi:”İşin tərsliyinə bax da!!!”

Tamada onu axtarırdı.Musiqiçiləri soruşacaqdı,bu sazlı oğlanı görüb:

--Bu nədi ,ə?-deyə heyrətlə soruşdu.

Səlim tələsik:

--Cəlil Bərdəyə getdi,gəlincə birtəhər başını qatın da camaatın ...Dağılışmasınlar.Qarmonçalanın vəziyyəti ağırdır,yoldaşları da utanırlar gəlməyə.

Əsgər güldü.Səlim tez çevrilib oğlana baxdı.O,Səlimgili görmürdü,deyəsən.Səlim:

--Sən canın,--dedi yalvarıcı səslə,--gəlib də,pərt eləmə,yazıqdı,qəribdi.

Əsgər əlacsız bir səslə:

--Dur,dur gedək mağara ,xalaoğlu.Döşə bu millətin qabırğasına söz güllələrini.

Oğlan diksindi,Əsgər anlaya bilmədi o nəyə diksindi; ”söz” kəlməsinəmi,”güllə” sözünəmi?

Səlim :

--Əsgər,sən get mağara,oraları qaydaya sal,çalğıçıların gələləcəyini de və mən əvəzdən xahiş et ki,bu qardaşı incitməsinlər,--dedi .Əsgər getdi.Səlim indi də aşığa tərəf dönüb soruşdu:

--Haradansan,qağa?

Oğlan çəkingən bir səslə:

--Dağlıyam,-- dedi.

Səlim bir az pərt səslə:

--Bilirəm e, dağlısan.Qaçqınların əksəriyyəti dağlıdırlar.Düşmən dağlarımızı işğal edib dəə.

Oğlan yaşına uyuşmayan bir tərzdə ah çəkdi:

--Yox,qardaş,mənim kimi dağlısı yoxdu,--dedi.Nəyim var dağlarda qaldı.Bir quru canımı,bir də bu sazı götürüb düşmüşəm üzü bəri.Nəyim varsa,bu saza hopub,bu sazın küpündədi varidatım.Ata-anamın,bacı-qardaşımın,sevdiyimin,eliminobamın,doğulduğum torpağın məzarıdır bu saz.Başımı söykəyib təkbətək qalanda bununla elə bilirəm,o günlərdəyəm yenə,heç nə dəyişməyib.

Elə yer axtarıram bu sazla təkbətək qalmağa.Hərdən dayanıram üzü dağlara ,saza qoşulub çağırıram,çağırıram,nə gəlmir gələnlərim,nə çıxmır zalım canım.

Üzündən 20-25 ilin yorğunu olduğu gorünən bu cavan oğlanın hər kəlməsindən bir dağ asılmışdı,hər sözü adama bir dağ basırdı.Səlimin gözləri dolmuşdu.Bayaqdan hirsi cırmaqlayırdı ürəyini,bu da duz basdı yarasının sıyrıqlarına.Oğlan onun bu halına baxıb:

--Pis olma,qardaş,şad günündü,sevin.Sevinməyə imkanın olanda çox-çox sevin .Çünki sevincə etibar yoxdu,varındısa,qədrini bil layiqincə.Adam sonra peşman olur.

Əskər uşaq göndərmişdi,toyxanaya çağırırdı onları...

Çalırdı...Çaldıqca,barmaqları sazın telləri üzərində gəzdikcə ona elə gəlirdi ki,səsi onun özü yaratmır,səs haradansa uzaqlardan,həmin o bəxtəvər illərdən,həmin o bəxtəvər yerlərdən gəlir .O gözəl günlər gözünün önündən keçdikcə canında qəribə bir şirinlik hiss edirdi.O şirinlik də barmaqlarına qəribə bir incəlik,zəriflik ,həzinlik,eyni zamanda qüdrət,güc verirdi.

O günlərin xatirəsi barmaqlarından axıb sazın üzərinə tökülürdü və saz da səadətin,xoşbəxtliyin tərcümanına çevrildikcə ona daha əziz,daha doğma olurdu.Sazı daha şövqlə sıxırdı sinəsinə.

Budur,səhərin xoş havasında qoyun-quzu səsi bir-birinə qarışıb .Evlərinin yanından keçən kənd sürüsü bütöv küçəni tutub .Bərəkət qalxır üzüyuxarı örüşə.Samaovar pıqqıldayırs .Anası ayaq tərəfdə oturub, atası baş tərəfdə iri,güllü mütəkkəyə dirsəklənib .Uşaqlar da o üz-bu üz süfrənin kənarında bardaşqurma oturublar.Anası çay süzür,bacısı çayları paylayır.Nazlı xala qaymaq göndərib;onların sağılanları azdı,anası süd sərmir,ancaq qatıq çalır.Bir də səhər yeməyinə süd bişirir.

Qəfil kimsə mizrab tutan əlinə vurur:

--Ə,zalım oğlu,yatmısan?Saxla dəə...

Mat-mat danışanın üzünə baxır.Nə istəyir bu kişi görəsən?Niyə onu o şirin xəyallardan ayırdı?

--Bacıoğlu,”Sarıköynək” çala bilirsən?,--ardını gözləmədən-çal,görək.

Sazın simlərini düzəltdi.Başını sazın küpünə dayayıb azacıq dayandı.Sanki gözlərini qıyıb uzaq illərin o üzünə baxırdı.Aha,həmin enişdi-küçələrinin başı.Mizrabı simlərə toxundurdu,sanki o simləri qaldırıb altına baxmaq,oradan o gözəl günləri görmək istətirdi.Sazın həzin səsi o günləri qoynuna almış vaxt dumanını parşçaladı.Odu haa,eniş aşağı enir.Sol tərəfdə,yolun üstündə,enişin lap qurtaracağındakı bulağın başına toplaşmışdı bəxtəvərlər.Allı-güllü geyimlərin içindən gilənar rəngli donu gözü həmin dəqiqə almışdı.Qardaşı alıb gətirmişdi bu məxmər donu o bəxtəvərə Bakıdan.Elə gözəl yaraşırdı ki bu ətəyi enli don ona..Yanpörtü dayanıb.Yəqin duyub gəldiyimi.Həmişə deyir,addım səslərindən tanıyıram səni.Həmişə belədir,özünü görməməzliyə vurur...Gözü qızlarda qalır,ayağı nəyəsə ilişib yıxılır.Yaxşı ki,əlindəki saz çörö-çöpə ilişib cırılmır.Qalxır.Gözü onu arayır.O da qızlara qarışıb gülür,amma üzündə bir təəssüf hissi var,sadəcə özünü gülən kimi göstərir.Səhəngini götürüb gedir.Ürəyi riqqətə gəlir oğlanın :

--Sallana-sallana gələn Salatın,
Gəl belə sallanma,göz dəyər sənə.

--Ə,bala ,sənə kim dedi havanı dəyış?

Havanı o dəyişməmişdi,hava öz-özünə dəyişmişdi.Səlim bayaqdan ona göz qoyurdu.Çaldıqca üzünün-gözünün ifadəsinin dəyişdiyini,gah üzünə səadət şöləsinin yayıldığını,gah da kədər dumanının çökdüyünü görürdü. Bütün toy əhli eşitsin deyə üzünü aşığa tutub ucadan dedi:

--Xalaoğlu,meydan sənindi,nə istəyirsən,necə istəyirsən çal!

Bu istiqanlılıq kövrəltdi onu.Ustası yadına düşdü.O da çətin vəziyyətdən bax belə qaynarlıqla,sirayətedici nitqiylə çıxardı.Sazı kökləyə-kökləyə düşünürdü”Birinci elə o yazığın evini yandırdılar.

Kəndin kənarındakı dikdəydi evi.Murdarlar çoxdan marıtlamışdılar o evi”Ürəyi göynədi.Düçüncələr yenidən alıb getdi onu.Nə çaldığını,nə vaxtdan çaldığını bilmədi.Sazın yanıqlı sədaları altında gördü ki,dədəsi onu sinəsinə sıxdı,bu sazı köynəkdə verdi ona ,dedi ki,ara yolla qaç əmingilə.Sən onlarla get.Biz də Heydər əminlə gedəcəyik.Tez get,əminə de ki,heç nə götürməsinlər.Maşınlarda yer yoxdu.Dərə yolu getsinlər..

Çalırdı,çalırdı,çaldıqca da görürdü ki,səsin-küyün,ağlaşmanın-şivənin,müsibətin,ah-nalənin ,yalvarışın-qarğışın, ufultunun,iniltinin,ulartının,nəriltinin,ciyiltinin,vıyıltının ,tappıltının,güppultunun və s.,və i.a.altıyla qaçır.Əmisigilə çatır.Budur,əmisigilin evi.Evdən insan səsi gəlmir,heç kim yoxdur,gediblər.İtləri bağlı qalıb,zingildəyir.Qəribədir,adi günlərdə göydə uçan quşa da aman verməyən Alabaş indi zingildəyir,sanki ona deyir ki,azad et məni bu cəhənnəmdən,qorxma sənə dəymərəm.iti açır.it qaçır,özü isə hara gedəcəyini kəsdirə bilmir,yenidən geri-evlərinə qayıdır.Kimsə onu saxlayır-Hara ,a bala.O yanı ermənilər tutub.Gəl,gəl otur maşına.

**(ardı 16-cı səhifədə)**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# "GÖZLƏYİN, DÜNYAYA QAYITMAĞIM VAR..."

**"Hərdən şeirin-sözün sıxıntısından, "qələmə gəlməyən sözün, əlimə gəlməyən sözün" ağrısından ürəyim sızıldayır, dünyada məndən ötrü hər şeyin qurtardığı belə anlarda harasa baş götürüb qaçmaq, uzaqlarda, əl çatmayan, ün yetməyən bir yerdə yolumu gözləyən itkin sözlərin dalınca düşmək, doğma, əziz bir adam kimi o sözə sığınmaq, o sözün boyunu oxşamaq istəyirəm" - İsa İsmayılzadə bu sözləri söyləyəndə hələ ölümünə 13 illik bir yol dururdu. Onda 1984-cü il idi, həmin bu sözləri İsa İsmayılzadə "Anamla söhbət" kitabındakı ön sözdə söyləmişdi.**

"...Bu dünyanın, yeni ömrün bir qurtaracağı var, insan nə vaxtsa ölür, sən də, mən də - hamımız öləcəyik..."

İsa İsmayılzadə - bu istedadlı və bənzərsiz Azərbaycan şairi elə sağlığında öz ölümündən danışırdı. Ancaq o, bəzi şairlərdən fərqli olaraq "ölməz Kaşşey" libasına bürünmürdü. Elə bil, ölümün labüdlüyünü dərk edir və buna hazırlaşırdı. Amma haçansa yenidən bu dünyaya bir də qayıdacağına da inanırdı:

***Bu dünyaya bir də qayıtmağım var...***
***Qəbrimin üstündə bitən gülləri,***
***Uyumuş,***
***soyumuş torpağı-daşı***
***Ölüm sükutundan oyatmağım var.***
***Nəsə, ürəyimə damıb, bilirəm-***
***Bəlkə də yüz ildən, min ildən sonra,***
***Milyon ildən sonra-nə bilmək olar-***
***Nə vaxtsa dönəcək ömrün illəri.***

Amma İsa qayıtmadı.

1997-ci ilin iyul ayında sapsağlam bir Azərbaycan şairi birdən-birə ölüm yatağına düşdü və gözlərimizin qarşısında şam kimi əridi, tanışlarının çoxu onun bu qəfil xəstəliyindən xəbər tutmamış dünyasını tərk etdi.

Neçə il əvvəl İsa İsmayılzadənin "Gözləyin, dünyaya qayıtmağım var.." kitabı çap olundu, elə bilirəm, heç bir möcüzə olmadan o kitabla İsa İsmayılzadə öz dostlarının, qələm yoldaşlarının, əzizlərinin görüşünə gəldi. Kitabın tərtibində və nəşrə hazırlanmasında yazıçı Nəriman Əbdülrəhmanlının böyük zəhmətini bəri başdan qeyd edirik. Burada İsanın müxtəlif illərdə çap olunmuş kitablarında seçmə şeirlər, poemalar təqdim edilir, həmçinin sağlığında və ölümündən sonra İsa İsmayılzadə yaradıcılığından söz açan məqalələr də əlavə olunur. Beləliklə, ŞAİR İSA İSMAYILZADƏ obrazı bütünlüklə gözlərimiz qarşısında canlanır.

İsa İsmayılzadə 60-90-cı illər Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biri idi və indi, onun ölümündən keçən bu illər ərzində biz bunu daha artıq hiss edirik ki, onun poeziyası təkcə yazıldığı illərin deyil, bu günün və gələcəyin də poeziyasıdır.

O, elə bir vaxtda ədəbiyyata gəlmişdi ki, artıq sənətdə yeni meyllər, tendensiyalar meydana gəlirdi, İsa və onun mənsub olduğu ədəbi nəsil bədii axtarışlar yolunu tutub bu yeniliyin ədəbiyyatda inikas olunmasında böyük rol oynadılar. Əlbəttə, yenilik, novatorluq həmişə müqavimətlə, mühafizəkarlıqla qarşılanır və İsa İsmayılzadə də bunu özünün sənət taleyində hiss elədi. Yaxşı xatırlayıram ki,İsanın "Yağış gölməçəsi" şeiri mücərrəd, anlaşılmaz, guya ədəbi ənənələrə zidd bir poeziya nümunəsi kimi tənqid hədəfinə çevrildi. İsa yağışın yağmasını, bu yağışdan yaranan gölməçələri təsvir etmişdi, amma necə?

***Yağdı, tala-tala gölməçə yağdı,***
***Göylərin dəlisov ilhamı yağdı,***
***Sərçələrin soyuq "hamamı" yağdı,***
***Yağış gölməçəsi buludla doldu,***
***Günəşlə,***
***payızla,***
***sükutla doldu.***

Sonralar "eksperiment" kimi qəbul edilən bu tipli şeirlər yazmaq adi hala çevrildi və məlum oldu ki, sözün min bir çaları varmış, sözün rəngləri, naxışları, fəsilləri varmış, sadəcə olaraq bunları şeirə gətirmək lazımmış. İllər keçdi və İsa İsmayılzadə də bir çox yaşıdları kimi etiraf olundu, hətta cavanlara qarşı çox qısqanc bir mövqedə dayanan Məmməd Rahim İsanın bir şeiri haqqında ayrıca məqalə yazdı, onu istedadlı bir şair kimi təriflədi. Həmin şeir isə İsa İsmayılzadənin müharibə haqqında yazdığı ən gözəl şeirlərindən biri kimi poeziyamızın inciləri sırasına daxil oldu:

***Getdilər. Getdilər fit çala-çala,***
***Getdilər atları çimizdirməyə.***
***Bizi aparmadılar.***
***Qulançar yığmağa, moruq dərməyə***
***Bizi aparmadılar.***

***Getdilər, getdilər Berlinə sarı,***
***getdilər, getdilər ölümə sarı.***
***Güllələr demədi: geri qayıdın.***
***Lülələr demədi: geri qayıdın,***
***qəlpələr demədi: geri qayıdın,***
***hələ uşaqsınız, nə yaşınız var.***

İsa İsmayılzadənin poeziyası XX əsrin mürəkkəb, təzadlı mənzərəsini əks etdirmək baxımından hər hansı bir tədqiqatçı üçün maraqlı bir mənbə ola bilər. Onun şeir və poemaları vaxtında öz qiymətini alıb. Tərtibçi bu kitaba İsanın yaradıcılığından söz açan ən xarakterik məqalələrə də yer ayırıb. "İmzalar və ümidlər" məqaləsində görkəmli tənqidçi Yaşar Qarayev yazırdı: "Poeziya ilə hər uğurlu görüş yeni bir imzanın təravəti ilə rastlaşanda baş verir. Əsl şeirdə varlıq da, dünya da hər dəfə yenidən, hər dəfə "ilk dəfə" görynə bilər. şairlər varlığın ifadə etdiyi poetik mənanı və bədii sərvəti artırırlar. təbiət özü əlavə bir hüsn, məna kəsb etmədən peyzaca - bədii obraza çevrilə bilmir.

"Yarpaqlar lampa tək alışıb-yanır" - bu ilk misradan obraz artıq tapılır: yarpaqlar yaşıl işığa-lampaya, çırağa bənzədilir. Şeirin bütün sonrakı davamı bu epitet üzərində qurulur. Şair bir daha yarpaq sözü işlətmir, sanki ancaq lampadan, ancaq çıraqdan danışır:

***Yuyur çıraqları noyabr ayı,***
***ehmalca-ehmalca yerə döşəyir.***
***Ehtiyatlı olun, ayaqlamayın,***
***lampalar qırılar,***
***qaralar meşə"***

Yaşar Qarayev İsa İsmayılzadənin altmışıncı illərdə yazdığı şeirlərinin yenilikçi ruhunu düzgün şərh etmişdi. O, doğru qeyd edirdi ki, İsanın bir çox şeirlərində hətta mücərrəd mənəvi anlayışlar, hərəkətlər və proseslər də əyaniləşərək, "cisimləşərək" təsvir edilir.

İsanın poeziyasındakı özünəməxsusluğu Anar belə açıqlamışdı: "İsa İsmayılzadə şeiri rəsm edir, çəkir. O, tapdığı müəyyən bir obrazı, lövhəni kağız üzərində müxtəlif variasiyalarla, dönümlərlə işləyir, çözələyir, eyni bir mənzərəni müxtəlif nöqtələrdən, müxtəlif ölçülərdən göstərir, bir sözlə, eskizlər yaradır.

Məsələn, aşağıdakı misralara diqqət edək:

***Gözüaçıq yatan dəniz,***
***dəniz, səni kim oyatdı?***
***Ay acığı tütan dəniz,***
***kim yuxuna ulduz atdı?***
***Gözlərinmi qamaşdı!***
***Ulduzlarmı qımışdı?***
***Qurcalandın yerində-***
***dalğa yarğanlarından***
***bir gəmilik qəm aşdı.***
***Ulduzlu yorğanına***
***acığı tutan dəniz!"***

Anarın, eləcə də bir çox müəlliflərin qeyd etdiyi bu xüsusiyyət-lövhə, mənzərə, eskiz yaratmaq məharəti, sözlə rəssamlıq etmək məharəti İsanın poeziyasında çox qabarıq nəzərə çarpırdı.



İsa İsmayılzadə dünya poeziyasına vaqif olan bir şair idi. Şeir kitablarının birinə yazdığı ön sözdə deyirdi: "İkinci kursda oxuyarkən, adını təzə eşitdiyim Pablo Nerudanın ikicildlik şeir kitabını mənə bir gecəliyə, ancaq bir gecəliyə oxumağa verdilər.

Axşamdan başlayıb gecə yarıya kimi oxuyub qurtardım, amma P.Nerudanın qüdrətli obraz sehrinin təsirindən qurtara bilmədim: onda inandım ki, dahilərin əlində söz doğrudan da möcüzədir, sehrdir, nə isə, elastik bir materialdır- onu istədiyi səmtə əyə bilir, ondan istədiyi fikri-obrazı ala bilir.

Söz insanın, daha doğrusu, "sehrbaz şairlərin" necə də qulu olarmış( Füzulini, Rilkeni, Svetayevanı, Bloku, N.Hikməti, Voznesenskini oxuyandan sonra bu qənaətim daha da gücləndi). Ölməz Çili şairinin mənə bağışlvadığı o sehirli gecə mənim ömrümdə yuxusuz, narahat obraz gecəsi kimi qaldı.."

Bu məqamda mən unudulmaz şairimiz Məmməd Arazın İsa İsmayılzadənin poeziyasına həsr etdiyi məqaləsinə üz tuturam: "Şairin sənəti söz sənətidir. O, sözünü yüksək sənət dilində deməyəndə, olur yüzün, minin biri, onda da söz sənətindən söhbət aparan olmur.

Deyəndə ki:

***Qatar gedir Araz boyu,***
***Gedir qıvrıla-qıvrıla.***
***Qarşı dağlar görünəndə***
***Qaldım qovrula-qovrula.***
***Araz axır sərhəd boyu,***
***Araz gedir lilli-lilli,***
***Qatar gedir həsrət boyu,***
***Həsrətimin paraleli.***

Haray çəkməyi hamı bacarar, şair kimi haray çək görüm! Söz məzmunu çiyninə götürüb dünyaya göstərir. Hamı şair kimi danışa bilmir, şair isə hamı kimi danışır".

İsanın şeir kitablarından zövqümcə (əlbəttə, isasevərlərin zövqünü də nəzərə alıram) olan şeirləri bir-bir sıralayıram: "1941","Yağış gölməçəsi", "Oyuncaqsız uşaqlığım", "İşıqlar", "İşıqlı yarpaqlar", "Yarpaq odası", "Güllələr demədi", "Mənim qanadlarım olub bir zaman", "Avqust", "Vaxtla uzlaşmağı bacarmayanda", "Qatar gedir Araz boyu", "İkiyə bölünmüş gün", "Mən bir termos şüşəsiyəm", "Duel", "Gözləyin, dünyaya qayıtmağım var...", "Yaxşı adamların azalır, dünya", "Keçdim Qarayazı düzənliyindən", "Ögey oğullara inanma, Vətən", "İçərişəhər". Və onun poemaları: "Böyüdülmüş şəkillər", "Heykəl Nəsiminin monoloqları", "1937", "Haran ağrıyır, Vətən". Bu şeir və poemalvarın hər biri haqqında ayrıca söz açmaq, onların poetik məziyyətləri barədə danışmaq olar.

İsa İsmayılzadə müharibə dövrünün uşağı idi. Bu dövrün uşaqları atasızlıq müsibətini görmüşdülər, qara xəbərlər eşitmişdilər, boyları yetimlikdən uzanmamışdı, oyuncaqsız qalmışdılar.

"Böyüdülmüş şəkillər" poeması fikrimcə, müharibədən çox-çox sonra yazılsa da, müharibənin nə demək olduğunu poeziyada yüksək sənətkarlıqla əks etdirən bir nümunə idi.

Qarabağ savaşı başlanandan sonra İsanın üzü gülmürdü. O, hər gün Qarabağ dərdi ilə yaşayırdı. Ölümündən üç il öncə yazdığı "Haran ağrıyır, Vətən" poemasını dı elə bu ürək ağrısıyla yazmışdı. Azərbaycanın bu müharibədə itgilər verməyi, ölkədəki hərc-mərclik, xaos ona ağır gəlirdi.

***Özü boyda göz yaşıdı Qarabağ,***
***Dərdimizin başdaşıdı Qarabağ.***

Torpaqlarımızın əldən getməyində, fərariliyin qorxulu bəlaya çevrilməsində, kəndlərimizin boşaldılmasında, milli-mənəvi dəyərlərimizin ucuzlaşmasında isə biz günahkarıq. Bu mənada "Haran ağrıyır, Vətən" poeması poetik bir ittihama çevrilir:

***Hara qaçırsan, Oğul?***
***Hara qaçırsan, Vətən?-***
***Sən qurtaran yerdə Ölüm başlayır..***
***Hara qaçırsan Vətən oğlu?!***
***Bakıya uçursan, Vətən,***
***Bakıya köçürsən, Vətən***
***Bakıya qaçırsan, Vətən...***
***Mən belə köç istəmirəm, istəmirəm!***
***Şəhərdən Vətən olmaz...***

Ancaq bu poema-ittihamın sonu nikbinliklə bitir: "döyüş marşı çalınır, haydı, irəli, haydı, irəli, Əsgər Azərbaycanım".

Yadımdadır ki, İsa İsmayılzadə hərdən ədəbi tənqidin kəsərsizliyindən, proseslə ayaqlaşmadığından gileylənirdi, amma heç vaxt tənqidin onun yaradıcılığına biganə qalmığından söz aça bilməzdi. Çünki onun çap olunan hər bir şeir kitabı barədə mətbuatda məqalələr, resenziyalar çap olunurdu.

**SON SÖZ: "Gördüm bu dünyanın hər üzünü mən". Həyatın, dünyanın isti-soyuğunu görmüş bir şairin qırx üç yaşında yazdığı şeirindəndir bu misra. Onun ömür yoluna bu bircə misradan da bələdçi kimi cığır açmaq olar. Bu ömür yolunun ən mənalı keçən günləri, ayları, illəri olub və heç şübhəsiz, onu bütünlüklə səciyyələndirməli olsaq, ŞAİR ÖMRÜ ifadəsi üzərində dayanarıq. İsa doğrudan da, əsl şair ömrü yaşadı - həyatda qazandığı bütün uğurlara, sevinclərə, hətta itgilərə görə də, o, şair ömrünə bağlıdır. İsa bu sənət yolunda işıqlı adamlar da görüb, "səhralar qoynunda çiçək" də görüb, işıqsız adamlar da...Lakin o həmişə zamanın dəyişən küləklərindən öz şair adını ürəyi kimi təmiz saxladı...**



# BAYAT



№ 81 (941)

# Dərindən çağlayan çay - Vəli Xramçaylı

Bu gün Azərbaycan poeziyasının sakit, amma dərindən çağlayan çayı - Vəli Xramçaylının doğum günüdür.Hörmətli Vəli müəllim, Sizi təbrik etmək, bir şair, bir dərviş ruhun saflığına şəhadət gətirməkdir. Siz illərdir o "sarı simi" elə kökləmisiniz ki, səsi-sədası harda oluruqsa olaq, gəlib köksümüzün ən incə yerinə toxunur.

Siz şeirinizdə deyirsiniz:

*Bir karvanın köçündəcə,*
*Mən boyda, mən biçimdəcə,*
*Bu köksümün içindəcə,*
*Öldü, bir Vəli, bir Vəli.*

Amma biz bilirik ki, içinizdə ölən sadəcə dünyanın keçici həvəsləridir. O içindəki "Vəli"ni öldürüb, yerinə bir Dərviş doğuran adamın ömrü əslində elə hər doğum günü yenidən başlayır. Siz namərdin içində mərdi görən, dərdi bölüşməyi deyil, dərdi "bölməyi" (çoxaltmağı yox, mahiyyətinə varmağı) bacaran sənətkarsınız.

*Adamı ovudan qəmdi,*
*Köksümdəki qəmim yenə.*
*Bu yurdun dərya qəmində,*
*Üzər hər gün gəmim yenə.*

Doğum Gününüzdə Sizə Arzum budur:

Gəminiz həmişə üzsün: Ömür dəryasının qəmi çox olsa da, Sizin o "qəm gəminiz" heç vaxt qayalara çırpılmasın. Arzu edirəm ki, o gəmi Sizi həmişə Haqqın sahilinə, mənəviyyatın ən uca limanına çatdırsın. Yolunuz yormasın:

*Tanrım yazıb bu yazını,*
*Nə çoxunu, nə azını.*
*Yol gedərəm yol uzunu,*
*Yol məni yoldan eyləyər.*

deyirsiniz. Qoy o yol Sizi yoldan deyil, sadəcə bu dünyanın toz-torpağından eləsin, ruhunuzu hər il daha da durultsun.

Sazınızın simi qırılmasın: "Üçtelli sazda köklənən" o dərviş ürəyiniz hər zaman eyni amalla vursun. Bu dünyaya uyuşmamağınız Sizin ən böyük zəfərinizdir; qoy bu uyuşmazlıq Sizə həmişə yeni misralar, yeni sədalar bəxş etsin.

"Dərviş Vəli haqq aşığı, - Haqqdan Gələni Söyləyən" Şair!

Siz bu zəmanənin içində Yunus İmrənin nəfəsini, dərvişlərin sükutunu yaşadan bir imzasınız. Sizin ömür yarpağınız hər il yelləndikcə, biz oxucular o yarpaqdan tökülən hikmət payımızı alırıq.

Yaxşı ki varsınız, yaxşı ki bu "yükü duz daşından ağır" olan ömrü mərdanə daşıyırsınız.

Yeni yaşınız Sizə can sağlığı, könül xoşluğu və o heç vaxt bitməyən "İlham pərisinin" dualarını gətirsin.

Adilə Nəzər

# Şairə "Ədalət"dən ad günü hədiyyəsi



Bu dünyanın namərdini,
Görüb tapammaz mərdini,
Öz içində öz dərdini,
Böldü, bir Vəli, bir Vəli.

Yük, yükdü duz daşınnan,
Bir gün keçər öz başınnan,
Öz içində göz yaşınnan,
Göldü, bir Vəli, bir Vəli.

Nə dünyadı bir gədə ki,
Onun önündə gedə ki,
Nə ağlayıb, eh, nə də ki,
Güldü, bir Vəli, bir Vəli.

Bir karvanın köçündəcə,
Mən boyda, mən biçimdəcə,
Bu köksümün içindəcə,
Öldü, bir Vəli, bir Vəli.

***

Adamı ovudan qəmdi,
Köksümdəki qəmim yenə.
Bu yurdun dərya qəmində,
Üzər hər gün gəmim yenə.

Yoluna körpü salına,
Bu qəm də məndən alına,
Mən tək yazığın halına,
Söylə yanar kimim yenə.

Heç soruşma nə söyləyər,
Gedəni yoldan eyləyər,
Köklənibdi qan eyləyər,
Sarı simdə simim yenə.

***

Azı torpaq, çoxu sumu?
Aman Allah, dünya bumu?
Öz əlimlə ömrün şumu
Hər gün bellənər-bellənər.

Duya bilməz nadan, naşı,
Dünya dərddi addım başı,
Bu qəm dolu gözüm yaşı,
Hər gün sellənər-sellənər.

Özünə də çəkir torpaq,
Bu ömrümə şərik ortaq,
Bu ömür də yarpaq-yarpaq,
Hər gün yellənər-yellənər.

### *Dərviş Vəli haqq aşığı*

Düşdükcə sözün sehrinə,
Ilham sinəmi teyləyər.
Yatdıqca sözün mehrinə,
Sözü sinəmdə əyləyər.

Tanrım yazıb bu yazını,
Nə çoxunu, nə azını.
Yol gedərəm yol uzunu,
Yol məni yoldan eyləyər.

Nə olub, zəmanə uşağı,
Eşit, gözümün işığı.
Dərviş Vəli haqq aşığı,
Haqqdan gələni söyləyər.

### *Mən Dərvişəm yer üzündə*

Sel-su tək boşalıb dolan,
Yaş quruyub bu gözümdə.
Bu yollara yoldaş olan,
Bir dərvişəm yer üzündə.

Yolum çox uzaqdı, paşam,
Ayağına qəm dolaşan.
Dərə keçib dağlar aşan,
Bir dərvişəm yer üzündə.

Yurdun qəmilə yüklənən,
Elə bu yüklə təklənən.
Üçtelli sazda köklənən,
Bir dərvişəm yer üzündə.

Sazam, sözəm, deyişməyəm,
Amalında dəyişməyən,
Bu dünyaya uyuşmayan,
Bir dərvişəm yer üzündə.

Eh, nə deyim belə ömrə,
Yanıb-yanıb dönüb kömrə,
Gözün aydın, Yunus İmrə,
Bir dərvişəm yer üzündə.

***

Bu yer günah içindədi,
Soruşuma nə biçimdədi,
Karvanı öz köçündədi
Yığış gedək, Dərviş Vəli
Yığış gedək göy üzünə.

Dərd var nə mənnən addadı,
Yandırıb-yaxıb oddadı,
Dur gedək bağrım çatdadı,
Yığış gedək, Dərviş Vəli,
Yığış gedək göy üzünə.

Kim nə yapır, kim nə qurur,
Fikir vermə, itib qürur,
Göy üzündə qəbrin durur,
Yıgış gedək, Dərviş Vəli,
Yıgış gedək göy üzünə.

***

Həsrətəm qayıdıb dönən yoluna,
Əlim əllərinə uzalı qalıb.
Daha Sənin adın özgə ünvana,
Xatirən qəlbinə yazılı qalıb.

Yox, mən istəməzdim yollar bölünə,
Hər yolun özünün yolçusu varmış.
Mən isə ümidlə yaşadım, demə
Onun da bir həddi, ölçüsü varmış.

İndi tənha qalan Sənsiz ürəyim
Bu dərdi, möhnəti götürə bilmir.
Səni ürəyimdən aparan yollar
Səni ürəyimə gətirə bilmir...

### *Bu sevdanı çəkəmmirəm sinəmdə*

Gözlərimdə giləlenib yaş olub
Ürəyimdə bir göyərməz daş olub,
Dağdan ağır,ağır yükü qoşulub,
Bu sevdanı çəkəmmirəm sinəmdə.

Çəmən ömrüm birdə daha gül açmaz,
Qaya köksüm bir kimsəyə əl açmaz,
Daha könül qanadlanıb heç uçmaz
Bu sevdanı çəkəmmirəm sinəmdə.

Gözum bulud boşalar hey, dolar hey,
Qəmi məndə gecələr hey,qalar hey,
Oda salıb bu canımı alar hey
Bu sevdanı çəkəmmirəm sinəmdə,

Heç bilmirəm hardan belə baş alıb,
Əl atanda, əlim elə boş qalıb,
Hər gün dərdi sinəm üstə boşalıb,
Bu sevdanı çəkəmmirəm sinəmdə.

Qaçmaq olmur,bir əlindən qaçım mən,
Açmaq olmur,bir kimsəyə açım mən,
Qanadım yox qanadlanıb uçum mən,
Bu sevdanı çəkəmmirəm sinəmdə......

***

Gözlərin yenəmi fikrə dalıbdı?
Başıyın üstünü bulud alıbdı.
Ömrüyün yarısı çoxdan qalıbdı
Uzaqda, uzaqda, ay Dərviş Vəli.

Çoxalıb yalandan üzə duranda,
Çoxalıb arxadan adam vuranda,
Yolların çox keçib qarda,boranda,
Sazaqda, sazaqda ay Dərviş Vəli.

Tək bircə yolun var o da ki haqdı,
Düzü qınamaq da vallah nahaqdı,
Bir tabut gözləyir səni nə vaxtı,
Qazaxda, Qazaxda, ay Dərviş Vəli.

### *Bu yurdda yeganə qəm ağacıyam*

Bu yurda yeganə qəm ağacıyam,
Dərdim puçurlayar budaqlarında.
Bayatı, oxşama, nəğmə acıyam,
Nəğməm pıçıldayar dodaqlarımda.

Soruşma halımı, halım necədi?
Köksümün altında ürək çat verib.
Dərdimin bilinməz sayı neçədi?
Dərdim üst-üstə neçə qat verib!

Elə bu dərd ilə tənhayam, təkəm,
Yağar gözlərimdən qəm narın-narın.
Gərək ağrısını mən özüm alam,
Gözümnən könlümə bu yağan qarın.

Yelkənli gəminin dor agacıyam,
Küləklər qovacax əlimdən məni.
Bu yurdda yegane dar ağacıyam,
Bir gün asacaqlar dilimnən məni.

### *Gedək bu şəhərdən, mənim ürəyim*

Kiminin bəxtinə güldü bu şəhər.
Kiminin bəxtinə küldü bu şəhər,
Mənim gözlərimdə öldü bu şəhər,
Gedək bu şəhərdən, mənim ürəyim
Mənim bu şəhərdə nə ölümüm var.

Gah buzdu, gah da kı oddu bu şəhər,
İçimə çölümə yaddı bu şəhər,
Gör məni haraya atdı, bu şəhər,
Gedək bu şəhərdən, mənim ürəyim
Mənim bu şəhərdə nə ölümüm var.

Adamı qarsıyır, sıxır havası,
Bu şəhər ömrümün qərib yuvası,
Hələ qarşıdadı mənlə davası
Gedək bu şəhərdən, mənim ürəyim
Mənim bu şəhərdə nə ölümüm var.

Burda gur işıqlar adam aldadır.
Burda igidlərin başı qaldadı,
Anamın qəbrinin gözü yoldadı
Gedək bu şəhərdən, mənim ürəyim
Mənim bu şəhərdə nə ölümüm var.

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 16 (2488) 1 may 2026-cı il



# XALQIN BİRLİYİ MÖHTƏŞƏM QƏLƏBƏ DEMƏKDİR

**Kim nə deyir desin, xalqın birliyi olmasa heç vaxt heç bir ölkə hansısa istəyinə, məqsədinə çata bilməz. Bizdə belə bir deyim də var: "Xalq bir olsa dağ oynadar yerindən". Bu deyim uzun illərin sınağından çıxıb və həmişə öz təsdiqini tapıb. Ən azından ona görə ki, xalqın sevinci, kədəri, qəmi nə qədər güclü olsa da millət bir yerdə olanda o dağ boyda kədər, dağ boyda qəm çox balaca görünür. Çünki insanlar bir-birinə söykək, arxa olur.**

Heç kimə sirr deyil ki, torpaqlarımızın, ərazimizin 20 faizi ötən əsrin 90-cı illərinin əvvələrində erməni işğalçıları tərəfindən ələ keçiriləndə bu millət, bu xalq heç vaxt ruhdan düşmədi, ümidini üzmədi. Düzdür, bir milyona yaxın məcburi köçkünlərimiz oldu və öz daxili imkanlarımız, gücümüz hesabına onları müxtəlif rayonlarda məskunlaşdırdıq. Üstəlik də o insanların yaşaması, qidalanması və işləməsi üçün çıxış yolları da tapıldı. Millət üçün ən yaxşı çıxış yolu və ümid yeri Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə gətirilməsi oldu.

Ulu Öndər hakimiyyətə gəldiyi ilk gündən xalqa, millətə güvəndi və onları inandırdı ki, ona dəstək olsalar bu millət çətin vəziyyətdən çıxacaq, öz ərazisini işğaldan azad edəcək və işıqlı günlər yaşayacaq. Təbii ki, Ulu Öndərin beynəlxalq aləmdə və dünyada çox böyük nüfuzu vardı. Və o, on il ərzində iqtisadi, siyasi və hərbi cəhətdən çox qüdrətli bir Azərbaycan yaradılmasına nail oldu.

Ulu Öndərdən sonra hakimiyyətə gələn prezident İlham Əliyev ölkəmizi bütün sahələrdə irəli apardı və dünyaya tanıtdırdı. Üstəlik də bir çox möhtəşəm layihələr gerçəkləşdirildi. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da artırdı və istər-istəməz onu gücləndirdi. Erməni işğalçılarının bir-birinin ardınca sərhədyanı rayonlarımızda təxribat törətməsi, terror aktı yaratması və eləcə də yaşayış məntəqələrimizi fasiləsiz surətdə atəşə tutması prezident, Ali Baş Komandan İlham Əliyevin



və Azərbaycan xalqının səbr kasasını doldurdu. Ona görə də Ali Baş Komandanın əmri ilə 2020-ci il sentyabrın 27-də səhər saatlarında bütün sərhədyanı bölgələrdən əks istiqamətə Azərbaycan ordusunun möhtəşəm hücumu başladı. Bəlkə də ermənilər düşünmürdülər ki, Azərbaycan ordusu bu qədər qüdrətli, bu qədər güclü və bu qədər peşəkardır. Çünki onlar fikirləşirdilər ki, bizim ordu 90-cı illərin əvvəllərindəki ordudur. Amma çox yox, sentyabrın 27-dən 30-na qədər Füzuli və Cəbrayıl istiqamətində ordumuzun çox böyük qəhrəmanlıq və şücaətlə döyüşməsi erməniləri tamamilə çaş-baş saldı. Axı onlar nə az- nə çox, düz 30 il böyük müharibəyə hazırlaşmışdılar. Havadarlarının köməyi ilə ən müasir silahla silahlanmış, döyüş mövqelərində müasir bombaların belə çətinliklə dağıda biləcəyi yerlərdə bunkerlər, sığınacaqlar, müdafiə xətləri qurmuşdular. Onlar ona arxayın idilər ki, Azərbaycan Ordusu heç vaxt bir neçə günün içində, onların dili ilə demş olsaq, "Ohanyan səddi"ni yarıb keçə bilməz. Doğrudan da bu sədd altı-yeddi qatdan ibarət idi. Hər tərəf minalanmış, dərin kanallar qazılmış, ağır texnikaların, tankların, BTR-lərin və digər döyüş maşınlarının qarşısını almaq üçün ən müasir güclü müdafiə sistemlərindən istifadə olunmuşdu. Məhz ermənilər də elə bu istehkamların möhkəmliyinə arxayın idi. Amma qüdrətli Azərbaycan Ordusunun qarşısında nə 30 ilin müdafiə sistemləri, nə minalanmış sahələr, nə də bunkerlər tab gətirə bildi.

Belə ki, üç gün ərzində Füzulinin, Cəbrayılın ona yaxın kəndi işğaldan azad olundu. Ermənilər bu döyüşdə çoxlu sayda canlı qüvvələr, ağır texnika və digər döyüş maşınları itirdilər. Onlar hiss edirdilər ki, qarşılarındakı ordu 90-cı illərin əvvəllərindəki əsgərlər deyil, daha peşəkar , daha güclü və ən müasir silahlarla hücuma keçən Azərbaycan əsgəridir. Şübhəsiz ki, ermənilər bir neçə gün öz havadarlarına böyük ümid bəsləyirdilər. Çünki Aprel döyüşlərində onlar yalvardılar-yaxardılar və söz verdilər ki, işğal etdikləri ərazilərdən çıxacaqlar. Amma nə onların havadarları, nə də özləri bir addım belə atmadılar.

Əksinə, düşündülər ki, hələ uzun müddət o havadarlarının köməyi ilə torpaqlarımızı işğal altında saxlayacaqlar. Elə ki Cəbrayıl şəhəri, Hadrut qəsəbəsi işğaldan azad olundu, ermənilərin bütün ümidləri puç oldu. Belə qısa zaman kəsiyində ordumuzun işğal altındakı şəhərləri, qəsəbələri, yaşayış məntəqələrinin ermənilərdən təmizlənməsi onu deməyə əsas verirdi ki, Azərbaycan əsgərinin qarşısını heç bir qüvvə ala bilməyəcək. Çünki Ali Baş Komandan, prezident İlham Əliyev Azərbaycan Ordusuna, Azərbaycan xalqına güvənirdi. Onlar da bir yumruq kimi prezidentin ətrafında birləşmişdi. Artıq "Dəmir yumruq" öz işini görürdü. Cəbrayılın, Hadrutun ardınca Füzuli şəhəri, Zəngilan, Qubadlı işğaldan azad olundu.

Oktyabrın axırlarında Azərbaycan Ordusu Laçın dəhlizini də nəzarətə götürmüşdü. Bu o demək idi ki, artıq erməni ordusu Dağlıq Qarabağda tam mühasirəyə düşür. Bu isə onların tamamilə məhvi deməkdir. Amma Azərbaycan Ordusunun qarşısını heç bir qüvvə ala bilmirdi. Çünki onlar Ali Baş Komandana, Ali Baş Komandan da onlara güvənirdi. Elə gün olurdu ki, ordumuz işğal altında olan onlarla yaşayış məntəqəsini azad edirdi. Ermənilərin mühasirəsi isə günbəgün daralırdı. Bu mühasirə bayaq dediyimiz kimi otuz minə yaxın erməni əsgərinin əsir düşməsi demək idi. Hətta həmin anlarda ordumuz Xankəndini də azad edə bilərdi, çünki Şuşa noyabrın 8-də işğaldan azad olunanda Xankəndinə girmək bir su içim idi. Amma bizimkilər Ali Baş Komandanın tapşırığı ilə həmin mövqedə möhkəmləndilər və noyabrın 10-da Rusiyanın, Azərbaycanın və Ermənistanın iştirakı ilə Bəyannamə imzalandı. Yəni ermənilər təslim aktı imzaladılar və öhdəliklər götürdülər ki, bir müddətdən sonra Ağdamı, Laçını, Kəlbəcəri boşaldacaqlar.

**Azərbaycanın möhtəşəm qələbəsi tək ölkəmizin ərazi bütövlüyünü təmin etmədi, həm də bu qələbə ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da gücləndirdi. Tarix göstərdi ki, Azərbaycan 44 gün ərzində heç bir dövlətin əldə edə bilmədiyi möhtəşəm bir qələbə qazandı və bu qələbə tarixə qızıl hərflə yazıldı. Bu qələbənin adı: "Ali Baş Komandan, Xalq və Azərbaycan Ordusu" oldu. Ona görə də bu gün dünya hərb tarixində ölkəmizin möhtəşəm qələbəsinin sirləri, yolları və sistemi öyrənilir. Bu isə bir daha bizim dövlət başçısının və xalqımızın, eləcə də Ordumuzun böyüklüyünü göstərir.**

**Emin FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# AŞIQ

(əvvəli 12-ci səhifədə)

Tanımadığı biridir,sazı onun əlindən alıb atmaq istəyir,o sərt hərəkətlə kişini itələyir.Kişi təslim olmuş halda:

--Yaxşı,yaxşı,tez ol,otur.

Maşın sürətlə üzüaşağı Keçidə gedir.Keçiddə bir maşın yanır.Onlar keçidə çatmamış düşürlər.Kişi az qala onu sürüyə-sürüyə meşəyə qaçırır.:

--Tez ol,tezz.Yubanma .Pusqu qurublar,əclaflar.Onlar imkan daxilində keçiddən uzaqlaşırlar.Böyük bir qaya parçasının arxasına sığındılar.Onun nəfəsi kəsilmişdi az qala.Gördüyü qana bulaşmış tanış simalar bir-bir göz önünə gəldikcə gözləri böyüyür,boğulurdu.Qəfil sifətinəbir sillə dəydi .O kişi idi."Özünə gəl,kişisən"-deyirdi. Özünə gəldi,üzü üstdə uzanıb keçidə boylandı.Bir maşın çatdı keçidə.Qəflətən əli silahlı bir neçə adam dövrəyə aldı maşını atəş açа-açа.Maşın dayandı .Qapısını açdı silahlilar maşının .İçəridəkiləri dartışdırdılar.Nəyisə maşından çıxarıb irəlidə yanan maşının alovları içinə atdılar.Kimsə maşından çıxdı. O nəyisə oda atan adamın üstünə cumdu.Atəş səsləri gəldi. Maşından çıxan adam yıxıldı.Onu da sürüyüb oda atdılar.Sonra sürəkli atəş səsləri gəlməyə başladı.Əli silahlılar uzaqlaşdılar .Maşını alov bürüdü....O ayağa qalxmaq istəyəndə kişi onum başından aşağı basdı:

--Onlar çoxdu, həm də silahlıdırlar,ağılsızlıq eləmə.

Çalırdı,çalırdı.."Orta sarıtel"ə keçmişdi..Budur,qaranlıq düşüb,ara sakitləşib .Onlar keçidə tərəf sürünürlər.Kişi ona söz vermişdi, öldürülənlərin kimlər olduğunu öyrənməyə gedirdilər.Budur,maşının nömrə nişanı olan lövhəsi.Yanıb qaralıb .Əllərini sürtür nömrələrin üstünə .rəqəmlərin qabarıq işarələri düz gəlir .Alovun işığında baxmaq istəyir,dəmiri qopara bilmir.Kişi yavaşdan pıçıldayır:

--Hə,nooldu,öyrənə bildin?

--Qaranlıqda görünmür.

Kişi hələ də yanmaqda olan bir parçanı işıq salsın deyə ona tərəf gətirir.Gilənar rəngli parça.!!!Bu onun donunun qalığıdır.Qeyri-ixtiyari dəli kimi bağıraraq parçanı kişinin əlindən alır.Kişi tez onun ağzını tutur.Möhkəm tutur,az qalır boğula ,sakitləşir .Parçanı yana-yana sinəsinə sıxır.Bəli,şübhələnmişdi, duymuşdu,amma inanmaq istəməmişdi..Onlar idi öldürülənlər.Heydər əminin maşınıdı yanan ata-,s,anası,Nazlı xala,kiçik qaradaşı,gilənar rəngli don,onun bacı-qardaşı..Hamısı,hamısı bir maşında yanıb kül oldular .Yandılar,yandılar,yandılar...

Çalırdı...gözlərini yumub başını saza söykəmişdi. "Kərəmi"havasına keçmişdi..Saz yanıqlı-yanıqlı danışırdı:"Yoxdu,yoxdu o günlər,"--deyirdi,--"yoxdu,yoxdu o dağlar,o dərələr, o mənzərələr.Yoxdu o ev,o küçə,o bulaq başı,yoxdu o yoxuş,o eniş...yoxdu o baxışlar,o gözlər,o ərk,o məhəbbət.,o sədaqət,o səadət Yoxdu o ata ,o ana ,o şirilik ,o güvən ,o güvənc yeri...Yoxdu o Vətən!" ,--deyirdi saz,--"yoxdu!"

Daha heç nə...heç nə hiss eləmirdi.Heç nəyi yox idi daha,heç kəsi yox idi,bir parşa yanmış gilənar rəngli parça və bir də saz...Saz...Hanı saz? Orda ,o qaya parşasının arxasında qalmışdı.Geri süründü.Kişi:

--Hara gedirsən,yol yalnız buradandır,-deyə pıçıldadı.

--Sazım...

--Yaxşı,tez gəl.

Gilənar rəngli parçanı sinəsinə sıxdı.Tam sönməmişdi hələ parça,əllərini yandırdı ,əlləri yana-yana ovcunda sıxdı onu...

Qayıtdı...Az qalıb kişiyə çatmağa ..Səslər gəldi.Başqa dildə danışırlar.Hərəkətsiz qaldı yerində.Bəs kişi hanı?

Gələnlər acıqlı-acıqlı yanan maşınların ətrafında dolanırlar .Biri yıxıldı. Başqa birisi yıxılanın yanına qaçdı .O da yıxıldı.Üçüncü yıxılanlar tərəfə atəş açdı .Nəsə eləmək lazımdı.Əlini yerə sürtdü,bir çarpanaq daş götürüb qəfil qalxdı və sürətlə irəli cumub daşı üçüncünün başına çırpdı .O bağıraraq yerə sərildi.Kişi qaranlıqdan çıxıb onu susdurdu ,əbədi susdurdu.Kişini qucaqladı,möhkəm- möhkəm ona sarıldı:

--Nə yaxşı səni öldürə bilmədilər,nə yaxşı sən ölmədin...

Kişi də onu sıxmışdı sinəsinə:

--Biz ölməyəcəyik,bizim hələ çox işimiz var,biz onların payını verəcəyik!Biz analarımızın,bacılarımızın ,kör pələrimizin,günahsız insanlarımızın intiqamını alacağıq səninlə birgə!!!

Kişi gəbərmiş ermənilərin silahlarından birini ona verdi,ikisini özü götürdü.

Çalırdı,çalırdı.Cəngi havasına keçmişdi,Cəngi çalırdı...Hava özü dəyişmişdi..."Yanıq Kərəmi" havası Cəngi havasına keçmişdi özü də hiss eləmədən.

Cəlil gəlib çıxmışdı.Uşaqlar çalğıçıların aparatlarını daşıyırdılar toyxanaya.Onun işi qurtarmışdı burada. Amma ürəyi hələ soyumamışdı.O,hələ çalmaq ,çalmaq,çalmaq istəyirdi,İstəyirdi sazının səsi o dağlara gedib çatınca çalsın,dağların başında qarlar əriyincə ,zirvələrdən yuxarıda tale yazan oyanınca çalsın ...

Səlim ona yaxınlaşdı.Qoluna girdi .Bu xoş təmasdan,bu isti münasibətdən kövrəldi.Səlimə baxıb:

--Dağlara gedək,qardaş,--dedi.

Səlim heyrətləndi,qəribəydi,onun da ürəyində qəribə bir dağ həsrəti vardı,onda da dağlara getməyə sonsuz istək yaranmışdı.

---

**Türkiyənin Ege bölgəsində yerləşən Uşak şəhəri zəngin tarixi keçmişi, təbii gözəllikləri və mədəni irsi ilə diqqət çəkən mühüm bölgələrdən biridir. Lidyalılardan Osmanlılara qədər uzanan çoxşaxəli siyasi və mədəni təsirlər şəhərin tarixi strukturunu formalaşdırıb.**

Uşakın tarixi mənbələrdə eramızdan əvvəl 4000-ci ilə qədər uzanan bir tarixi var.

Hetlərdən Frigiyalılara qədər bir çox sivilizasiyaya ev sahibliyi edən Uşak tarix boyu müxtəlif adlarla tanınıb. Şəhərin bilinən ən qədim adı Temenothyriadır, adını Herakliuslu Aristomachusun oğlu Temenosdan almışdır. Temenothyria Flavianlardan sonra Flaviopolis oldu. Bir çox sivilizasiyadan yararlanan Uşak, türklərin Anadoluya gəlişindən sonra Türk-İslam mədəniyyətinin təsirini özündə əks etdirməyə başladı. Türklərlə birlikdə Uşak adı ilə tanınan bu şəhər, Övliya Çələbinin məşhur Səyahətnaməsində (Səyahət dəftəri) "Aşiqlər yurdu" kimi şərh edilirdi.

"Birincilər Şəhəri" kimi tanınan Uşak Egey bölgəsində Qərbi Egey, İç Anadolu və Aralıq dənizini birləşdirən tarixi əhəmiyyətli bir vilayətdir. Yol ayrıcında yerləşən Uşak, Qərbi Anadolunu İç Anadolu ilə birləşdirən Daxili Ege bölgəsində yerləşir. Afyon, Dənizli və İzmir kimi böyük şəhərlərə yaxınlığı, Zəfər Hava Limanına yaxınlığı və asan yol səyahəti Uşakı məşhur bir istiqamət halına gətirir. Uşak İzmirdən 211 km, Ankaradan 368 km, Antalyadan 295 km, İstanbuldan 499 km məsafədədir.

# Dünyada ilk pulun istifadə edildiyi, turistlərin ən sevdiyi şəhər



Daha bir maraqlı məqam isə pul anlayışının dünyada ilk dəfə burada ortaya çıxmasıdır. Bu qədim tarixə malik şəhərdə hal- hazırda təxminən 250 min əhali yaşayır .

Vaxtilə Uşak ərazisindən keçən tarixi Kral Yolu, şəhəri Yaxın Şərq və Ege dənizi arasında mühüm ticarət qovşağına çevirmişdi. Roma, Bizans və Səlcuq imperiyaları dövründə şəhər öz strateji və iqtisadi əhəmiyyətini qoruyub saxlamağı bacarmışdı.

1920-1922-ci illərdə Milli Mücadilə Hərəkatı çərçivəsində Uşak aktiv hərbi mövqedə yerləşirdi. 1 sentyabr 1922-ci ildə Uşak işğaldan azad edildi və Yunan komandanı General Trikopis burada əsir alındı. Bu hadisə şəhərin Türkiyə tarixi üçün simvolik önəmini artırdı. Arxeoloqların hesablamalarına görə bu qədim şəhərin yaranma tarixi 5 min il öncəyə gedib çıxır. Minilliklərlə tarixi olan bu şəhərdə çoxsaylı tarix və mədəniyyət abidələri mövcuddur.

Uşak şəhərində , qədim irsini qoruyan bir sıra muzey və arxeoloji obyektlərlə zəngindir.

**Uşak Arxeologiya Muzeyi:** Lidyalıların "Karun Hazinəsi" ilə məşhur olan bu muzey, bölgədə aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş tapıntıları təqdim edir.

**Atatürk və Etnografiya Muzeyi:** Atatürkün Uşakda qaldığı tarixi binada yerləşir.

**Kent Tarixi Muzeyi:** Şəhərin sosial və siyasi tarixini arxiv materialları ilə əks etdirir.

Uşak şəhərini həm də turizm şəhəri adlandırmaq olar. Hər il milyonlarla turist bu qədim şəhəri ziyarət edir. Rəsmi rəqəmlərə görə 2024-cü ildə bu şəhərə 1 milyondan artıq turist gəlib. Turistlərin ən çox gəldiyi ərazilərdən biri də, sözsüz ki, Ulubey Kanyonudur. Əbəs yerə bu Kanyona Uşak şəhərinin simvolu demirlər.

Dünyanın ikinci böyük kanyonu sayılan Ulubey Kanyonu təxminən 40 km uzunluğunda və 170 m dərinliyindədir. Kanyon üzərində qurulan şüşə terasa sahib baxış nöqtəsi turizmi canlandırmaqda mühüm rol oynayır.

### *Taşyaran Vadisi*

Geoloji baxımdan unikal formaları olan bu vadi, son illərdə ekoturizm sahəsində inkişaf edən istiqamətlərdəndir. Suyun eroziyası nəticəsində yaranmış daş strukturları fotoqraflar və geoturistlər üçün cazibə mərkəzidir.

### *Blaundus Antik Şəhəri*

Makedoniya koloniyası olaraq qurulan Blaundus, hal-hazırda arxeoloji qazıntılarla təhlil edilməkdədir. Qalıqlar arasında antik teatr, nekropol və forum yer alır. Bu ərazi Dünya Mədəni İrs Fondu tərəfindən qorunur. Hər il bu əraziyə yüzminlərlə turist gəlir. Uşak şəhəri sadəcə bir tarixi ərazi deyil, eyni zamanda təbiət, mədəniyyət və sənət baxımından böyük turizm potensialına malikdir. Uşakın ekoturizm, tarix-turizmi və yerli sənət əsərləri bazasında inkişaf etdirilməsi qaçılmazdır.

---

## *Xalq artisti: "Mən varlı deyiləm"*



**Xalq artisti Siyavuş Kərimi görünməyən tərəflərindən söz açıb:**

Adalet.az bildirir ki,o, sənətlə yanaşı məişət qayğılarını da özü idarə etdiyini söyləyib:

" Mən təkcə sənət üçün doğulmamışam. Həm də məişət qayğılarımla maraqlanmalıyam. Məncə bu çox normaldır. Bazara gedib, evə bazarlıq edirəm. Orda bir satıcı ilə yarım saat sövdələşib, sonra başqa satıcıdan alıram (gülür). Bunu zövq üçün etmirəm. Çünki bilirəm ki, qarşımdakı insan məhsulun qiymətini süni şəkildə qaldırıb. Axı mən elə də varlı insan deyiləm. Qiyməti endirməyim isə çox normaldır".

## *Rəhman Məmmədli: "Məclislərdə onun əlin öpmüşəm"*

**Məşhur gitara ifaçısı Rəhman Məmmədli mərhum Xalq artisti Rəmiş haqqında səsləndirdiyi fikirlərlə diqqət çəkib.**



Adalet.az bildirir ki, sənətçi həmkarı ilə aralarındakı gərgin münasibətlərdən söz açıb.:

"Özümdən bir yaş böyük olana da hörmət etməyi bacarıram. Allah yerini cənnət etsin. Bir dəfə özündən soruşdum ki, sənə nə etmişəm ki, məndən bu qədər narazısan?

Dedi ki, bir dəfə televiziyada demisən ki, bu sənəti sənə Allah verib, Allah vergisidir. Cavab verdim ki, mən məktəbsiz, müəllimsiz evdə öyrənmişəmsə, bəs nə deyim, kimə borcluyam deməyim?

Dedi ki, "Allah kimdir, o sənəti sizə mən vermişəm". Çox qısqanc adam idi. Ən çox mənimlə yola getmidi. Məclislər olub ki, gedib onun əlindən öpmüşəm.

Məndən çox efirlərdə Rəmişin sənəti haqqında danışan olmayıb. Amma yenə də ortadakı kin aradan qalxmadı".

## *Elgiz əsəbiləşdi: "Mən elə söz demişəm?!"*



**Xəbər verdiyimiz kimi, Bir çox məşhur aparıcıların proqramlarının yayımı dayandırılıb. Bu məşhurlar sırasında Elgiz Əkbər də yer alır. Aparıcının ARB-də yayımlanan "Elgizlə izlə" proqramının yayımı dayandırılsa da, onun yeni layiə ilə efirə qayıtmağı ilə bağlı məlumatlar yayılmaqdadır.**

Mövzu ilə bağlı Adalet.az-a danışan Elgiz Əkbər bu sözlərin yalan olduğunu söyləyib: "Uzun zaman işləmişəm. Bu qədər tamaşaçı sevgisi qazanmışam. İndi şəxsi işlərimlə məşğulam. Hamı çox söz deyə bilər. Ancaq siz hardasa görmüsünüz ki, bu barədə nəsə danışım və ya yazım? Demişəm efirə qayıdıram? Demişəm yeni layihəm var? Əlbəttə, yox. Bu sözləri demədiyim haqda niyə haqqımda yalan danışırlar?! İnanın ki, hazırda çox məşğulam",

**Əntiqə**

---

**Quba rayonunun İsnov kəndində yaşayan, Azərbaycan Respublikası FHN-nin Quba rayon Dövlət yanğından mühafizə hissəsinin 99 nömrəli Yanğından mühafizə bölməsinin dispetçeri Rəhmanov Eyvaz İdris oğlunun adına Azərbaycan Respublikası FHN tərəfindən 20 iyul 2023-cü il tarixdə verilmiş 1027937A nömrəli daxili xidmət çavuşu vəsiqəsi itdiyi üçün etibarsız sayılır**

***

**Əkbərov Əhməd Bağır oğluna məxsus, 90-OD-443 dövlət qeydiyyat nişanı olan Kia Rio markalı avtomobilin qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

---

Hüsniyyə Əlizadə, Qobu 1 saylı tam orta məktəbin direktoru Şərəf xanım Qasımova, direktor müavini Mahirə Soltanova iş kollektivi ilə birgə Əsmər, Əkbər, Gülsüm Quliyevaya, Nigar Faiq qızına, Məmməd Faiq oğluna, Rasim, Nazim, Fuad, Cəmilə, Tubuxanım, Fikrət, Hikmət Əliyevlərə, Lalə, Gülmira xanıma, Namiq bəyə əzizləri

**Şəhla Nəriman qızı Məmmədovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 276
Çapa imzalanmışdır: 30.04.2026